e-ISSN: 2789-6919

ELMİ TƏDQİQAT

Beynəlxalq Elmi Jurnal

Scientific Research

International Scientific Journal

ELM VƏ TƏHSİL TƏDQİQATLARI
VIII Respublika Elmi Konfransı

RESEARCH IN SCIENCE AND EDUCATION
VIII Republican Scientific Conference

ELMİ TƏDQİQAT
Beynəlxalq Elmi Jurnal

ELM VƏ TƏHSİL TƏDQİQATLARI
VIII Respublika Elmi Konfransı

https://doi.org/10.36719/2789-6919/2025/VIII

SCIENTIFIC RESEARCH
International Scientific Journal

RESEARCH IN SCIENCE AND EDUCATION
VIII Republican Scientific Conference

(19.06.2025)

Bakı – Baku
2025

Beynəlxalq indekslər / International Indices

e-ISSN: 2789-6919
DOI: 10.36719



© Jurnalda çap olunan materiallardan istifadə edərkən istinad mütləqdir.
© It is necessary to use reference while using the journal materials.
© aem.az
© info@aem.az

Sədr

Prof. Dr. Təranə HACIYEVA, Bakı Mühəndislik Universiteti / Azərbaycan

Sədr müavinləri

Assoc. Prof. Dr. Əliş AĞAMİRZƏYEV, Bakı Dövlət Universiteti / Azərbaycan
Assoc. Prof. Dr. Urfan HƏSƏNOV, Gəncə Dövlət Universiteti / Azərbaycan

Məsul katib

Assoc. Prof. Dr. Sevinc SADIQOVA, Azərbaycan Elm Mərkəzi / Azərbaycan

ÜZVLƏR

Prof. Dr. İradə HÜSEYNOVA, ARETN Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutu / Azərbaycan
Prof. Dr. Vaqif ABBASOV, ARETN Akademik Y. H. Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu / Azərbaycan
Prof. Dr. Elşad QURBANOV, Bakı Dövlət Universiteti / Azərbaycan
Prof. Dr. İlham ŞAHMURADOV, ARETN Genetik Ehtiyatlar Institutu / Azərbaycan
Prof. Dr. Səyyarə İBADULLAYEVA, ARETN Botanika İnstitutu / Azərbaycan
Prof. Dr. Dünya BABANLI, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti / Azərbaycan
Prof. Dr. Əkbər AĞAYEV, Sumqayıt Dövlət Universiteti / Azərbacan
Prof. Dr. Bahadur QƏLƏNDƏROV, Bakı Dövlət Universiteti / Azərbaycan
Prof. Dr. Sədaqət HƏSƏNOVA, Naxçıvan Dövlət Universiteti / Azərbaycan
Prof. Dr. Leyla İMAMƏLİYEVA, Bakı Slavyan Universiteti / Azərbaycan
Prof. Dr. Toğrul XƏLİLOV, AMEA Naxçıvan bölməsi / Azərbaycan
Prof. Dr. Rafiq ÇOBANOV, Azərbaycan Tibb Universiteti / Azərbaycan
Prof. Dr. Vaqif SULTANLI, Bakı Dövlət Universiteti / Azərbaycan
Prof. Dr. Fəxrəddin YUSUBOV, Azərbaycan Texniki Universiteti / Azərbaycan
Prof. Dr. Eldar MƏSİMOV, Bakı Dövlət Universiteti / Azərbaycan
Prof. Dr. Maarif CƏFƏROV, Bakı Dövlət Universiteti / Azərbaycan
Assoc. Prof. Dr. Səbinə TARVERDİYEVA, Bakı Slavyan Universiteti / Azərbaycan
Assoc. Prof. Dr. Elnurə ƏZİZOVA, Azərbaycan İlahiyyat İnstitutu / Azərbaycan
Assoc. Prof. Dr. İsmayıl MÜRSƏLOV, Naxçıvan Müəllimlər İnstitutu / Azərbaycan
Assoc. Prof. Dr. Həbib MİRZƏYEV, Azərbaycan Texniki Universiteti / Azərbaycan
Assoc. Prof. Dr. Aytac ZEYNALOVA, Azərbaycan Dillər Universiteti / Azərbaycan
Assoc. Prof. Dr. Qərənfil QULİYEVA, Bakı Dövlət Universiteti / Azərbaycan
Assoc. Prof. Dr. Arif HÜSEYNOV, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
Assoc. Prof. Dr. Könül HƏSƏNOVA, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
Assoc. Prof. Dr. İradə KƏRİMOVA, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
Assoc. Prof. Dr. Sevinc HƏMZƏYEVA, Sumqayıt Dövlət Universiteti / Azərbaycan
Assoc. Prof. Dr. Rəşad HÜSEYNOV, Xəzər Universiteti/ Azərbaycan
Assoc. Prof. Dr. Asif MANAFOV, AMEA Zoologiya İnstitutu/ Azərbaycan
Assoc. Prof. Dr. Zabitə TEYMURLU, Bakı Mühəndislik Universiteti / Azərbaycan

Assoc. Prof. Dr. Şəlalə ZEYNALOVA, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
Assoc. Prof. Dr. Fəxrəddin AĞAYEV, Əkinçilik Elmi Tədqiqat İnstitutu /Azərbaycan
Assoc. Prof. Dr. Rövşən HÜMBƏTƏLİYEV, Azərbaycan Dövlət Dəniz Akademiyası / Azərbaycan
Assoc. Prof. Dr. Aygün SULTANOVA, Naxçıvan Dövlət Universiteti / Azərbaycan
Assoc. Prof. Dr. Rafiq İBRAHİMOV, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti / Azərbaycan

THE ORGANIZING COMMITTEE

Chairman

Prof. Dr. Tarana HAJIYEVA, Baku Engineering University / Azerbaijan

Vice-chairmen

Assoc. Prof. Dr. Alish AGAMIRZEYEV, Baku State University / Azerbaijan
Assoc. Prof.Dr. Urfan HASANOV, Ganja State University / Azerbaijan

Responsible secretary

Assoc. Prof. Dr. Sevinj SADIGOVA, Azerbaijan Science Center / Azerbaijan

MEMBERS

Prof. Dr. Irada HUSEYNOVA, Institute of Molecular Biology and Biotechnology of MSERA / Azerbaijan
Prof. Dr. Vagif ABBASOV, Institute of Petrochemical Processes named after Academician Y. H. Mammadaliyev of MSERA / Azerbaijan
Prof. Dr. Elshad GURBANOV, Baku State University / Azerbaijan
Prof. Dr. Ilham SHAHMURADOV, Institute of Genetic Resources of MSERA / Azerbaijan
Prof. Dr. Sayyara IBADULLAYEVA, Institute of Botany of MSERA / Azerbaijan
Prof. Dr. Ismayıl ALIYEV, Baku State University / Azerbaijan
Prof. Dr. Dunya BABANLI, Azerbaijan State Oil and Industry University / Azerbaijan
Prof. Dr. Akbar AGHAYEV, Sumgayit Statet University / Azerbaija
Prof. Dr. Bahadur GALANDAROV, Baku State University / Azerbaijan
Prof. Dr. Sadagat HASANOVA, Nakhchivan State University / Azerbaijan
Prof. Dr. Leyla IMAMALIYEVA, Baku Slavic University / Azerbaijan
Prof. Dr. Toghrul KHALILOV, Nakhchivan branch of ANAS / Azerbaijan
Prof. Dr. Rafig CHOBANOV, Azerbaijan Medical University / Azerbaijan
Prof. Dr. Vagif SULTANLI, Baku State University / Azerbaijan
Prof. Dr. Fakhraddin YUSUBOV, Azerbaijan Technical University / Azerbaijan
Prof. Dr. Eldar MASIMOV, Baku State University / Azerbaijan
Prof. Dr. Maarif JAFAROV, Baku State University / Azerbaijan
Assoc. Prof. Dr. Sabina TARVERDIYEVA, Baku Slavic University / Azerbaijan
Assoc. Prof. Dr. Elnura AZIZOVA, Azerbaijan Institute of Theology / Azerbaijan
Assoc. Prof. Dr. Ismayil MURSALOV, Nakhchivan Institute of Teachers / Azerbaijan
Assoc. Prof. Dr. Habib MIRZAYEV, Azerbaijan Technical University / Azerbaijan
Assoc. Prof. Dr. Aytaj ZEYNALOVA, Azerbaijan University of Languages / Azerbaijan
Assoc. Prof. Dr. Garanfil GULIYEVA, Baku State University / Azerbaijan
Assoc. Prof. Dr. Arif HUSEYNOV, Azerbaijan State Agrarian University / Azerbaijan
Assoc. Prof. Dr. Konul HASANOVA, Azerbaijan State Pedagogical University / Azerbaijan
Assoc. Prof. Dr. Irada KARIMOVA, Azerbaijan State Pedagogical University / Azerbaijan
Assoc. Prof. Dr. Sevinj HAMZAYEVA, Sumgayit State University / Azerbaijan
Assoc. Prof. Dr. Rashad HUSEYNOV, Khazar University / Azerbaijan
Assoc. Prof. Dr. Asif MANAFOV, ANAS Institute of Zoology / Azerbaijan
Assoc. Prof. Dr. Zabita TEYMURLU, Baku Engineering University / Azerbaijan
Assoc. Prof. Dr. Shalala ZEYNALOVA, Azerbaijan State Agrarian University / Azerbaijan
Assoc. Prof. Dr. Fakhraddin AGHAYEV, Scientific Research Institute of Agriculture / Azerbaijan
Assoc. Prof. Dr. Rovshan HUMBATALIYEV, Azerbaijan State Maritime Academy / Azerbaijan
Assoc. Prof. Dr. Aygun SULTANOVA, Nakhchivan State University / Azerbaijan
Assoc. Prof. Dr. Rafiq IBRAHIMOV, Azerbaijan State Oil and Industry University / Azerbaijan

https://doi.org/10.36719/2789-6919/2025/VIII

HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR
HUMANITIES AND SOCIAL SCIENCES

Həcər Hüseynova
Azərbaycan Dövlət Pedaqoji Universiteti
filologiya üzrə elmlər doktoru
https://orcid.org/0000-0002-3223-427X
hacerhuseynova@mail.ru

Ceyhun Hacıbəylinin dialektoloji fəaliyyəti

Açar sözlər: *dialekt, folklor, təhsil, musiqi, sülh*
Keywords: *dialect, folklore, education, music, peace*

Ədəbiyyatımızın, tariximizin, publisistikamızın inkişafında və təbliğində müstəsna xidmətləri olan C.Hacıbəyli 1891-ci il fevralın 3-də Şuşa şəhərində anadan olmuşdur. Ceyhun bəy ilk təhsilini əvvəl Şuşada almış, sonra Bakıda rus-tatar məktəbində davam etdirmişdir. C.Hacıbəyli "Leyli və Məcnun" əsərini yazarkən Ü.Hacıbəyova yaxından kömək etmiş, hətta İbn Səlam və Nofəl rollarında çıxış etmişdir. Bu haqda C.Hacıbəyli "İlk Azərbaycan operası necə yaranmışdır?" məqaləsində bəhs etmişdir. 1962-ci ildə Ceyhun bəy musiqi ilə maraqlanmış, Parisdə musiqi təhsili almağa çalışmışdır. Lakin maddi sıxıntılar üzündən təhsili yarımçıq qalmışdır.

Ceyhun bəy bədii yaradıcılıqla məşğul olmağa da üstünlük vermişdir. Turgenevin "Pulsuzluq" komediyasını 1909-cu ildə Azərbaycan dilinə tərcümə etmişdir.

Yeni qurulan Azərbaycan hökumətinin 3 sentyabr 1918-ci il tarixli qərarına əsasən, bir çox çətinliklərlə dörd nömrəsi Gəncə şəhərində çıxan "Azərbaycan" qəzeti oktyabr ayının 3-dən fəaliyyətini Bakıda davam etdirmişdir. Qəzet oktyabr ayının 8-

https://doi.org/10.36719/2789-6919/2025/VIII

nə kimi redaksiya heyəti adından, sonra isə 1919-cu ilin yanvar ayının 16-na kimi Ceyhun bəyin müdirliyi ilə çap edilmiş, yəni Ceyhun bəy Hacıbəyli "Azərbaycan" qəzetinin ilk redaktoru olmuşdur.

O, Avropa dillərini sərbəst bildiyi üçün 1919-cu ilin yanvar ayının 6-da Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən Parisdə keçiriləcək Versal Sülh Konfransı üzrə "müşavir" təyin olunmuşdur. Həmin gün Ceyhun bəyə Sülh konfransında iştirak etmək üçün şəhadətnamə də verilmiş, 1919-cu il yanvar ayının 7-də orada iştirak edən Ceyhun bəylə birgə bütün heyətə Nazirlər Şurasının sədri Fətəli xan Xoyski və A.Ziyadxanovun imzası ilə "General" mandatı təqdim olunmuşdur. Parisdə-Versal Sülh Konfransında (1919) Antanta Azərbaycan Respublikasının istiqlaliyyətini tanımışdır. Lakin elə məhz bu məsələ sovet Rusiyasının qəzəbinə səbəb olmuş, Ceyhun bəy və digərləri, onların ailələri təqib olunmuşlar.

C.Hacıbəyli hələ gənclik illərindən Azərbaycan ədiblərinin əsərlərini fransız, ingilis dillərinə çevirmiş, Üzeyir bəyin məşhur "Arşın mal alan" komediyası məhz Ceyhun bəyin tərcüməsində ilk dəfə 1925-ci ildə Parisin "Femino" teatrında tamaşaya qoyulmuşdur. 1933-cü ilin yanvar-mart aylarında Parisdə nəşr olunmuş "Asiya" jurnalının əlavə xüsusi buraxılışında C.Hacıbəylinin 144 səhifədən ibarət olan "Qarabağ dialekti və folkloru" əsəri dərc edilmişdir.

Azərbaycan ədəbiyyatını, incəsənətini, tarixini yetərincə təbliğ edən Ceyhun bəy Hacıbəyli 1962-ci ildə Fransada vətən həsrəti ilə gözlərini əbədi yumub Parisin Sen-Kulu qəbiristanlığında torpağa tapşırılıb.

Qarabağ dialekti həmişə tədqiqatçıların diqqət mərkəzində olmuşdur. Dialektoloji monoqrafiyalarda, dissertasiyalarda qarabağlıların nitqindən müqayisə məqsədi ilə istifadə edilmişdir. Həmin dialektə daxil olan şivələr fərdi və monoqrafik yolla tədqiq olunmuşdur. Bu baxımdan C.Hacıbəylinin görkəmli

https://doi.org/10.36719/2789-6919/2025/VIII

türkoloq A.N.Samoyloviçin məsləhəti və köməyi ilə yazdığı və 1933-cü ildə "Aziatik" jurnalında çap edilən "Qarabağ dialekti və folkloru" ("La Dialecte et la folk-lore du Karabagh") adlı dərin məzmunlu məqaləsi böyük tarixi əhəmiyyət kəsb edir.

C.Hacıbəyli Qarabağ dialektinin Azərbaycan ədəbi dilindən və başqa dialekt və şivələrindən fərqini göstərmək üçün "gəlibdir" feilinin ədəbi dildə "gəlibdir", Qarabağda "gəlifdi", Bakıda və Şamaxıda "gəlibdü", Şəkidə "gəlitdi", Quba və Dərbənddə "gələtdi" şəklində işləndiyini, "gedibdir" feilinin də həmin qaydada tələffüz olunduğunu qeyd etmişdir. Qarabağ dialektinin səciyyəvi xüsusiyyətlərindən bəhs edərkən C.Hacıbəyli bir neçə cəhəti diqqətə çatdırmışdır: 1) Bəzi hərflərdə vurğunun yerini dəyişdirməklə "v - f kimi" işlənir. Məsələn, gəlib- [gəlif] və s. 2) Ayrı-ayrı hərfləri nəzərə çatdırmaqla dəyişikliklərin edilməsi. Məsələn, Qarabağda "mana, sana" sözləri başqa regionlarda "mənə, sənə" kimi tələffüz edilir. 3) Son hərf əvvəlinci hərf ilə birləşdirilir. Məsələn, ora gedib→ora gedif→ oraeydif//oreydif şəklində işlədilməsi. C.Hacıbəylinin araşdırmasından belə bir nəticə çıxır ki, üçüncü cəhət yalnız kəndlərdə yaşayan əhalinin dilində işlədilir və müəllif bəzi adamların dilində sözlərin tələffüzü zamanı ədəbi dil qaydalarına əməl edildiyini də vurğulamışdır.

Topluda Qarabağ dialektinə dair bəzi məsələlərə də toxunan C.Hacıbəyli yazırdı: Qarabağ dialekti səslənməsinə görə çox zəngin, formasına görə çox cazibədardır. Fransanın cənub dialekti Fransa üçün necədirsə, Qarabağ dialekti də Azərbaycan üçün elədir". Qarabağ dialekti zəngin lüğət tərkibinə malikdir. Burada xalqımızın qədim adət-ənənələri, keçmiş ictimai quruluş, həyat, məişət, ailə və təsərrüfatla bağlı saysız-hesabsız sözlər işlənir.

C.Hacıbəyli dialektin leksikasına aid topladığı sözləri aşağıdakı kimi qruplaşdırmışdır: 1.Müraciət formaları: əmi, dayı, əmioğlu, dayıoğlu, xala, xalaoğlu, bəy, ağa; 2. Ailə

https://doi.org/10.36719/2789-6919/2025/VIII

üzvlərinin adları: ata, dədə, ağa, ana, nənə, məmə, oğul, qız, qardaş, bacı, dayı, mama (bibi), nəvə, nəticə, kötükcə, ulubaba və s. 3. Uşaq sözləri: hoppadannan; 4. a-ə əvəzlənməsi: bəci, məmə, dədə; 5. At adları: Şahmar, Yelmar, Çafqın, Toxmax, Meymun, Qaşqa, Köhlən; 6. İt adları: Alabaş, Qarabaş, Bozdar, Topuş, Xallı, Axdar, Ambır, Sambır, Qaflan və s.

C.Hacıbəylinin fransız dilində çap olunmuş "Qarabağ dialekti və folkloru" kitabı filologiya elmləri namizədi B.Ağayevin tərcüməsində Bakıda nəşr olunmuşdur. Belə əsərlərdən biri də "Qarabağ: folklor da bir tarixdir" (Bakı, 2013) kitabıdır. "Qarabağ folklorunun toplanması, sistemləşdirilməsi və araşdırılması" adlı layihə əsasında çap olunan kitabın V və VI cildləri sırf Qarabağın ağız ədəbiyyatına, folklor nümunələrinə həsr edilmişdir və çox böyük zəhmətin nəticəsidir. Kitabın V cildində Qarabağın Bərdə, Füzuli, Şuşa, Ağdam, Zəngilan rayonlarından toplanmış mifoloji mətnlər, rəvayətlər, bu ərazilərdə yerləşən pirlər, türbələr, tayfa və nəsillər, tarixi şəxsiyyətlər, etnoqrafik mətnlər, hətta nağıllar belə öz ifadəsini tapmışdır. VI cilddə isə Cəbrayıl, Kəlbəcər və Tərtər rayonlarından toplanmış materiallar əks olunmuşdur.

Məlumdur ki, tarixi inkişaf boyunca dilin ən cox dəyişikliyə uğrayan hissəsi dilin leksik sistemidir. Dialekt və şivələrin leksik sistemində baş verən dəyişikliklər, milli və alınma dil vahidləri, arxaizmlər, omonim, sinonim, antonim və digər sözlər-leksik-semantik qruplar sistemli şəkildə tədqiq edilərsə, dilin ümumi mənzərəsi aydın şəkildə meydana çıxar. Qarabağ dialekt və şivələrində bir çox leksik-semantik, leksik-tematik qruplar var ki, biz onların areallığı ilə qarşılaşırıq. Onlar bəzən cüzi məna dəyişikliyi ilə, cüzi fonetik dəyişmələrlə, bəzən də heç bir dəyişiklik olmadan digər dialekt və şivələrdə də işlənməkdədir.

Elm və Təhsil Tədqiqatları **VIII Respublika Elmi Konfransı / 19 iyun 2025 / 10-14**
Research in Science and Education **VIII Republican Scientific Conference / 19 iyun 2025 / 10-14**
https://doi.org/10.36719/2789-6919/2025/VIII

Könül Abdurəhmanova
Azərbaycan Dillər Universiteti
filologiya elmləri doktoru
https://orcid.org/0000-0002-2494-3754
Abdurehmanova.kenul@outlook.com

Emosiyaların linqvistik təhlili və süni intellekt tədqiqi

***Açar sözlər**: emosiya, linqvistik təhlil, süni intellekt, emosional intellekt, nitq emalı, emosional semantika, sentiment təhlil*

***Keywords**: emotion, linguistic analysis, artificial intelligence, emotional intelligence, speech processing, emotional semantics, sentiment analysis*

Tezisdə emosiyaların linqvistik təhlili və süni intellekt sistemlərində emosional komponentin tədqiqi məsələləri araşdırılır. Müasir süni intellekt sistemlərinin insan emosiyalarını təhlil etmək və tanımaq qabiliyyəti dilçilik, kompüter elmləri və koqnitiv psixologiyanın kəsişməsində olan aktual tədqiqat sahəsidir. İnsan nitqində emosiyaların ifadə vasitələri və onların kompüter sistemləri tərəfindən təhlil edilməsi üsulları müzakirə olunur. Tezisdə eyni zamanda, emosiyaların təhlilində süni intellektin qarşılaşdığı çətinliklər və bu sahədə son elmi nailiyyətlər təqdim edilir.

İnsan ünsiyyətinin mühüm komponenti olan emosiyalar, verbal və qeyri-verbal vasitələrlə ifadə olunur və kommunikasiya prosesində məna formalaşmasında əhəmiyyətli rol oynayır. Müasir texnologiyaların inkişafı ilə süni intellekt sistemlərinin emosiyaları təhlil etmək və tanımaq bacarığı həm elmi, həm də tətbiqi baxımdan böyük maraq doğurur. Emosiyaların linqvistik

təhlili və süni intellekt sistemlərində tətbiqi, insan-kompüter əlaqəsini daha təbii və effektiv etməyə imkan yaradır.

Bu tədqiqatın əsas məqsədi emosiyaların linqvistik ifadə vasitələrini araşdırmaq və süni intellekt sistemlərində emosional komponentin təhlil mexanizmlərini öyrənməkdir. Tezisdə həmçinin Azərbaycan dilində emosiyaların ifadəsinin spesifik xüsusiyyətləri və onların süni intellekt tərəfindən tanınması üçün tətbiq olunan metod və modellər nəzərdən keçirilir.

Emosiyaların linqvistik ifadə vasitələri: emosiyalar dildə müxtəlif səviyyələrdə - leksik, qrammatik, fonetik və praqmatik vasitələrlə ifadə olunur. Leksik səviyyədə emosiyalar birbaşa olaraq emosional leksika vasitəsilə (sevinc, kədər, qəzəb və s.) və ya emosional çalarlı sözlərlə ifadə edilir. Qrammatik səviyyədə isə nida cümlələri, əmr formaları, xüsusi sintaktik konstruksiyalar emosiyaların ifadəsində əhəmiyyətli rol oynayır.

L.Hüseynova (Hüseynova, 2018) öz tədqiqatlarında qeyd edir ki, Azərbaycan dilində emosiyaların ifadəsi üçün xüsusi leksik vahidlərin bolluğu və müxtəlif frazeoloji birləşmələrin zənginliyi xarakterikdir. Məsələn, "ürəyi sıxılmaq", "gözləri parıldamaq", "qanı qaralmaq" kimi ifadələr emosional vəziyyətləri təsvir etmək üçün geniş istifadə olunur. Fonetik səviyyədə intonasiya, vurğu, temp, pauza və tembr kimi vasitələr emosional mənanın ötürülməsində mühüm rol oynayır. Praqmatik aspektdə isə emosiyalar kontekst, situasiya və kommunikativ niyyətdən asılı olaraq müxtəlif formalar ala bilər.

Süni intellektdə emosiyaların təhlili: süni intellekt sistemlərində emosiyaların təhlili əsasən iki istiqamətdə aparılır: mətnin emosional təhlili (sentiment analysis) və nitqin emosional komponentinin tanınması.

Mətnin emosional təhlili: Mətnin emosional təhlili (sentiment analysis) yazılı mətndəki emosional çalarları və münasibətləri müəyyənləşdirməyə yönəlmiş tədqiqat sahəsidir. Müasir yanaşmalar arasında leksikona əsaslanan metodlar,

https://doi.org/10.36719/2789-6919/2025/VIII

maşın öyrənməsi alqoritmləri və dərin öyrənmə modelləri xüsusilə geniş istifadə olunur.

R.Məmmədov və K.Əliyeva (Məmmədov, Əliyeva, 2021) Azərbaycan dilində sosial media mətnlərində emosiyaların təhlili üçün BERT modelinə əsaslanan yanaşma təklif etmişlər. Bu model kontekstual semantik əlaqələri nəzərə almaqla emosiyaların daha dəqiq təhlilini təmin edir. Tədqiqat göstərir ki, Azərbaycan dilinin spesifik xüsusiyyətlərini nəzərə alan modellərin yaradılması emosional təhlilin effektivliyini əhəmiyyətli dərəcədə artırır.

Nitqin emosional komponentinin tanınması: Nitqin emosional komponentinin tanınması (speech emotion recognition) səsli nitqdə ifadə olunan emosiyaları müəyyənləşdirməyə yönəlmiş tədqiqat sahəsidir. Bu sahədə akustik xüsusiyyətlərin (tezlik, amplituda, enerji, temp) təhlili və dərin neyron şəbəkələrinin tətbiqi əsas yanaşmalardandır.

Son illərdə multimodal təhlil metodları da inkişaf etməkdədir - bu yanaşmada həm mətn, həm səs, həm də vizual məlumatlar (üz ifadələri, jestlər) kompleks şəkildə təhlil edilir. Y.Liu və digərlərinin (Liu, Chen, Wang, 2023) tədqiqatları göstərir ki, multimodal yanaşma emosiyaların tanınması dəqiqliyini 15-20% artıra bilər.

Süni intellektdə emosional intellektin inkişafı. Emosional intellekt anlayışı ilk dəfə P.Salovey və J.Mayer (Salovey, Mayer, 1990) tərəfindən təklif edilmiş, daha sonra D.Goleman (Goleman, 1995) tərəfindən populyarlaşdırılmışdır. Emosional intellekt öz emosiyalarını tanımaq və idarə etmək, başqalarının emosiyalarını tanımaq və empatiya göstərmək bacarığı kimi müəyyən edilir. Süni emosional intellekt (artificial emotional intelligence və ya affective computing) kompüter sistemlərinin insan emosiyalarını tanımaq, interpretasiya etmək və uyğun reaksiya göstərmək qabiliyyətini inkişaf etdirməyə yönəlmiş

https://doi.org/10.36719/2789-6919/2025/VIII

tədqiqat sahəsidir. Bu sahədə əsas məqsəd insan-kompüter qarşılıqlı əlaqəsini daha təbii və effektiv etməkdir.

İ.Vəliyev (Vəliyev, 2022) süni emosional intellektin Virtual köməkçi sistemlərində tətbiqini araşdırmış və göstərmişdir ki, emosional komponentin nəzərə alınması istifadəçi məmnuniyyətini 35% artıra bilər. Bu tədqiqat emosiyaların linqvistik təhlilinin praktik əhəmiyyətini bir daha təsdiqləyir. Emosiyaların təhlilində Azərbaycan dilinin spesifik xüsusiyyətləri. Hər bir dilin özünəməxsus leksik, qrammatik və praqmatik xüsusiyyətləri emosiyaların ifadəsində müəyyən spesifikliyə səbəb olur. Azərbaycan dilində emosiyaların ifadəsinin özəl cəhətlərindən biri zəngin suffiks sistemi və söz yaradıcılığı imkanlarıdır. Kiçiltmə və əzizləmə bildirən şəkilçilər (-cıq, -cik, -cuq, -cük), intensivlik bildirən təkrarlar və reduplikasiyalar emosional çalarların ifadəsində geniş istifadə olunur.

F.Həsənov (Həsənov, 2020) qeyd edir ki, Azərbaycan dilində emosiyaların ifadəsi üçün frazeoloji birləşmələr və idiomatik ifadələr xüsusi əhəmiyyət kəsb edir və bunların süni intellekt sistemləri tərəfindən adekvat təhlili mühüm çağırışlardan biridir.

Emosiyaların linqvistik təhlili və süni intellekt tədqiqi müasir dilçilik və kompüter elmlərinin kəsişməsində olan perspektivli istiqamətdir. İnsan emosiyalarının kompüter sistemləri tərəfindən adekvat qavranılması və interpretasiyası insan-kompüter əlaqəsinin keyfiyyətini əhəmiyyətli dərəcədə yüksəldə bilər. Azərbaycan dilində emosiyaların linqvistik təhlili və onların süni intellekt sistemlərində implementasiyası həm nəzəri, həm də praktiki baxımdan mühüm əhəmiyyət kəsb edir. Bu istiqamətdə tədqiqatların davam etdirilməsi Azərbaycan dili üçün daha effektiv süni intellekt sistemlərinin yaradılmasına töhfə verəcəkdir.

Gələcək tədqiqatlar kontekstual və mədəni amilləri daha dərindən nəzərə alan modellərin yaradılmasına, multimodal

təhlil metodlarının təkmilləşdirilməsinə və dillərarası müqayisəli təhlilə yönəlməlidir.

Ədəbiyyat

1. Goleman, D. (1995). *Emotional intelligence*. Bantam Books.
2. Həsənov, F. (2020). *Azərbaycan dilində frazeologizmlərin emosional aspektləri*. Elm və təhsil.
3. Hüseynova, L. (2018). *Azərbaycan dilində emosional leksikanın semantik xüsusiyyətləri*. BDU nəşriyyatı.
4. Liu, Y., Chen, J., & Wang, R. (2023). Multimodal emotion recognition using transformer networks. *International Journal of Computational Linguistics*, 45(3), 234-251.
5. Məmmədov, R., Əliyeva, K. (2021). Azərbaycan dilində sosial media mətnlərində emosiyaların avtomatik tanınması. *AMEA Xəbərləri*, 24(2), 87-95.
6. Salovey, P., Mayer, J.D. (1990). Emotional intelligence. *Imagination, Cognition and Personality*, 9(3), 185-211.
7. Vəliyev, İ. (2022). Virtual köməkçi sistemlərində emosional intellektin tətbiqi. *İnformasiya texnologiyaları və proqramlaşdırma*, 15(4), 112-124.

Sərdar Zeynalov
Azərbaycan Dövlət Pedaqoji Universiteti
filologiya elmləri doktoru
https://orcid.org/0000-0002-5377-6035
serdarzeynalov@adpu.edu.az

Bəkir Çobanzadə və Fərhad Ağazadənin "Türk qrameri" dərsliyində şəkilçilər

***Açar sözlər**: ləhcə, damar, ədat, söz yapıcı, cüz*
***Keywords**: dialect, vein, particle, word-forming, part/fraction*

Yuxarıda adları çəkilən müəlliflər tərəfindən yazılan və 1929-cu ildə latın əlifbası ilə nəşr olunan ilk dərslik kimi tarixdə qalan "Türk qrameri" dərsliyi iki bölməni əhatə edən 201 səhifədən ibarətdir. Dərslik "Nəşriyyat tərəfindən" (səh.3-5) adlı mətnlə başlayır. Sonra isə müəlliflər tərəfindən kitaba giriş əvəzi yazılan "Başlanğıc" başlıqlı mətndə kitabla bağlı bəzi məlumatlar verilir. Dərslik 1929-cu ildə nəşr olunsa da, "Başlanğıc" bölməsinin müəlliflər tərəfindən 13 iyun 1928-ci ildə yazıldığı qeyd edilir. Dərsliyin "İmla" və "Durğu işarələri" bölmələri F.Ağazadə, qalan bölmələri "Başlanğıc", "Sevtiyyat", "Şəkliyyat", "Nəhv", "Məna" bölmələri və biblioqrafiya B.Çobanzadə tərəfindən yazılmışdır. İki əsas hissədən ibarət olan bu dərsliyin birinci hissəsi "Azəri ləhcəsinin mənşəyi" (səh.7-9), "Azəri ləhcəsinin xüsusiyyətləri" (səh.20-24), "Nəticə" (səh.25-26) və "Sevtiyyat" (səh.27-46) bölmələrindən ibarətdir. 14 bölmədən ibarət olan ikinci hissənin ən geniş bölmələrindən biri "Şəkilçilər" adlanır ki, biz bu bölmə haqqında danışacağıq.

"Şəkilçilər" (Affixes) (səh.56) mətninin girişində yazılır: "Bütün dünyada söylənilən dilləri gözdən keçirəcək olursaq, bunların iki böyük parçaya ayrıldığını görürük. Bəzi dillərdə

damardan (kökdən – S.Z.) başqa söz bulunmaz. Bu soydillərə cəzri, damar dili və ya şəkilsiz dillər deyilir".

"İkinci qrup dillər damarların sərfi şəkillərini mənalarındakı və cümlə içərisində uğradıqları dəyişmələri ifadə etmək üçün müxtəlif dürlü söz cüzlərinə malik olan dillərdir ki, onlara da şəkilli dillər deyilir" (səh.56). Dərslikdə damarın (kökün – S.Z) şəkilçi ilə birlikdəki halı sözün şəkli adlanır. "Damara şəkli verən, ona əlavə edilən ədatlar (şəkilçilər – S.Z.), cüzlər (hissələr – S.Z.) olduğundan onlara da şəkilçi (affixe) deyilir (Yenə orada). Dərslikdə şəkilçilərin sözlərə əlavə olunduğu yerə görə baş şəkilçi (prefixe), orta şəkilçi (infixe) və son şəkilçi (suffixe) üç yerə bölünür. Vəzifələrinə görə isə "Söz yapıcı (düzəldici – S.Z.) şəkilçilər" (səh. 62), "Feil söz yapıcı şəkilçiləri" (səh.73), "Cansızlaşmış şəkilçilər" (səh. 80), "Sözdəyişdirici şəkilçilər" (səh.84) və "Feil sözdəyişdirici şəkilçilər" (səh.86) adı altında 5 növə bölünür.

Söz yapıcı şəkilçilər (sözdüzəldici şəkilçilər – S.Z.). Bu şəkilçilər "Azərbaycan dilində canlı bulunanlar və canlı bulunmayanlar" adı altında 2 yerə bölünür. "Azəri ləhcəsində canlı bulunan şəkilçilərlə bağlı dərslikdə yazılır: "...canlı şəkilçilərdən bəzilərini damara verdikləri məna ilə birlikdə gözdən keçirməliyiz" (səh.63).

Dərslikdə bütün canlı şəkilçilər (sözdüzəldici şəkilçilər – S.Z.) haqqında məlumat verməyin çətin olduğu qeyd olunur. Lakin müəlliflər söz yapıcı (sözdüzəldici – S.Z.) şəkilçilərdən danışarkən təkcə türk dillərinə daxil olan Azərbaycan türkcəsində işlədilən şəkilçilərdən deyil, ümumiyyətlə "Yaput və çuvaşdan başlayaraq həmən bütün türk-tatar ləhcələrində çox bol olan şəkilçilərdən söhbət açırlar.

Dərslikdə dilimizdə ən çox işlənən sözdüzəldici olan -çı[4], -lıq[4] şəkilçiləri nümunə gətirilir: araba-çı, əkin-çi, daş-lıq, gün-lük kimi nümunələr göstərilib və qeyd olunub ki, -lıq[4]

şəkilçisinin damara (kökə - S. Z.) verdiyi yeni mənalar o qədər müxtəlifdir ki, bunları hesaba almaq çox çətindir" (səh. 63).

Bu cür izahın verilməsinə baxmayaraq, -lıq, -lik, -luq, -lük şəkilçiləri ilə müxtəlif mənalı isimlərin mənaca bir neçə növünü qeyd etmişlər. a) Məhəl, mövqe (dağlıq, daşlıq); b) məqsəd və qaye (ağırlıq, donluq); c) müddət, məsafə və miqdar (ömürlük, həftəlik və s.) (səh. 63). Bu şəkilçilərin ardınca -aq, -ək, -uq, -ük, -q, -k, -im[4] (öl-üm, ud-um), -ağan[2] şəkilçilərini də nümunə göstərmişlər. Bu şəkilçilərdən bəzilərinin zaman keçdikcə öz işləkliyini itirdiyini qeyd edən müəllif yazır: "Bir çox sözlərdə bu şəkilçi damara (kökə - S.Z.) yapışmışdır və ondan ayrılamaz: sümük, damaq, dalaq, gərək, araq, ərik, topuq sözlərində bu sözlərin bulunduğu aşkar olmaqla bərabər, onları damarlarından ayırmaq mümkün deyildir, çünki bu damarlar azəri ləhcəsində işlənməz (səh. 65). Bütün bunlara baxmayaraq bəhs etdiyimiz dərsliklərdə şəkilçilərə yanaşma bugünkü dərsliklərdəki yanaşmalardan fərqlənir. Məsələn, dərslikdə "-ən, -an" şəkilçisi ilə bağlı yazılır: "-ən, -an şəkilçisi ümumiyyətlə cənub türk ləhcələrində olduğu kimi azəri ləhcəsində də çox canlı, çox işlədilən şəkilçilərdəndir. Türkcədə bu şəkilçi ilə bir çox sözlər yapılır: yaz+an, al+an, gör+ən... çox dəfə hərəkət ifadə edən sözlərin sonuna əlavə olunaraq hərəkəti icra edəni, faili (işləyəni – S.Z.) göstərir.

Bu sahə ilə bağlı araşdırma aparan görkəmli dilçi-alim S.Cəfərov isə -an, -ən şəkilçisini məhsuldar şəkilçilər sırasına daxil edib yazır: "-an, -ən, -yan, yən. Bu, əslində, feili sifət (qrammatik-leksik) şəkilçisi olduğuna baxmayaraq, eyni zamanda leksik-qrammatik və hətta leksik şəkilçi yerində də işlənir (səh. 180). Apardığımız araşdırmadan məlum olur ki, Azərbaycan dilində elə şəkilçilər yalnız baş vəzifəni yox, bir neçə vəzifəni yerinə yetirir.

Cavadxan Qasımov
Naxçıvan Dövlət Universiteti
iqtisad üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0002-3826-033X
cavadxan.yusifoglu@ndu.edu.az

Sənayeləşmə siyasətinin milli iqtisadiyyata verdiyi perspektivlər

Açar sözlər: *milli iqtisadiyyat, sənayeləşmə, regional inkişaf, Sənaye Parkları, uzunmüddətli perspektivlər*
Keywords: *national economy, industrialization, regional development, Industrial Parks, long-term prospects*

Sənayeləşmə, istənilən bir dövlətin iqtisadi perspektivlərində aparıcı rola malik olan zəruri məsələlərdən biri olmaqdadır. Tarixən dünya dövlətlərinin sosial-iqtisadi inkişaf proseslərində sənayeləşmə zəruri hərəkətverici qüvvə kimi qərarlaşmışdır. Belə məsələlər, həm iqtisadi inkişafa təminat verir, həm də sosial vəziyyətin səmərəliləşdirilməsinə, modern avadanlıqların reallaşmış olmasına, əmək bazarının inkişafına və iqtisadi sərbəstliyin təkmilləşməsinə zəmin yaradır. Belə bir mənada, milli iqtisadiyyatda sənayeləşmə mexanizmlərinin reallaşması əhatəli və etibarlı perspektivlər yaratmış olur. Bu sferada, iqtisadi inkişafın və etibarlı inkişafa təminat yaradılması ilə müşayiət olunan məsələlərin əhəmiyyəti yüksək olmaqdadır.

Sənayeləşmə siyasətinin milli iqtisadiyyata gətirmiş olduğu mühüm yeniliklərdən biri, iqtisadi inkişafın çevik olması və etibarlı tərəqqinin təmin olunması ilə ifadə olunur. Sənaye bölməsi, əsasən də, emal və yüksək texnoloji sferalar, yüksək əlavə dəyər formalaşdıran istiqamətlərdir. Belə bir vəziyyətdə milli gəlirin inkişafına, ÜDM-in şaxələndirilməsinə və dövlətin qlobal iqtisadi reytinqinin möhkəmlənməsinə zəmin olur.

https://doi.org/10.36719/2789-6919/2025/VIII

Sənayeləşmə eyni zamanda, aqrar bölməyə etibar etmiş olan iqtisadiyyatdan sənayeyə transformasiyanı təşkil edir ki, bu da təşkilati müstəvidə olduqca fəal və rəqabət keyfiyyətli iqtisadi mexanizmin qərarlaşmasına yol açır. Bu proseslərdə, daha modern məşğulluq göstəricilərinin təşəkkülünə və əmək bazarının perspektivliliyinə də stimul özünü göstərmiş olur.

Sənaye bölməsinin şaxələndirilmiş olması, əsasən də fərqli sektorlarda sənaye Parklarının və texnoparkların təşəkkülü, çoxsaylı məşğulluq göstəricilərinin qərarlaşmasına zəmin yaranmış olur. Əmək bazarının əhatələnməsi və kvalifikasiyalı işçi qüvvəsinin inkişafı sayəsində işsizlik göstəriciləri minimuma enir, əhalinin mənfəəti güclənir və bölgələrarası sosial-iqtisadi fərqlilik zəifləyir.

Eyni zamanda, sənaye təşkilatlarının təşkili yerli ehtiyatlardan daha faydalı istifadə olunmasına zəmin olur və bu da bölgələrin iqtisadi ehtiyatlarının tam gerçək olmasına zəmin olur. Təbii olaraq, ixrac resurslarının şaxələndirilməsi və xarici ticarət tarazlığının səmərəliləşdirilməsi ilə tamamlanan fəaliyyətin xüsusi önəmini qeyd etmək olar.

Sənayeləşmə mexanizmi ixrac istiqamətli istehsal bölmələrinin tərəqqisinə təkan olur. Xammal qaydasında yox, emal olunmuş və böyük əlavə dəyərə sahib olan əmtəələrin ixracı milli iqtisadiyyata daha artıq qazanc təmin edir. Bununla da, xarici ticarət tarazlığı müsbət yöndə qərarlaşmış olur, ölkənin valyuta resursları yüksəlir və xarici borcdan asılılıq minimum olur.

Sənayeləşmənin bu tərəfi əsasən də, neft-qaz kimi strateji ehtiyatlardan asılı olan dövlətlər üçün iqtisadi diversifikasiyanın zəruri mexanizminə çevrilir. Texnoloji tərəqqi və innovasiya şəraitinin əsasları yeni iqtisadi şərait üçün olduqca mühüm əhəmiyyətlilik kəsb etməkdədir. Sənayeləşmə mexanizmi eyni zamanda, texnoloji tərəqqini və innovasiya şəraitini daha da möhkəmləndirir.

Bu mərhələdə, yeni ideya və təşəbbüslərin olduqca mühüm istiqamətlərini qeyd etmək olar. Həmin sferada, sənaye klasterləri, startaplar və universitet-sənaye işbirlikləri nəticəsində respublikada yüksək avadanlıqlara etibar etmiş olan iqtisadi idarəetmənin əsasları müəyyən olunur. Belə bir vəziyyət, uzundövrlü iqtisadi rəqabətkeyfiyyətliliyinin zəruri meyarı olmaqdadır. Sənayeləşmə siyasətinin mühüm zəruriliyi, iqtisadi sərbəstlik və milli təhlükəsizlik baxımından da olduqca faydalı nəticələrə malik olmaqdadır.

Sənayeləşmə mexanizmi ölkənin iqtisadi müstəqilliyinin güclənmiş olmasında da zəruri rola malik olmaqdadır. Xarici bazarlardan və avadanlıqlardan asılılığın minimum olması milli təhlükəsizlik müstəvisində də zəruri əhəmiyyət kəsb etmiş olur. Xüsusilə zəruri əmtəələrin və avadanlıqların yerli istehsalı, fövqəladə vəziyyətlərdə (misal üçün, böhranlar, savaşlar və s.) iqtisadi etibarlılığa malik olur. Həmçinin, sənayeləşmə prosesləri, milli müdafiə perspektivlərinin tərəqqisini də fəallaşdırır ki, bu da dövlətin hərbi və strateji potensialına yeni güc qatmış olur. Bölgələrin tərəqqisi və tarazlı iqtisadiyyat da elə məhz bu istiqamətin etibarlı məsələləri içərisində yerini almış olur.

Sənayeləşmə bölgəsəl iqtisadiyyatların tərəqqi etməsinə də hərəkətverici təsir edir. Regionlarda, sənaye bölgələrinin və istehsal təşkilatlarının təşəkkülü yerli təsisatların tərəqqisinə, sosial xidmətlərin şaxələnməsinə və bölgələrarası miqrasiyanın minimum olmasına səbəb olur. Belə bir idarəetmə, iqtisadi tərəqqinin təkcə mərkəz və iri şəhərlərlə bitməməsini, ölkə miqyasında tarazlı və inklüziv tərəqqinin təmin olunmasını stimullaşdırır.

Elm və Təhsil Tədqiqatları **VIII Respublika Elmi Konfransı / 19 iyun 2025 / 21-23**
Research in Science and Education **VIII Republican Scientific Conference / 19 iyun 2025 / 21-23**
https://doi.org/10.36719/2789-6919/2025/VIII

İradə Kərimova
Azərbaycan Dövlət Pedaqoji Universiteti
filologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0002-8057-8333
irade.kerimova.81@mail.ru

XVII-XVIII əsrlərdə feilin inkişaf tarixi

Açar sözlər: *Azərbaycan ədəbi dili, qrammatik norma, feil, feili bağlama, formant*

Keywords: *Azerbaijani literary language, grammatical norm, verb, verb conjugation, formant*

XVII-XVIII əsrlərdə Azərbaycanın tarixi-siyasi və inzibati vəziyyəti Azərbaycan ədəbi dilinin inkişafına təsirini göstərir. Ümumxalq dili əsasında formalaşan Azərbaycan ədəbi dili ilə milli dil əsasında formalaşan yeni Azərbaycan ədəbi dili arasında həm norma, həm də funksional üslubi diferensiasiya səviyyəsi baxımından fərqlər mövcud idi. Lakin bununla belə, həmin fərqlər XVII əsrdən sonrakı dövrün ədəbi dilinin XVII əsrə qədərki ədəbi dilin varisi olduğunu inkar etməmişdir. XVII əsrdə ədəbi dilimizin tarixində çox orijinal bir inkişaf şəkli görünür. XVII-XVIII əsrlərdə Azərbaycan ədəbi dilinin qrammatik norması milli əsaslar üzərində yenidən təşkil olunur.

XVII-XVIII əsrlərdə Azərbaycan ədəbi dilinin strukturunda və funksional mənzərəsində baş verən əsaslı dəyişikliyi o dövr nümunələri hesab olunan mənbələrdə sistemli şəkildə öz əksini tapmışdır.

Məlum olduğu kimi, türk dillərində, eləcə də Azərbaycan ədəbi dilində mövcud feilin şəxssiz formaları özünün semantik və sintaktik funksiyalarına görə əsasən eynidirlər. Lakin buna baxmayaraq, elə formalar vardır ki, yalnız ayrı-ayrı türk dillərində, onların dialekt və şivələrində rast gəlinir, yəni bu və

ya digər türk dili üçün spesifikdir. Türk dillərində və onların dialekt və şivələrində feilin şəxssiz formalarının təhlili bu dillərdə nitq hissələrinin strukturu və onun mərhələli inkişafı haqqında təsəvvürü dəqiqləşdirməyə imkan yaradır.

H.Mirzəzadəyə görə, feilin əmr şəklinin II şəxsin təkinin dörd formada şəkilçisi mövcuddur: *-gil, -ğıl; -gilən; -ğinən; -qınan.* M.Rəhimov isə II şəxsin təkinin yeddi formada şəkilçisinin olduğunu bildirmişdir. *-qıl, -ğıl, -gil; -gilən; -ginən; -a gör, -ə gör; -gör, -i gör; - a görgil, -ə görgil* şəkilçiləri.

Əmr şəklinin *-gilən* forması ədəbi dilimizdə əsasən XVII-XVIII əsrlərdən daha geniş yayılmağa başlamışdır. *-gilən* formantı daha çox əmrə qətilik, təkid çaları verir. Bu arxaik morfem "*-gil*" əmr formantı və II şəxsin təkinin şəxs sonluğu olan "*-ən*" morfemindən yaranmışdır.

M.Şirəliyev isə bu şəkilçinin dialekt və şivələrdə *-qınan, -ginən* variantlarında işləndiyini qeyd etmişdir.

Açmagil ağzın görəndə xali-mişkin danəsin,
Əkmə baş pərgartək hər nöqtəyə dövran üçün.
(Sədi Təbrizi).

Tutginən bir yerdə sən, ey mərkəzi-təmkin, qərar,
Hər dönüm pərgartək, mən ha dolanım başına.
(Qövsi Təbrizi).

Məni sənə aşiq etdi yaradan,
Səyrağıbı haqq götürsün aradan.
İstəyirsən xəbər *tutgil* Sarıdan,
Yollarında mənəm sail, a Yaxşı! (Sarı Aşıq).

XVII-XVIII əsrlər Azərbaycan ədəbi dilinin qrammatik normasına nəzər salsaq, feilin vacib şəklinin *-maq gərək, -mək gərək, -gərək* və *gərək-gərək* morfemlərinin iştirakı ilə işləndiyini görərik. Bu forma məsdər və gərək ədatının birgə işlənməsi ilə yaranmışdır. XIX əsrə qədərki dilimizdə bu formanın üstünlüyü müşahidə olunur.

Kim ki zövq istər,

Büti-şirindəhan *sevmək gərək.* (M.P.Vaqif).

XX əsrin 30-cu illərinə qədər feili bağlamalar Azərbaycan dilçiliyində müxtəlif terminlər başlığı altında işlənmişdir: siğeyirəbtiyyə, rəbt siğəsi, feli zərf, feli bağlama şəkli və s. Yazılı abidələrimizin dilində işlənən feili bağlama şəkilçilərinin əksəriyyəti müasir ədəbi dilimizdə eynilə işlənməkdədir. Fonetik tərkibcə dəyişən, eləcə də arxaikləşən feili bağlama şəkilçilərinə az təsadüf olunur. Belə şəkilçilərdən biri də *-ıban* feili-bağlama şəkilçisidir. Türk dillərində -ıb, -ib, -ub, -üb şəkilçili feili bağlama olduqca işləkdir. Oğuz qrupu türk dillərinin dialektlərində və yazılı abidələrində, klassik ədəbiyyatda -ıb[4] feili bağlama şəkilçisinin *-ıban, -ibən, -ıbani, -uban, -übən* fonetik variantları da XIX əsrə qədər işlək olmuşdur. Bu feili bağlama şəkilçisi semantik cəhətdən -ıb feili bağlama şəkilçisi ilə eynidir və onun fonetik variantı hesab olunur. -ıban, -ubən, -übən feili bağlama şəkilçisi həmçinin Azərbaycan dilinin Qazax, Dərbənd, Quba, Zaqatala, qismən Şamaxı dialektlərində və Qax rayonu şivələrində müşahidə olunur. *-ubani* şəkilçisi Şəki dialektində *-üvəni, -avanı* variantlarında işlədilir. Qeyd etmək lazımdır ki, Quba dialektində Dərbənd dialektində olduğu kimi, həmçinin *-ıbannarı, -ibenneri, -ubannarı, -übennerı* fonetik variantlarına təsadüf edilir. Şəkilçinin *-narı* elementi cəmlik bildirən *-lar, -lər* şəkilçilərini ifadə edir: *oxuyubannarı, gorübenneri* və s.

Dovtələb *oluban* gedibsən xandan,
Ölüncə çıxmanam ta Gülüstandan.
İnşallah çalışsan habelə candan,
Hər nə desən, bil, aqibət eylərsən. (M.V.Vidadi).
Fələk məni şad eləyib güldürü,
Ağladıban çeşmim yaşın sildiri.
***
Gülgəz Pəri saralıban solunca,
Qaynayıban peymanələr dolunca.
(Aşıq Abbas Tufarqanlı).

Sahil Hüseynov
Milli Aviasiya Akademiyası
hüquq üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0003-0732-7110
sahilhuseynov@naa.edu.az

Yerli dövlət hakimiyyətinin yenidən qurulması

Açar sözlər: *iqtisadi rayon, hakimiyyət, fəaliyyət, tənzimetmə, hüquq, səlahiyyət*
Keywords: *economic region, power, organ, activity, regulation, law, authority*

Yerli hakimiyyətin yenidən qurulması və yerli icra hakimiyyətlərinin ləğv edilməsi məsələlərinin ortaya qoyulması Azərbaycan Respublikasının 2000-ci illərin əvvəllərində "Yerli özünüidarə haqqında" Avropa Xartiyasına qoşulması nəticəsində mümkün olmuşdur. Xartiyanın əsas tələbi onu imzalayan dövlətin ərazisində yerli hakimiyyət səlahiyyətlərinin yaşayış məntəqələrində demokratik yolla seçilən yerli özünüidarə orqanlarına həvalə edilməsindən ibarətdir. Lakin etiraf etmək lazımdır ki, yerli səviyyədə indiyədək mövcud olan yerli icra hakimiyyətlərinin ləğv edilməsi yerli özünüidarə sisteminin öz-özünə bərqərar olması ilə nəticələnmir. Unitar dövlətin bütün ərazisində dövlət idarəçiliyinin yenidən qurulması və yaşayış məntəqələrində yerli özünüidarənin həyata keçirilməsinin zəruri ilkin şərti dövləti yerlərdə təmsil edən hakimiyyət orqanının yaradılması və fəaliyyət göstərməsidir. Müasir dövlətlərin idarəetmənin təşkili sahəsində topladıqları təcrübəyə istinad edərək bu məsələnin Azərbaycan Respublikasında həll edilməsi üçün ciddi çətinliklərin olmadığını göstərmək mümkündür. ABŞ, Böyük Britaniya, Rusiya Federasiyası və bir sıra digər ölkələrdə qubernator,

Türkiyədə vali inzibati ərazi vahidinin və ya federativ vahidin əhali tərəfindən seçilən və yaxud mərkəzi hakimiyyət orqanları tərəfindən təyin edilən ali vəzifəli şəxsdir (4,5).

Müasir mərhələdə Azərbaycanda regional səviyyədə dövlət hakimiyyətini təmsil edən orqanın yaradılması və fəaliyyətinin təşkil edilməsi "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Azərbaycan Respublikası Prezidentinin 7 iyul 2021-ci il tarixli Fərmanı ilə irəli sürülmüş aşağıdakı vəzifələrin yerinə yetirilməsi ilə şərtləndirilir: - regionlarda dövlət hakimiyyətinin təşkili və həyata keçirilməsi; - Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrasının təmin edilməsi; - işğaldan azad olunmuş ərazilərin respublika iqtisadiyyatına reinteqrasiyası; - iqtisadi rayonlar üzrə planlaşdırma işinin səmərəliliyinin artırılması; - iqtisadi idarəetmənin çevikliyinin təmin olunması (Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında, 2021). Göstərilən vəzifələrin həllinin mühüm istiqamətlərindən biri kimi Azərbaycanın iqtisadi-coğrafi cəhətdən rayonlaşdırılması və dövlət hakimiyyətini iqtisadi rayonlarda təmsil edən orqanın yaradılması zəruriliyini etiraf etmək lazımdır. Azərbaycanın iqtisadi rayonlaşdırılması ilə bağlı məsələ Azərbaycan Respublikası Prezidentinin 7 iyul 2021-ci il tarixli Fərmanı əsasında həll edilmiş, 1991-2021-ci illərdə mövcud olmuş iqtisadi rayonların tərkibinə yenidən baxılmış və iqtisadi rayonların yeni bölgüsü təsdiq edilmişdir. Fikrimizcə, iqtisadi rayonlarda dövləti təmsil edən hakimiyyət orqanının yaradılması, statusunun müəyyənləşdirilməsini təmin edən hüquqi bazanın yaradılması ilə onun necə adlandırılması, hansı məntəqədə yerləşdirilməsi, aparatının strukturu və ştat cədvəlinin təsdiq edilməsi ilə bağlı məsələlərin həll edilməsi mümkün olacaq. Dünya dövlətlərinin regional səviyyədə təmsilçiliyi haqqında tarixi məlumatları ümumiləşdirərək hazırki mərhələdə Azərbaycanın iqtisadi rayonlarında

yaradılması ehtimal olunan dövlət hakimiyyət orqanına aşağıdakı adlardan birinin verilməsi barədə təklifi əsaslandırmaq məqsədəuyğundur: - iqtisadi rayon üzrə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi; - iqtisadi rayonun qubernatoru; - iqtisadi rayon üzrə vali; - iqtisadi rayon üzrə dövlət canişinliyi; -iqtisadi rayonun hakimi; - iqtisadi rayonun sədri. Azərbaycan Respublikası Prezidentinin 4 fevral 2021-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəlikləri haqqında Əsasnamə"nin müddəaları nəzərdən keçirilərkən xüsusi nümayəndəliklərin bütün iqtisadi rayonlar üzrə deyil, yalnız işğaldan azad olunmuş ərazilərdə müəyyən edilmiş vəzifələri yerinə yetirməsi və Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının struktur bölməsi olması diqqətdən yayınmır. Əsasnamənin müddəalarının genişləndirilərək Azərbaycan Respublikasının bütün iqtisadi rayonlarını əhatə etməsi məqsədəmüvafiq hesab edilir. Dövləti təmsil edən orqanın hansı yaşayış məntəqəsində yerləşdirilməsi məsələsi həll edilərkən, iqtisadi rayonun ərazi vahidlərindən birinin, daha doğrusu əhalisinin sayına görə böyük olan ərazi vahidinin (şəhərin) münasibliyini nəzərə almaq lazımdır. İqtisadi rayonun ərazisində dövlətin adından fəaliyyət göstərən orqanla bölgənin digər ərazi vahidləri (rayon, şəhər, şəhər rayonu, rayon tabeli şəhər, qəsəbə və kənd) arasında idarəçilik əlaqələri iqtisadi rayonun dövlət hakimiyyəti orqanının (məsələn, xüsusi nümayəndəliyin) ərazi nümayəndəsi vasitəsi ilə həyata keçiriləcək. Dövlətin region səviyyəsində hakimiyyətinin əsas təşkilatçısı kimi fəaliyyət göstərən iqtisadi rayon üzrə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin fəaliyyətinin hüquqi tənzimlənməsi çərçivəsində aşağıdakı vəzifələr həll edilməlidir: - iqtisadi rayonun dövlət hakimiyyəti orqanının hüquqlarının qanunvericiliklə təsbit edilməsi; - iqtisadi rayonun dövlət hakimiyyəti orqanının vəzifələrinin və səla-

hiyyətlərinin qanunvericiliklə təsbit edilməsi; - iqtisadi rayonun dövlət hakimiyyəti orqanının məsuliyyətinin qanunvericiliklə müəyyən edilməsi; - iqtisadi rayonun dövlət hakimiyyəti orqanı ilə yerli özünüidarə orqanlarının qarşılıqlı fəaliyyətinin tənzimlənməsi; - iqtisadi rayonun dövlət hakimiyyəti orqanının ərazi vahidləri (rayon, şəhər, şəhər rayonu, rayon tabeli şəhər, qəsəbə və kənd) üzrə dövlət hakimiyyətini təmsil edən nümayəndələri ilə qarşılıqlı fəaliyyətinin tənzimlənməsi; - iqtisadi rayonun dövlət hakimiyyəti orqanının dövlət icra hakimiyyəti və qanunvericilik hakimiyyəti orqanları ilə qarşılıqlı münasibətlərinin tənzimlənməsi və s.

Yuxarıda ifadə olunanları nəzərə alaraq qeyd etmək lazımdır ki, yerli hakimiyyət islahatının aparılması iqtisadi rayonlarda dövləti təmsil edən hakimiyyət orqanının yaradılması, inzibati ərazi vahidlərində yerli icra hakimiyyətlərinin ləğv edilməsi və yerli özünüidarə orqanlarının yaradılması kimi institusional xarakterli tədbirlərin qanunçuluq, aşkarlıq və ictimai rəyin nəzərə alınması prinsipləri əsasında həyata keçirilməsini ehtiva edir. Yerli islahatların qanuniliyinin ən etibarlı təminatçısı qismində iqtisadi rayonlar üzrə dövləti təmsil edən hakimiyyət orqanının fəaliyyətə başlaması ilə yerli icra hakimiyyətlərinin başçılarının fəaliyyətinə xitam verilməsi və onun fəaliyyətini təmin etmək üçün yaradılmış aparatın, inzibati ərazi dairələri üzrə nümayəndəliklərin, sahə inzibati ərazi dairələri üzrə nümayəndəliklərin, yerli icra hakimiyyəti başçısının yanında olan mərkəzi icra hakimiyyəti orqanlarının yerli qurumlarının regional dövlət hakimiyyəti orqanının tabeliyinə verilməsi ilə bağlı məsələlər həll edilir.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının Konstitusiyası. www.e-qanun.az/framework/897

2. Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında. (2021). Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 07 iyul. https://president.az/az/articles/view/52389
3. Yerli özünüidarə haqqında Avropa Xartiyasi - https://rm.coe.int/the-congress-booklet-european-charter-of-local-self-government-azerbai/168098bc39
4. https://ru.wikipedia.org/wiki/Губернатор
5. https://tr.wikipedia.org/wiki/Vali

Elm və Təhsil Tədqiqatları **VIII Respublika Elmi Konfransı / 19 iyun 2025 / 29-31**
Research in Science and Education **VIII Republican Scientific Conference / 19 iyun 2025 / 29-31**
https://doi.org/10.36719/2789-6919/2025/VIII

Sevinc Sadıqova
Azərbaycan Dövlət Pedaqoji Universiteti
filologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0001-8720-3262
sevincsadigova@gmail.com

Mahmud Kaşğarinin "Divan"ında zaman və məkan məfhumu bildirən oğuz sözləri

Açar sözlər: *türk dilləri, türkologiya, Azərbaycan dili, lüğət, Mahmud Kaşğari*
Keywords: *turkic languages, turkology, Azerbaijani language, dictionary, Mahmud Kashgari*

Oğuz qrupu türk dillərinin, həmçinin, ümumilikdə türk dillərinin leksik-semantik sistemi mütəmadi olaraq tədqiqatçılar tərəfindən araşdırılmış, müxtəlif dövrlərdə ayrı-ayrı leksikoqraflar türk dillərinə aid lüğətlər tərtib etmişlər.

Bu araşdırmamızda M.Kaşğarinin lüğətində zaman və məkan məfhumu bildirən oğuz sözlərini təhlil edəcəyik. Zaman və məkan məfhumu bildirən oğuz sözlərindən M.Kaşğarinin lüğətində *imir, öylə, çərik, kuşluk, oba, kənd, əndək, çərik, yörə, yanqa, sınqar* leksemləri qeydə alınmışdır.

Zaman məfhumu bildirən oğuz sözləri. Zaman məfhumu bildirən oğuz sözlərindən M.Kaşğarinin lüğətində *imir, öylə, çər, çərik, kuşluk* leksemləri qeydə alınmışdır.

Aydınlıqla qaranlığın bir-birinə qovuşması vaxtına oğuzlar imir (Kaşğari, 2006, I, s.157) deyirlər.

Öylə (Kaşğari, 2006, I, s.174) günorta vaxtı. Türk ədəbi dilində və Azərbaycan dilinin bir sıra dialekt və şivələrində bu söz eyni fonosemantika ilə işlənir.

Çər (Kaşğari, 2006, I, s.338) vaxt, bu çərlikdə gəl = bu vaxt gəl. Bu söz lüğətdə qeydə alındığı mənada Azərbaycan dili üçün xarakterik deyildir.

Çərik (Kaşğari, 2006, I, s.389) hər şeyin vaxtı, dəmi.

Kuşluk (Kaşğari, 2006, I, s.460) səhərlə günorta arasındakı vaxt.

Məkan mənalı oğuz sözləri. Məkan mənalı oğuz sözlərindən M.Kaşğarinin lüğətində *oba, kənd, əndək, çərik, yörə, yanqa, sınqar* leksemləri qeydə alınmışdır.

Oba (Kaşğari, 2006, I, s.151) oba. Azərbaycan dilində "bir neçə evdən ibarət kiçik yaşayış məntəqəsi, kiçik kənd; köçərilərin, heyvandarların müvəqqəti sakin olduqları bir neçə alaçıq və ya çadırdan ibarət köç yeri; köçəbə, düşərgə" (ADİL, 2006, III, s.509) mənasında işlənir.

Kənd (Kaşğari, 2006, I, s.353) kənd. Azərbaycan dilində "əhalisi, əsasən, kənd təsərrüfatı ilə məşğul olan yaşayış məntəqəsi" (ADİL, II, 2006, s.681) mənasında işlənir.

Əndək (Kaşğari, 2006, I, s.168) səth, bir şeyin üst tərəfi. Müasir Azərbaycan dili üçün xarakterik leksem deyildir.

Çərik (Kaşğari, 2006, I, s.389) hər şeyin qarşısı. Bu leksem müasir Azərbaycan ədəbi dili və dialektləri üçün xarakterik deyildir.

Yörə (Kaşğari, 2006, III, s.29) yörə, çevrə, bir şeyin ətrafı. Azərbaycan dilində eyni fonosemantika ilə, "yan, ətraf, həndəvər (çox vaxt "yan-yörə" şəklində işlənir)" (ADİL, 2006, IV, s.618) mənasında, türk dilində "ətraf" mənasında işlənir.

Yanqa (Kaşğari, 2006, III, s.320) dərənin yanı, hər hansı çayın bir yanı, sahili. Azərbaycan və türk dillərində həm ədəbi dil səviyyəsində, həm də dialektal səviyyədə yan fonovariantında, "tərəf, ətraf; sağ və ya tərəfdə olan; kənar, qıraq" (ADİL, IV, 2006, s.520) mənalarında işlənir.

Sınqar (Kaşğari, 2006, III, s.325) tərəf, yan, bir nəsnənin tərəfi, yanı: sınqardan yorı – yandan yeri, yürü. Bu leksem

müasir Azərbaycan və türk ədəbi dili və dialektləri üçün xarakterik deyildir.

Bu tədqiqat Azərbaycan dilçiliyində, türkoloji dilçilikdə, həmçinin müqayisəli, çoxdilli lüğətlərin tərtib edilməsində nəzəri və praktik əhəmiyyətə malikdir.

Ədəbiyyat

1. *Azərbaycan dilinin izahlı lüğəti*. (2006). 4 cilddə. "Şərq-Qərb".
2. Kaşğari, M. (2006). *Divanü lüğat-it-türk*. 4 cilddə. "Ozan".

Elm və Təhsil Tədqiqatları **VIII Respublika Elmi Konfransı / 19 iyun 2025 / 32-36**
Research in Science and Education **VIII Republican Scientific Conference / 19 iyun 2025 / 32-36**
https://doi.org/10.36719/2789-6919/2025/VIII

Ситара Мустафаева
Бакинский Государственный Университет
доктор философии по истории
https://orcid.org/0000-0001-8829-4477
sitaramustafayeva@bsu.edu.az

Российско-грузинский конфликт августа 2008 года и США

Ключевые слова: *российско-грузинская война, США, Абхазия, Южная Осетия*
Açar sözlər: *Rusiya-Gürcüstan müharibəsi, ABŞ, Abxaziya, Cənubi Osetiya*
Keywords: *Russian-Georgian war, USA, Abkhazia, South Ossetia*

Российско-грузинский конфликт 2008 года является отражением геополитического соперничества Российской Федерации и США на постсоветском пространстве. Августовскую войну можно считать началом борьбы Москвы за восстановление своего статуса великой державы, потерянной в период президентства Б.Ельцина. Реализацию этой политики, получившей на Западе название «доктрины Путина», Россия решила начать с укрепления своих позиций на Южном Кавказе, чтобы остановить расширение НАТО на Восток. Коренное изменение политики России на постсоветском пространстве и переход к «силовым методам» защиты своих интересов, было связано не только со стремлением Грузинской Республики стать членом НАТО, но и желанием Москвы остановить реализацию региональных логистических и энергетических проектов, которые составляли ей конкуренцию. Среди них можно отметить: проект магистрального газопровода «Набукко»,

по которому планировалась транспортировка каспийских энергоресурсов в страны Центральной и Южной Европы, а также начало строительства железной дороги «Баку-Тбилиси-Карс», которая после своего открытия стала важным сегментом международного транспортного коридора «Новый Шелковый путь».

8 августа 2008 года Грузинская Республика, рассчитывая на военную помощь США, начала военные действия против Южной Осетии (операция «Чистое поле»). Целью операции было восстановление территориальной целостности страны. Однако перед операцией стояли и более глобальные задачи, такие как ограничение влияния, а по возможности и полное вытеснения России из Южно-кавказского региона. Визит госсекретаря США К.Райс в Грузию накануне конфликта, вероятно, был демонстрацией ее поддержки, на подготовку армии которой США потратили огромные средства.

Российская Федерация вмешалась в грузино-осетинский конфликт, и начала «Операцию по принуждению к миру», став тем самым одним из непосредственных участников войны. США сразу осудили действия Москвы, призвали к прекращению военных действий и уважению территориальной целостности Грузии. В период войны два корабля ВМС США с гуманитарной помощью зашли в воды Черного моря. Так как они превышали допустимый тоннаж, правительство РФ призвало к соблюдению положения Конвенции Монтре 1936 года. Турция, в свою очередь, закрыла Черноморские проливы для ВМС США. Премьер-министр Турции Р.Т.Эрдоган заявил: «Америка наш союзник, а Российская Федерация – важный сосед». Таким образом, помощь США Грузии ограничилась только дипломатическими усилиями.

В ходе «пятидневной войны» Россия нанесла военным

объектам Грузии большой урон, частично пострадали и гражданские объекты. Перекачка нефти по трубопроводу «Баку-Тбилиси-Джейхан» и газа по «Баку-Тбилиси-Эрзерум» уменьшилась в период конфликта из-за российских авианалетов. Официально российские бомбардировщики якобы не наносили удары по энергетическим объектам на Южном Кавказе. Однако, когда речь идет о военных действиях, исключить возможность их осуществления невозможно. До начала конфликта – 5 августа 2008 года недалеко от грузинской границы произошел взрыв на турецком участке нефтепровода «Баку-Тбилиси-Джейхан». В террористическом акте обвинили боевиков Рабочей партии Курдистана. Данный инцидент вызвал беспокойство как у Азербайджана, так и у стран Запада, вложивших крупные инвестиции в нефтяные объекты Южного Кавказа. Временно была приостановлена транспортировка нефти через территорию Грузии, нефтяные потоки перезапустили через российский трубопровод. Азербайджанская Республика часть экспорта нефти и газа перенаправила на иранский порт. Российско-грузинская война не только нанесла Азербайджану огромный финансовый ущерб, но и пострадал его престиж как страны экспортера энергоресурсов.

12 августа 2008 года президент РФ Д.Медведев при посредничестве президента Франции Н.Сарказии подписал план мирного урегулирования, и объявил об окончании «Операции по принуждению к миру». Анкара попыталась внести свой вклад в урегулирование конфликта. Во время своего визита в Москву 11-12 августа Р.Т.Эрдоган сделал предложение о создании «Платформы стабильности и сотрудничества на Кавказе» с участием Турции, России и трех южно-кавказских республик» (платформа «3+2»).

Закрытие проливов Босфор и Дарданеллы для кораблей ВМС США и мирная инициатива Анкары о создании системы региональной безопасности на Кавказе без участия США, несколько охладили отношения Анкары и Вашингтона. Турция хотела укрепить свои позиции на Южном Кавказе как важный региональный игрок, что шло в разрез с интересами США.

26 августа 2008 года Россия, грубо нарушив нормы международного права, признала независимость Абхазии и Южной Осетии, являющиеся международно-признанными территориями Грузинской Республики. Тбилиси в ответ разорвала дипломатические отношения с РФ и вышла из СНГ. Главы государств и правительств стран ЕС осудили «непропорциональное применение силы» против Грузии и не согласованное с мировым сообществом признание независимости Абхазии и Южной Осетии. Страны СНГ, в том числе и Азербайджанская Республика, не поддержали военные действия России против Грузии и отказались признать независимость Абхазии и Южной Осетии.

Подведем итоги: 1. «Пятидневная война» привела к резкому обострению отношений РФ со странами Запада и изменению баланса сил на Южном Кавказе: престижу США в регионе был нанесен серьезный урон, а влияние России, наоборот, возросло; 2. Вопрос вступления Грузии в НАТО был снят с повестки дня альянса; 3. Организация «ГУАМ», созданная по инициативе США для ослабления влияния России на постсоветском пространстве, показала свою несостоятельность и постепенно потеряла свою актуальность; 4. Поддерживаемый со стороны США и Евросоюза проект газопровода «Набукко», не был реализован; 5. Трубопроводы, по которым нефть и газ из Каспийского региона транспортировалась на европейские рынки, фактически, стали мишенью для России, которая

https://doi.org/10.36719/2789-6919/2025/VIII

ради сохранения своей монополии на доставку углеводородов на европейские рынки, могла нанести огромный вред нефтяным инфраструктурам региона. 6. Война открыто показала возможные риски для энергетических и логистических инфраструктур Южного Кавказа в форс-мажорных случаях, и продемонстрировала факт их зависимости от политической обстановки в регионе.

Elm və Təhsil Tədqiqatları **VIII Respublika Elmi Konfransı / 19 iyun 2025 / 37-38**
Research in Science and Education **VIII Republican Scientific Conference / 19 iyun 2025 / 37-38**
https://doi.org/10.36719/2789-6919/2025/VIII

Nurlana Kazımova
Azərbaycan Dövlət Pedaqoji Universiteti
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0001-9383-567X
nurlana_kazimova67@mail.ru

Ustad müəllimin fənn üzrə elmi-metodik hazırlığı

Açar sözər: *ustad müəllim, pedaqoji hazırlıq, dərs, vəzifələr, dərsin səviyyəsi*
Keywords: *master teacher, pedagogical training, lesson, tasks, lesson level*

Müəllim ali məktəbdə həm ixtisas, həm də peşə üzrə aldığı bilik və bacarıqlar çərçivəsində qapanıb qalmır. O, aydın şəkildə başa düşür ki, ümumi pedaqoji hazırlığı sahəsində olduğu kimi, təmsil etdiyi fənn üzrə də özünün elmi-metodik hazırlığını artırmaq ücün əzmkarlıqla çalışmalıdır. Müəllim həm fənnin (məsələn, ingilis dilinin və ya riyaziyyatın) tədrisi metodikası üzrə, həm fənnin aid olduğu elm (məsələn, ingilis dilçiliyi və ya riyaziyyat) üzrə yeni çap olunan materiallarla tanış olmalı, onlara münasibət bildirməli, müvafiq nəticə çıxararaq təkmilləşməli olur. Hələ bu azdır. Pedaqoji ustalığa yaxınlaşmaq ücün həmkarların iş təcrübəsi ilə tanış olmaq, təcrübə və fikir mübadiləsi aparmaq da faydalı hesab edilir.

Ustad müəllimin fəaliyyətinin ən mürəkkəb, ən məsuliyyətli, ən çətin dövrü növbəti dərslərə hazırlaşması ilə də bağlıdır. Nə üçün? Çünki, bu zaman müəllim iki qrup vəzifələri həm müəyyənləşdirməli, həm də o vəzifələrin reallaşdırılması yollarını özü üçün aydınlaşdırmalı olur.

Birinci qrup vəzifələrə nələr aiddir? Birinci növbədə müəllim konkret fənnin tədrisinə ayrılmış saatları və həmin fənn üzrə proqram materialını nəzərə almalı olur. Proqram materialını

saatlar arasında bölüşdürür. Bu zaman saatların (yəni dərslərin və ya məşğələlərin) həftədə qədəri də dəqiqləşdirilir.

Müəllimin növbəti vəzifəsi fənnə aid tədris materialının dərslər (məşğələlər) üzrə ardıcıllığını müəyyənləşdirməkdir. Müəllim tədris materialının mövzularını fərdi tematik planda necə gəldi düzməli deyil. Burada müəyyən tələb nəzərə alınmalı olur; müəllim tədris mövzularını dərslər boyu elə yerləşdirməli olur ki, hər sonra gələn mövzu əvvəlki mövzu ilə əlaqədar olsun, biliklər arasında məntiqi əlaqə yaransın.

İkinci qrup vəzifələr konkret dərslə əlaqədardır, dərsin təşkili ilə bağlıdır. Hər dərs zamanı ustad müəllim bir-birini tamamlayan üç əsas vəzifə yerinə yetirməyə çalışır: şagirdlərə (tələbələrə) təhsil verməli, onları tərbiyə etməli və psixoloji qüvvələrini inkişaf etdirməli olur. Ənənəvi pedaqogika əsasında təhsil almış müəllimlərimizin böyük əksəriyyəti yaxşı halda birinci vəzifə ilə məşğul olur; ikinci və üçüncü vəzifələr üzərində xüsusi baş sındırmır. Milli pedaqogikaya söykənən ustad müəllim isə həmin vəzifələrin üçünə də eyni dərəcədə diqqət yetirir; mövzunun şagirdlər tərəfindən şüurlu mənimsənilməsi üçün müxtəlif formalı iş təşkil edir; dərsin gedişində ortaya çıxan bütün cəhətlər; gecikmə halı, ev tapşırığının kim tərəfindən necə həll olunduğu, kimin sual verib vermədiyi, yerdə qalan şagirdlərin suallara münasibət göstərmələri, danışan şagirdlərin fikirlərinə əlavələr və ya düzəlişlər edilməsi, ayrı-ayrı şagirdlərdə diqqətliliyin, hafizənin, təfəkkürün, iradənin və s. psixoloji qüvvələrin necəliyi belə müəllimin diqqət mərkəzində olur, hansıların tərbiyəyə, hansıların isə psixoloji inkişafa aid olduğunu qeyd edir və qiymətləndirir. Nəticədə, dərsin səviyyəsi yüksəlir; müəllimlər pedoqoji ustalıq səviyyəsinin yüksək olduğu özünü aydın şəkildə göstərir.

Elm və Təhsil Tədqiqatları **VIII Respublika Elmi Konfransı / 19 iyun 2025 / 39-42**
Research in Science and Education **VIII Republican Scientific Conference / 19 iyun 2025 / 39-42**
https://doi.org/10.36719/2789-6919/2025/VIII

Təranə Nağıyeva
Azərbaycan Dövlət Pedaqoji Universiteti
filologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0002-5322-2446
terane.nagiyeva.79@mail.ru

Qohum olmayan dillərin sintaktik quruluşa təsiri

Açar sözlər: *dil, sintaktik quruluş, təsir, təkamül, təfəkkür*
Keywords: *language, syntactic structure, influence, evolution, thinking*

Dilin inkişafı və təkamülü onun əsas keyfiyyətlərindən biridir və çox mürəkkəb anlayışdır. Dilin inkişafı müxtəlif səbəblərlə bağlıdır. Çünki dilin inkişafının öz spesifik xüsusiyyətləri vardır ki, bu da dialektikanın ümumi qanunlarına tabe olur. Cəmiyyətin inkişafı ilə əlaqədar, təbii ki, təfəkkür də inkişaf edir. Dil də təfəkkürlə sıx bağlı olduğundan o da inkişaf edərək təkmilləşir. Dilin inkişafı dedikdə dilin tərkib hissəsini təşkil edən səslərin, sözlərin, söz birləşmələrinin, şəkilçilərin və qrammatik əlaqələrin, onun müxtəlif komponentlərinə məxsus ünsürlərin müntəzəm olaraq dəyişməsi və zənginləşməsi nəzərdə tutulur.

Görkəmli rus alimi Serebrennikov yazır ki, dilin inkişafının iki tərəfi vardır: dilin xarici mühitin təsiri ilə inkişafı və dilin daxili inkişafı. İstənilən dilin inkişafında bu amillər bir-biri ilə sıx bağlıdır.

Dilin xarici mühitin təsiri ilə inkişafinda dillərin qarşılıqlı əlaqəsi əhəmiyyətli dərəcədə ciddi rol oynayır. Məlum olduğu kimi, cəmiyyət yarandığı dövrdən başlayaraq insanlar bir yerdə qalmamış, miqrasiyalar nəticəsində yer üzünə səpələnmişlər. Məhz bu dövrdən, yəni ilk insan yerdəyişmələri, qəbilələr və tayfalar arasında ibtidai əlaqələrdən başlayaraq dillər arasında

da müəyyən əlaqələr yaranmışdır. Bu əlaqələri, yəni sosial və dil əlaqələrini bir-birindən ayırmaq olmaz. Məhz cəmiyyət və dil qarşılıqlı olaraq biri digərinin inkişafında katalizator rolunu oynamış, onun inkişafında stimulverici amil olmuşdur. Dilçilik ədəbiyyatında dilin inkişafından danışarkən dildaxili (intralinqvistik) və dilxarici (ekstralinqvistik) amillərdən danışılır. Qeyd etdiyimiz kimi, dillərin qarşılıqlı əlaqəsi məhz dilxarici amillərə daxildir. Bu amillər isə ümumilikdə bütün sosial əlaqələri əhatə edir. Dillərarası əlaqələrin yaranma səbəblərindən danışarkən ilk növbədə dillərin tarixi inkişaf yoluna nəzər yetirmək və cəmiyyətin inkişafında onun rolunu müəyyənləşdirmək lazımdır.

Müxtəlifsistemli dillərin bir-biri ilə əlaqəsi tarixi bir proses olub, tarixi-mədəni əlaqələr və dövlətlərarası münasibətlərlə, elmi-texniki tərəqqi, elm sahələrinin inkişafı və s. ilə bağlıdır. Dillərin bir-birinə təsiri tarixi-mədəni, siyasi-sosioloji prosesin tərkib hissəsidir. Tarixi faktlar göstərir ki, türk xalqları təşəkkül dövründən ta bu günə qədər müxtlif xalqlar, o cümlədən də farslar və şərqi slavyan xalqları ilə birgə, yanaşı yaşamış, yaxın əlaqə və münasibətlər qurmuş, bir-birinin söz ehtiyatından faydalanaraq istifadə etmişlər.

Qohum olmayan dillərdən Azərbaycan dilinə təkcə leksik vahidlər deyil, eyni zamanda sintaktik vahidlər olan söz birləşmələri və cümlənin inkişafına xidmət edən morfoloji əlamətlər də daxil olmuşdur.

Nümunə üçün deyə bilərik ki, izafət birləşmələri dilimizə fars dilindən keçmişdir. Çünki bu birləşmələr türk dilinin qrammatikası ilə bağlı deyil. Bu birləşmələrin keçmə yolu isə bədii üslub olmuşdur.

Qədim yazılı abidələrimizin dilinə nəzər yetirdikdə şahidi oluruq ki, istər "Orxon-Yenisey abidələri"ndə, istər "Oğuznamələr" də, istərsə də "Kitabi-Dədə Qorqud"un dilində, demək olar ki, izafət birləşmələrindən istifadə edilməmişdir.

"Kitabi-Dədə Qorqud"un dilində "Qılıc çaldı, din açdı şahi-mərdan Əli görkli" cümləsindəki şahi-mərdan tipli tək-tək misallar dastanların dilinə sonralar üzköçürmə zamanı dinlə bağlı əlavə edilmişdir. 1218-ci ildə Suli Fəqih tərəfindən qələmə alınmış "Yusif və Züleyxa" poemasında da izafət birləşmələri çox seyrək olub, adətən, dini ifadələrdə özünü göstərir. XIII əsrin yazılı nümunəsi sayılan "Dastani-Əhməd Hərami" poemasında da izafətdən çox az istifadə edilmişdir. Bu əsərdə izafət birləşməsi ümumxalq dilində işlənən və ya müəyyən tarixi hadisə ilə bağlı təşəkkül tapmış ifadələrdən ibarətdir.

İzafət birləşmələrinin Azərbaycan dilinin bədii üslubunda geniş şəkildə yayılması daha çox orta dövrdə Yusif Məddahın, İmadəddin Nəsiminin, Şah İsmayıl Xətainin və başqa sənətkarların əsərləri ilə bağlıdır. Məhəmməd Füzuli yaradıcılığında isə izafət birləşmələrinin işlənməsi kuliminasiya nöqtəsinə çatır.

Çox vaxt bir dildən digərinə əcnəbi sintaktik modellərin keçməsini sintaktik kalkalaşdırma ilə bağlayırlar. Dillərin qarşılıqlı əlaqəsi zamanı cümlənin strukturu dəyişir, davamlı söz sırası pozulur. Azərbaycan dilinin rus dili ilə uzunmüddətli qarşılıqlı əlaqəsi zamanı bu dildən bizim dilə xas olmayan bəzi cümlə quruluşları da keçmişdir. Məsələn, "Говорит Москва!" – cümləsi rus dili üçün normal sayılsa da, Azərbaycan dili üçün bu cür cümlə quruluşu, yəni xəbər + mübtəda konstruksiyası yaddır. Lakin bizdə də rus dilinin təsiri ilə "Danışır Bakı!" kimi cümlə quruluşu formalaşmışdır.

Qohum olmayan dillərin Azərbaycan dilinin sintaktik quruluşuna təsiri olduğu kimi Azərbaycan dilinin də qohum olmayan, lakin kontaktda olduğu dillərin sintaktik quruluşuna təsiri olmuş və bu gün də olmaqdadır. Nizami yaradıcılığının tədqiqatçılarından biri olan görkəmli alim Həmid Araslı şairin öz əsərlərində Azərbaycan atalar sözlərindən məharətlə istifadə etməsini çox gözəl izah etmiş və əsaslandırmışdır. Məsələn, "pişik balasını istədiyindən yeyər" Azərbaycan atalar sözü fars

dilində olmadığından Nizami böyük məharətlə onu öz "Xəmsə"sində iki misra ilə belə verib: Qorbe ço bovəd sərhəm pusti, Bəççeye-xod ra xorəd əz dusti. Digər bir misala diqqət yetirək: "Vaxtsız banlayan xoruzun başını kəsərlər" ifadəsini Nizami nəzmlə belə verib: "Xorusi ke bica xanəd, Becaye pər fəşani, sər fəşanənd".

Yekun olaraq deyə bilərik ki, xalqlar kontakt halında yaşadıqca, ölkələr arasında ticarət əlaqələri, siyasi çəkişmələr, bir-birinə təcavüz, işğal, müharibə mövcud olduqca, hegemon dövlətlərin apardığı dil siyasəti həyata keçdikcə dillər də bir-birinə istənilən istiqamətdə az və çox dərəcədə təsir edəcəkdir, hər bir dildə təkamül prosesi gedəcəkdir.

Elm və Təhsil Tədqiqatları **VIII Respublika Elmi Konfransı / 19 iyun 2025 / 43-45**
Research in Science and Education **VIII Republican Scientific Conference / 19 iyun 2025 / 43-45**
https://doi.org/10.36719/2789-6919/2025/VIII

Könül Cəmilova
Bakı Dövlət Universiteti
doktorant
https://orcid.org/0009-0002-0873-0289
camilovakonul@gmail.com

Ətraf mühitin mühafizəsinin inzibati hüquqi rejimi

Açar sözlər: *ətraf mühitin mühafizəsi, İnzibati Xətalar Məcəlləsi, inzibati məsuliyyət, sanksiya*
Keywords: *environmental protection, Code of Administrative Offenses, administrative responsibility, sanction*

Ətraf mühitin mühafizəsinin hüquqi rejimi dedikdə bu sahədə dövlət idarəetməsi, qanunvericilik aktları sistemi və məsuliyyət tədbirləri nəzərdə tutulur. "Ətraf mühitin mühafizəsi haqqında" 1999-cu il 8 iyun tarixli 678-IQ nömrəli Azərbaycan Respublikası Qanununun 30-cu maddəsinə görə ətraf mühitin ekoloji cəhətdən tarazlığının nizamlanmasının məqsədi ekoloji təhlükəsizliyin və əhalinin sağlamlığının qorunmasına zəmanət verən, təbii ehtiyatların səmərəli istifadəsini və bərpasını, ətraf mühitin çirklənməsinin qarşısının alınmasını təmin edən elmi əsaslandırılmış ətraf mühitə yol verilə bilən təsir normalarının müəyyən edilməsidir (Ətraf mühitin mühafizəsi haqqında qanun). Bu hüquqi rejimin əsas xüsusiyyəti onların dövlət tərəfindən müəyyən olunan qaydalara əsaslanmasıdır. Bu inzibati təsisatlar və normativlər aşağıdakılardır:

- ətraf mühitin mühafizəsində təsərrüfat və başqa fəaliyyətin ekoloji tarazlığa olan keyfiyyət normativləri;
- ətraf mühitin mühafizəsinin dövlət fondlarının fəaliyyət göstərməsi;
- qanunvericiliyə müvafiq olaraq təbii resursların istifadəsi ilə bağlı qərarlar, müqavilələrin (kontraktlar) bağlanması,

təbiətdən istifadəyə görə limitlərin və kvotaların müəyyən edilməsi;

- təbii ehtiyatların dövlət kadastrının və dövlət uçotunun aparılması qaydalarının müəyyən edilməsi;
- ətraf mühitin və təbii ehtiyatların dövlət monitorinqinin aparılması qaydalarının müəyyən edilməsi;
- ətraf mühitin mühafizəsi sahəsində məcburi standartlaşdırılan və sertifikatlaşdırılan ekoloji cəhətdən təhlükəli məhsulların (işlərin, xidmətlərin) siyahısının müəyyən edilməsi;
- xüsusi elmi-ekoloji və bioloji əhəmiyyətli ətraf mühitin mühafizəsi obyektlərinin siyahısının təsdiq edilməsi, dövlət qoruqlarının, dövlət milli və təbiət parklarının, başqa xüsusi mühafizə tələb edən ərazilərin və obyektlərin təşkil edilməsi;
- ətraf mühitin mühafizəsi sahəsində informasiyanın verilməsi və dövlət statistikasının aparılması qaydalarının müəyyən edilməsi;
- ekoloji auditor fəaliyyətinin aparılması qaydalarının müəyyən edilməsi;
- təbiətdən istifadə ilə bağlı lisenziya və icazələrin verilməsi;
- dövlət ekoloji ekspertizasının təşkil edilməsi;
- genetik modifikasiya olunmuş bitkilərin, eləcə də müasir biotexnoloji və gen mühəndisliyi metodları ilə yaradılmış kənd təsərrüfatı bitki materiallarının idxalına və dövriyyəsinə dövlət nəzarətinin həyata keçirilməsi;
- heyvanlar və bitki aləminin nadir və yer üzündən yox olması təhlükəsinə məruz qalmış növlərinin dövlət kadastrının aparılması;
- "Qırmızı kitab"ın nəşr edilməsi.

Ətraf mühitin mühafizəsinin inzibati hüquqi rejimi dövlət tərəfindən müəyyən olunur və bu rejimə dövlət orqanları fiziki və hüquqi şəxslər əməl etməlidir. Rejimə əməl edilməməsi inzibati məsuliyyətə səbəb olur. Lakin bu sahədə müəyyən boşluqlar mövcuddur. Bu sahədə geniş qanunvericilik aktları

mövcud olsa da, təcrübədə bir sıra problemlər ortaya çıxır. Xüsusilə də Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsində (İXM) bu normativlərin təminatını nəzərdə tutan sanksiyalar daha məhduddur. Ən çox rast gəlinən hallar xüsusi mühafizə olunan təbiət əraziləri və obyektərinin inzibati rejiminin pozulması ilə bağlıdır. Ümumiyyətlə, İXM-də hipotezanın ümumiliyi və yaxud qeyri-müəyyənliyi, sanksiyaların məhdudluğu məsələsi aktualdır. Məsələn, İXM-in 242-ci maddəsi xüsusi mühafizə olunan təbiət əraziləri ilə bağlı hüquqpozma hesab olunan əməli ümumi şəkildə müəyyən edir: *Xüsusi mühafizə olunan təbiət ərazilərindən istifadə qaydalarının, həmin ərazilərin mühafizə rejiminin pozulmasına görə* - (İnzibati Xətalar Məcəlləsi). Əlavə olaraq, ekoloji zərər məsələsi formal xarakter daşıyır və ətraf mühitin mühafizəsi sahəsində məsuliyyət məsələlərinin işlənib hazırlanmasında əsas problem olaraq qalır. Bu istiqamətdəki araşdırmaların əsas predmeti belə zərərin xarakteri və həcmi, zərərə görə ödənilən əvəzin həcmi, zərərin hesablanması metodikası və s. bu kimi məsələlərdir (Əsədov, Axundzadə, Quliyeva, 2007).

Bu sahədə müqavilə və qərarlar sistemi təkmilləşdirilməlidir. Qərarların icrası məsələləri, debitor kreditor borclarının ödənilməməsi aktual problem olaraq qalır.

Ədəbiyyat

1. Əliyev, S.F. (2023). *İnzibati hüquq*. Dərslik. "Elm və Təhsil MMC".
2. Əsədov, A.Ə., Axundzadə, L.T, Quliyeva, Z.N. (2007). *Ekologiya hüququ*. Dərslik. "Adiloğlu".
3. İnzibati Xətalar Məcəlləsi. https://e-qanun.az/framework/46960
4. Ətraf mühitin mühafizəsi haqqında qanun. https://e-qanun.az/framework/3852

Elm və Təhsil Tədqiqatları **VIII Respublika Elmi Konfransı / 19 iyun 2025 / 46-48**
Research in Science and Education **VIII Republican Scientific Conference / 19 iyun 2025 / 46-48**
https://doi.org/10.36719/2789-6919/2025/VIII

Qönçə Rəhimova
Azərbaycan Dövlət Pedaqoji Universiteti
doktorant
https://orcid.org/0009-0003-3836-2824
qm.rahimova@adpu.edu.az

Məktəbəqədər təhsildə qlobal çağırışlar və perspektivlər: müasir yanaşmalar və inkişaf istiqamətləri

Açar sözlər: *məktəbəqədər təhsil, idrak, emosional, sosial və fiziki inkişaf , çağırışlar, mövcud perspektivlər*
Keywords: *preschool education, cognitive, emotional, social and physical development, challenges, current perspectives*

Ümummilli lider Heydər Əliyev hələ Azərbaycana birinci rəhbərliyi dövründə təhsilin inkişafına böyük önəm verirdi. Ötən əsrin 70-80-ci illərində onun rəhbərliyi altında təhsil müəssisələrinin maddi-texniki bazasının zənginləşdirilməsi, təhsil müəssisələrinin geniş şəbəkəsinin yaradılması və respublika hüdudlarından kənardakı ali məktəblərə gənclərin göndərilməsi, hərbi kadrların yetişdirilməsi, respublika elmlər akademiyasının elmi-tədqiqat institutlarında fundamental elmin inkişafının təmin olunması gələcəkdə milli müstəqillik üçün zəruri intellektual zəmin yaratmışdır. Həmin illərdə respublikada məktəblərin, ali və orta ixtisas müəssisələri üçün yeni binaların tikintisi geniş vüsət almış, təhsil infrastrukturu tamamilə yeniləşdirilmiş, ixtisaslı kadrlar hazırlayan ali və orta ixtisas məktəbləri açılmışdır.

Müasir dövrdə cəmiyyətin tərəqqisi, bilikli, düşünə bilən və yaradıcı fərdlərin formalaşması ilə birbaşa bağlıdır. Belə fərdlərin yetişdirilməsi prosesi isə erkən yaşlardan – xüsusilə də məktəbəqədər dövrdən başlayır. Məktəbəqədər yaş dövrü uşağın inkişafında xüsusi rol oynayan, onun təfəkkürünün, əqli bacarıqlarının, diqqət və yaddaş imkanlarının formalaşdığı

həssas və məhsuldar mərhələdir. Bu dövrdə verilən təməl tərbiyə, uşağın gələcək təhsil uğurlarına, şəxsiyyət kimi formalaşmasına və cəmiyyətə uyğunlaşmasına birbaşa təsir göstərir.

Məktəbəqədər yaş dövrü uşağın inkişafında ən əhəmiyyətli mərhələlərdən biri hesab olunur. Bu dövrdə formalaşan biliklər, bacarıqlar və vərdişlər uşağın gələcək şəxsiyyət inkişafına və təlim nailiyyətlərinə birbaşa təsir göstərir.

UNESCO, UNICEF və Dünya Bankı kimi beynəlxalq təşkilatlar məktəbəqədər təhsilin inkişafını həmişə dəstəkləmişlər. Beynəlxalq kontekstdə roluna nümunə olaraq BMT-nin 2030-cu il Davamlı İnkişaf Məqsədlərinin 4.2 bəndində 2030-cu ilə qədər bütün uşaqların keyfiyyətli məktəbəqədər təhsilə çıxışının təmin olunmasını əsas məqsəd kimi qarşıya qoymuşdur. Məktəbəqədər yaşlı uşaqların təhsili uşaqlarda sonrakı təhsil mərhələlərinə hazırlığın artması, sosial uyğunlaşma və gələcəkdə iqtisadi sabitlik baxımından mühüm rol oynayır. Bu yönümdə dünyada olan çətinlikləri aşağıdakı kimi qeyd edə bilərik: 1. Təhsilə bərabər çıxış problemi: iqtisadi vəziyyət, coğrafi yerləşmə və sosial bərabərsizlik bir çox uşağın məktəbəqədər təhsildən faydalanmasına mane olur; 2. Müəllim hazırlığı və keyfiyyət: bir çox ölkədə ixtisaslı müəllimlərin çatışmazlığı təhsilin keyfiyyətinə mənfi təsir göstərir. Pedaqoqların davamlı peşə inkişafı zəif təşkil olunub; 3. Maliyyə və infrastruktur məhdudiyyətləri: dövlətlərin məktəbəqədər təhsilə ayırdığı vəsait kifayət etmir. Bu isə tədris məkanlarının çatışmazlığına və aşağı maddi-texniki bazaya səbəb olur; 4. Texnologiyaya çıxışda qeyri-bərabərlik: Rəqəmsal təhsilin inkişafına baxmayaraq, bir çox ölkələrdə uşaqlar internet və texniki vasitələrə çıxışdan məhrumdurlar.

Bütün qeyd olunan çətinlikləri aradan qaldıran perspektiv və inkişaf imkanlarını bu cür qruplaşdırmaq olar: 1. Dövlət siyasəti və beynəlxalq dəstək: Beynəlxalq layihələr və proqramlar vasitəsilə məktəbəqədər təhsilin əhatə dairəsinin artırılması mümkündür; 2. Texnologiyadan istifadə: Rəqəmsal platformalar

təhsilin fərdiləşdirilməsinə və daha geniş auditoriyaya çatdırılmasına imkan verir. Tərbiyəçi və müəllimlər yeni texnologiyalardan istifadəni bilmək üçün təlimlərdə, seminarlarda mütəmadi iştirak etməlidirlər; 3. Ailə və icma əsaslı yanaşmalar: valideynlərin və icma üzvlərinin təhsildə fəal iştirakını təşviq edən modellər daha davamlı nəticələr verir. Valideynlərin bağça ilə əməkdaşlığı həmişə səmərəli nəticələr verər. Xüsusilə onlarla açıq qapı günləri, dəyirmi masa və digər maarifləndirici günlərin keçirilməsi əhəmiyyət kəsb edər. 4. Uğurlu beynəlxalq təcrübələr: Skandinaviya ölkələri məktəbəqədər təhsildə uşaq mərkəzli yanaşmaları, Yaponiyada isə nizam-intizam və ictimai davranış vərdişləri əsas götürülür. Dünyanın bu sahədə qabaqcıl təcrübəsi ölkəmizin təhsilinə uyğunlaşdırılaraq tətbiq oluna bilər.

Prezident İlham Əliyevin fərmanı ilə respublikamızda son illərdə həm elm, həm də təhsil sahəsində islahatlara start verilib, məktəbəqədər təhsilin inkişafı məqsədi ilə bir sıra islahatlar həyata keçirilmişdir. Dövlət Proqramları çərçivəsində bağça yerlərinin artırılması, müəllim hazırlığı kurslarının təşkili və valideyn maarifləndirilməsi sahəsində müsbət addımlar atılmışdır. Bununla belə, regionlar üzrə qeyri-bərabərlik və maliyyə resurslarının çatışmazlığı hələ də əsas problemlərdəndir.

Məktəbəqədər təhsil uşaqların gələcək uğurlarında həlledici amildir. Çünki uşağın ilk təhsilinin bünövrəsi məhz bu yaşda qoyulur. Bu sahədə qlobal səviyyədə çağırışlar olsa da, perspektivlər və inkişaf imkanları da kifayət qədərdir. Dövlət siyasətində ardıcıllıq, müəllim hazırlığı, rəqəmsal vasitələrdən istifadə və valideynlərin iştirakı bu sahənin inkişafı üçün əsas istiqamətlərdir.

Nərgiz Axundova
AMEA Arxeologiya və Antropologiya İnstitutu
https://orcid.org/0009-0002-4941-7731
nargizaxundova80@gmail.com

Son tunc dövründə qədim yaşayış yerləri

Açar sözlər: *Son Tunc dövrü, qədim yaşayış yerləri, arxeologiya, metal emalı, Xocalı-Gədəbəy mədəniyyəti, daş tikililər, qədim təsərrüfat, qala tipli məskənlər*

Keywords: *Late Bronze Age, ancient settlements, archaeology, metalworking, Khojaly-Gadabay culture, stone buildings, ancient economy, fortress-type settlements*

Son Tunc dövrü (e.ə. XIII–IX əsrlər) qədim insan cəmiyyətlərinin sosial-iqtisadi və mədəni inkişafında mühüm mərhələlərdən biridir. Bu dövr Cənubi Qafqazda, o cümlədən Azərbaycan ərazisində əkinçilik, maldarlıq, metallurgiya və tikinti sahələrində irəliləyişlərlə xarakterizə olunur. Qədim yaşayış yerlərinin arxeoloji tədqiqi həmin dövrə aid cəmiyyətlərin həyat tərzini, təsərrüfat fəaliyyətini və mədəni münasibətlərini anlamağa imkan verir. Son Tunc dövrü yaşayış yerləri əsasən çay vadilərində, dağətəyi və dağlıq zonalarda, strateji əhəmiyyətə malik mövqelərdə salınmışdır. Belə yaşayış yerləri Kür-Araz ovalığında, Qarabağda, Naxçıvanda, Gəncə-Qazax bölgəsində və Cənubi Azərbaycanın müxtəlif ərazilərində aşkarlanmışdır. Bu yaşayış məskənləri, adətən, təbii müdafiə imkanlarına malik, su mənbələrinə yaxın yerlərdə yerləşirdi.

Son Tunc dövrü yaşayış yerləri əsasən qala tipli qəsəbələr və açıq tipli kəndlər şəklində təşkil olunmuşdur. Qala tipli məskənlərdə daş hörgülü bürclər, müdafiə divarları və daxili planlaşdırılmış tikililər mövcuddur. Bu yaşayış yerlərində evlər adətən daş və çiy kərpicdən inşa edilmiş, bir və ya bir neçə otaqlı

struktura malik olmuşdur. Daxili təsərrüfat obyektləri – ocaqlar, taxıl anbarları, saxsı qabların hazırlanma yerləri də aşkar edilmişdir. Bu dövrə aid yaşayış yerlərində aparılan arxeoloji qazıntılar əkinçilik və maldarlığın əsas təsərrüfat sahələri olduğunu göstərir. Buğda, arpa və darı becərilməsi, qoyun, keçi, inək və at kimi heyvanların saxlanılması geniş yayılmışdır. Əldə olunan oraq, dən daşı, dəmir və bürünc alətlər, həmçinin sümükdən və daşdan hazırlanmış məmulatlar, burada inkişaf etmiş təsərrüfatın izlərini aydın şəkildə nümayiş etdirir.

Son Tunc dövründə metal emalı geniş yayılmışdır. Tunc, bürünc və nadir hallarda dəmirdən hazırlanan əmək alətləri və bəzək əşyaları yaşayış yerlərində aşkarlanmışdır. Saxsı qablar isə texniki və estetik baxımdan inkişaf etmiş sənətkarlığın göstəricisidir. Gözəl bəzəklərlə işlənmiş qablar, həndəsi naxışlar və zoomorf təsvirlər bu dövrün incəsənət zövqünü və dini dünyagörüşünü əks etdirir. Son Tunc dövrünə aid mühüm yaşayış yerlərinə Naxçıvanda Kiçik və Böyük Qaraköpəktəpə, Qarabağda Uzarlıqtəpə, Xocalı-Gədəbəy mədəniyyəti nümunələri, Şəmkir və Gəncə ətrafında yerləşən abidələr daxildir. Bu abidələrdə aşkarlanan keramika məmulatları, əmək alətləri, tikinti qalıqları və dəfn kompleksləri həmin dövrün mədəniyyətini daha dərindən anlamağa imkan verir. Xüsusilə, Xocalı abidəsində aşkar olunan daş qutu qəbirlər və qiymətli metal bəzək əşyaları Son Tunc dövrü cəmiyyətində sosial təbəqələşmənin olduğunu göstərir.

Son Tunc dövründə yaranan və inkişaf edən yaşayış yerləri qədim insan cəmiyyətlərinin həyat tərzi, iqtisadi fəaliyyəti və mədəni dəyərləri haqqında zəngin məlumat verir. Bu dövrün arxeoloji irsi təkcə tariximizin deyil, ümumbəşəri sivilizasiya tarixinin də mühüm bir hissəsini təşkil edir. Hər bir yaşayış yeri o dövr insanlarının yaradıcı zəhmətini və cəmiyyətin sosial strukturunu əks etdirən canlı muzeylər kimi qiymətləndirilməlidir.

Elm və Təhsil Tədqiqatları **VIII Respublika Elmi Konfransı / 19 iyun 2025 / 51-53**
Research in Science and Education **VIII Republican Scientific Conference / 19 iyun 2025 / 51-53**
https://doi.org/10.36719/2789-6919/2025/VIII

Türkan Məhərrəmova
Hərbi Elmi Tədqiqat İnstitutu
dissertant
https://orcid.org/0009-0007-0659-0629
turkanmaharramova01@gmail.com

Azərbaycanlılara qarşı etnik təmizləmə: mart soyqırımının ideoloji səbəbləri

Açar sözlər: *soyqırım, erməni, xalq, dirçəliş, Demokratik Respublika*
Keywords: *genocide, armenian, people, revival, Democratic Republic*

Müsəlmanlara qarşı daşnaksütyunun təxribatı: XX əsr dövrünə nəzər salsaq, ermənilərin RSFSR daxilində mühüm mövqelərə təyin olunması sonradan baş verəcəklərə zəmin rolunu oynadı. Çünki Xalq Komissarları tərəfindən ermənilərin yuxarı mövqelərə rəhbər təyin olunması – S.Şaumyanın əvvəlcə Qafqaz işləri üzrə fövqəladə komissar, daha sonra Xalq Komissarlar sovetinin sədri və xarici işlər komissarı, Q.Korqanovun Hərbi dəniz işləri üzrə komissar, A.Karinyanın Ədliyyə komissarı vəzifəsinə yiyələnməsi erməniləri məqsədinə daha da yaxınlaşdırırdı və bu da Azərbaycan üçün yaxın gələcəkdə vəziyyətin necə ciddi olacağını deməyə əsas verirdi. Artıq Bakıda xeyli sayda erməni silahlı əsgərləri toplaşmışdı. Bu qüvvə birbaşa Şaumyanın ixtiyarında idi. Elə Şaumyanın qeyd etdiyi kimi, 10000 silahlı qüvvənin 4000-i erməni daşnaqlardan təşkil olunmuşdu. Maraqlı burasındadır ki, həmin bu sovet qüvvələrinin tərkibində azərbaycanlıya, yəni onların dediyi kimi müsəlman türkə rast gəlmək mümkün deyildi. Məlumdur ki, bu qərəzli və məqsədli edilmişdi. Buna baxmayaraq, Lənkəranda azərbaycanlılar tərəfindən könüllü şəkildə milli hərbi bölüklər yaradılmışdı. Bunu erməni müəlliflərindən biri Suren Şaumyan da etiraf edirdi: “Bakı Soveti ordusunun yalnız adı sovetlərin

siyahısındadır, əslində həmin ordu erməni Milli Şurasına tabe idi (Qazıyev, 2009, s.174). Rusiyada oktyabr çevrilişindən sonra çarizm devrilmiş, hakimiyyətə bolşeviklər gəlmişdilər. Siyasi qüvvə kimi bolşeviklər hakim mövqedə idilər. Cənubi Qafqazda siyasi qüvvələrin müxtəlifliyi – eserlər, menşeviklər, daşnaklar, bolşeviklər, arasında baş verən maraqların toqquşması bölgədə çaxnaşmaya səbəb olurdu. Adını sadaladığım dördlük Azərbaycanın yerli əhalisinə qarşı bir cəbhədə birləşmişdilər. 1917-ci ildə vəziyyət o yerə gəlib çatır ki, Bakıda yerləşən rus-erməni silahlı birləşmiş dəstələri Azərbaycan əhalisinə zor tətbiq edərək, qarmaqarışıqlıq yaradır, soyğunçuluq və yerli əhali yaşayan məhəllələrdə özbaşına axtarış tədbirləri həyata keçirirlər. Nəticədə, bu da yerli əhalinin təlaşına səbəb olur, buna görə yerli tacirlər etiraz əlaməti olaraq dükanları bağlayırlar (Abışov, 2007, s.86). Vəziyyətin ağır olduğunu duyan Azərbaycanın öndə gələn ziyalıları tədbir görməyin vacibliyini anlayırlar. Buna görə M.Ə.Rəsulzadə 5 nəfərdən ibarət komissiyanın yaradılmasını təklif edir. Elə həmin gün Milli Komitənin təcili yığıncağı təşkil olunur. Yığıncaqda B.Aşurbəyov, İ.Heydərov, Ə.Topçubaşov, M.Ə.Rəsulzadə, M.Hacınski iştirak etdi. Bu ziyalılar yaranacaq olan Azərbaycan Demokratik Respublikasını qurucuları olacaqdılar. Bundan xəbər tutan Şaumyan hər vasitə ilə Azərbaycan xalqının dirçəlməsinə mane olmağa çalışırdı. Onu qorxudan, əslində, müsəlmanların öz muxtariyyətlərini əldə etmək şansının olması idi. Buna görə də Şaumyan çıxışlarında fəhlələr, rus və erməni əsgərləri, Xəzər Hərbi Dəniz donanması qarşısında onları azərbaycanlılara qarşı qaldırmağa çalışırdı. Şaumyan əsl erməni kimi davranaraq dəqiq və hiylə işlədərək, müsəlmanlar əleyhinə açıq təbliğat aparmırdı. O, çox gözəl başa düşürdü ki, əgər anti-müsavat siyasəti aparsaydı, onda müsəlmanlar müsavatın ətrafında birləşə bilərdi. O, taktikanı dəyişərək, ermənipərəst görünməmək üçün bolşeviklərin adından "Бакински рабочий" qəzetində Müsavatı tənqid edərkən cüzi olaraq Daşnaksütyun partiyasını da tənqid etmişdi. Hansı ki həmin qəzetin redaktoru

əvvəlcə Şaumyan, sonra A.Əmiryan olmuşdu. Bu da o qəzetin kimlərə xidmət etdiyinin açıq göstəricisidir. Xalqa yaxın olan mətbuatdan siyasi məqsədlərini bolşevik adı altında təbliğ etməyə çalışırdılar (Abışov, 2007, s.88-91).

Ermənilər çox ikitərəfli provakasiya apararaq, hətta yerli əhalini bolşeviklərə qarşı qaldırmağa çalışırdılar. Belə ki, martın 18-də Bakı şəhərinin keçmiş rəisi müsəlmanların İsmailiyyə binasında keçirdiyi iclasına gəlmiş, erməni milli şurasına və daşnaksütyunun adından bildirmişdir: "Əgər müsəlmanlar bolşeviklərin əleyhinə çıxsalar, erməni qoşun hissələri müsəlmanlara boşeviklərin Bakıdan çıxarılmasına kömək edər." Erməni milli şurasının başqa bir nümayəndəsi Ter Zaxaryan Müsavat partiyasının binasına gələrək daşnaklarla müsavatçıların bolşeviklərə qarşı birləşmələrini bildirmişdir (Arzumanlı, 1995, s.9). 1918-ci ilin yanvarında daha da fəallaşan erməni daşnakları növbəti təxribatı Müsəlman korpusun komandiri general Əsəd bəy Talışınskinin Bakıda həbsi oldu. Bu hadisə yerli əhalinin böyük narazılığına səbəb oldu. Ə.Talışınski rus-yapon müharibəsində Port-Arturun müdafiəsinin iştirakçısı olsa da, özünün başçılıq etdiyi müsəlman diviziyası qərargahı Bakıya çatar-çatmaz vağzalda Şaumyanın göstərişi ilə həbs olundular.

XIX əsrlə XX əsri müqayisə etməli olsaq, bir sıra fərqləndirici xüsusiyyətləri qeyd edə bilərik. Belə ki, XX əsr erməni fəaliyyətinin kəskinləşməsinin mənbəyi elə XIX əsrdən qaynaqlandığını görmək olar.

Ədəbiyyat

1. Arzumanlı, V. (1995). *1918-ci il qırğınları*.
2. Abışov, V. (2007). *Azərbaycanlıların soyqırımı (1917-1918-ci illər)*.
3. Qazıyev, Y. (2009). *Erməni məsələsi – yalanlar və gerçəklər*.

Elm və Təhsil Tədqiqatları **VIII Respublika Elmi Konfransı / 19 iyun 2025 / 54-57**
Research in Science and Education **VIII Republican Scientific Conference / 19 iyun 2025 / 54-57**
https://doi.org/10.36719/2789-6919/2025/VIII

Sevda Ağayeva
Azərbaycan Dövlət Pedaqoji Universiteti
https://orcid.org/0000-0002-5615-6923
seva.ava.17@mail.ru

Tələbələrdə oxu bacarıqlarının inkişaf etdirilməsinin nəzəri əsasları

Açar sözlər: *müəllim, tələbə, oxu təlimi, oxu materialı, şifahi nitq*
Keywords: *teacher, student, reading instruction, reading material, oral speech*

Oxu, tələbələrin yazılı sabit mətndən məlumat əldə etməyi hədəfləyən ünsiyyət – idrak fəaliyyətidir. Oxumaq həm məktəb prosesində, həm də məzun olduqdan sonra böyük imkanlar təqdim edir. Bu fəaliyyət növü dünyagörüşünün, əxlaqi və estetik tərbiyənin formalaşmasına kömək edir. Oxu yalnız yazılı işarələrin şifahi nitqə çevrilməsinin mexaniki əməliyyatı deyil. Oxu oxunanların mənasını başa düşməyi özündə birləşdirdiyindən bu bir növ zehni əməliyyatdır. Şifahi nitqin başa düşülməsi dinləyicinin intellektual fəaliyyətini də nəzərdə tutur. Ancaq oxumaq, yəni yazılı dili anlamaq danışıq dilini anlamaqdan daha çətin bir əməliyyatdır. Şifahi nitqdə intonasiya, fasilə, səs vurğusu, bir sıra ifadəli vasitələr anlayışa kömək edir. Onlardan istifadə edərək natiq, sanki dediklərini şərh edir və dinləyiciyə nitqin mənasını açır. Oxu zamanı bütün bu yardımların köməyi olmadan, yalnız mətnə güvənərək, verilmiş mətnə daxil olan sözlərin nisbi nisbətini və düzgün nisbətini təyin edərək ona müstəqil bir şərh vermək lazımdır.

Psixoloji baxımdan oxu təlimi oxu texnikası və oxu materialının anlaşılmasından ibarət olan qəbuledici və ya qəbul olunan bir ünsiyyət formasıdır. Bu proseslərin hər ikisi bir-biri ilə əlaqəlidir və bölünməzdir. Ancaq yaxşı oxuma texnikası

oxumağı başa düşmək demək deyil. Buna görə də, qeyd etdiyimiz kimi, oxu bir növ zehni əməliyyatdır.

Bildiyimiz kimi, oxu insanların ünsiyyət və sosial fəaliyyət sahəsinə daxil olan və şifahi ünsiyyətin müəyyən formalarını təmin edən nitq fəaliyyət növüdür. Oxunun psixoloji quruluşunda məzmunu və prosedur tərəfləri ayrılır və aparıcı rol fəaliyyətin quruluşunu müəyyənləşdirən məzmun tərəfinə aiddir. Prosessual tərəfə gəlincə, bu, oxucunun istədiyi nəticəni əldə etmək üçün həyata keçirdiyi bütün hərəkətləri və əməliyyatları əhatə edir. Bildiyiniz kimi, oxunun ilk anı və onun hissiyyat əsası oxucunun mətni vizual olaraq qəbul etməsidir. Yetkin bir oxucu tərəfindən mətnin qavranılması, ilk növbədə, məzmuna yönəldilir və təcrübəsiz oxucudan fərqli olaraq linqvistik forma, demək olar ki, nəzərə alınmır.

Dərsdəki oxu vəziyyətləri iki qrupa bölünür. Birinci qrup, oxucunun yalnız mətndə olan məlumatları alması lazım olan vəziyyətlərdir və ikinci qrup vəziyyət, məlumat alaraq oxucunun onu başqalarına çatdırması lazım olan vəziyyətləri əks etdirir. Son zamanlar oxu bir sıra tədqiqatçılar tərəfindən yazılmış məlumat fəaliyyəti kimi şərh olunur, şərti simvollar bir şəxsdən digərinə ötürülən məlumatdır. Eyni zamanda, xarici müəlliflər də, yerli müəlliflər də oxucunun müəllifi başa düşməsi, bəzən çox çətin iş görməli olduğunu nəzərə alaraq, oxumağın çox çətin olduğunu vurğulayırlar. Bu əsərlərdən biri oxunu yazılı simvolların mənalarını açmaq üçün aktiv bir düşüncə prosesi olaraq təyin edir. Bu düşüncə prosesinin bir çox bacarıqlara əsaslandığı və sözlərin tanınması, fonetik struktur təhlilindən istifadə, konstruktiv təxminlər, məcazi mənanın bilavasitə mənasını və şərhini anlamaq, ictimailəşmiş təcrübənin qiymətləndirilməsinə daxil olduğu vurğulanır və ümumiyyətlə, bu, bir neçə il uzanan bir müddətdir.

Şifahi nitqdən fərqli olaraq oxumaq, ilk növbədə, tələbələri yeni biliklərlə zənginləşdirmək üçün məhdud imkanlarına görə vacibdir. Oxu prosesində tələbə özü üçün yeni olan hadisələrlə, xüsusən öyrənilən dilin ölkəsi ilə, mədəniyyəti ilə əlçatan bir

formada tanış olur. Oxu öyrənənləri tərbiyələndirir. Müsbət ədəbi qəhrəmanların timsalında tələbələr xarakterlərinin ən yaxşı xüsusiyyətlərini formalaşdırırlar. Oxumaq da praktikdir. Sonrakı yaşdakı tələbələr, bir qayda olaraq, xarici dildə şifahi nitqdən çox nadir hallarda istifadə edəcəklər. Bu səbəbdən xarici dil bir fənn olaraq onu bitirən tələbənin xarici dildə bir qəzet məqaləsini, bir xarici kitabı, bir mücərrəd, texniki təsviri oxumağı və başa düşməyi bacarmalı olduğunu xarakterizə edir.

Xarici dillərin tədrisi prosesində oxuya diqqət yetirmə ehtiyacı, ilk növbədə, şifahi ünsiyyət prosesinin formalaşmasının mahiyyəti ilə diktə olunur. Bundan əlavə, hər danışıq prosesi, öz növbəsində, müəyyən bir şəkildə başqa bir prosesin formalaşmasına kömək edir. Xarici dil öyrənərkən bu təsir də nəzərə çarpır. Məsələn, xarici dildə kitab oxumaq tələbələrin söz ehtiyatını böyük dərəcədə zənginləşdirir, öyrəndikləri sözləri gücləndirir və istifadə sahələrini genişləndirməyə kömək edir. Oxşar məlumatlar bəzi metodistlər tərəfindən qeyd olunur. Onların praktiki iş təcrübəsi xarici dil ədəbiyyatının intensiv oxunmasının şifahi nitq bacarıqlarının inkişafına kömək etdiyini göstərdi. Bundan başqa oxunun təkcə şifahi nitq bacarıqlarının inkişafına deyil, həm də qorunub saxlanmasına da müsbət təsir göstərdiyi məlum oldu.

Dünyanın müxtəlif ölkələrində ingilis dilinin tədrisi zamanı tələbələrin vacib hesab etdiyi fəaliyyət növlərindən biri də oxu təlimidir. Lakin diqqətlə araşdırsaq görərik ki, bu gün xarici dildə, o cümlədən ingilis dilində oxunun təlimi vəziyyəti dövrün tələblərinə kifayət qədər cavab vermir. Oxu əvvəllər yazılı nitqin dekodlaşdırılması prosesi kimi başa düşülürdü (Bağırova, 2014, s.10; Barsuk, 1967; Əhmədov, 1973). Dilin yazılı və şifahi formaları arasında bir sıra fərqlər var. Belə ki, bu formalar bir-birindən keyfiyyət baxımından fərqlənir. Bu fərqlər özünü dilin həm leksik səviyyəsində, həm də sintaksis səviyyəsində göstərir. Tələbələrin oxu vərdişlərini hərtərəfli mənimsəməsi üçün oxu təlimi prosesi məqsədyönlü olmalı və mərhələli, sistemli təşkil olunmalıdır.

Şifahi giriş kursundan sonra tələbələr yüksək nitq forması – yüksək səslə oxuya başlayırlar. Nitq bacarığı, yəni xarici dildə olan mətnləri danışmaq, dinləmək, oxumaq və anlamaq bacarığı xarici dil tədrisinin mərkəzində dayanır. Oxu bacarığı sintetik bir fenomendir, dörd komponentdən ibarətdir: düzgünlük, şüurluluq, səlislik və ifadəlilik. Tələbələrə oxu vərdişlərinin aşılanması, eyni zamanda, aydın tələffüzün formalaşmasına, təxəyyülün inkişafına, söz ehtiyatının genişlənməsinə kömək edir, nitqi daha parlaq və xəyali edir. Dəstəkli oxu bacarıqlarının inkişafı tələbələrin daha yaxşı sosiallaşmasına gətirib çıxarır. Oxu prosesi hərtərəfli olduqda, yəni eyni zamanda həm texniki tərəfə – dil hadisələrinin avtomatlaşdırılmış vizual – nitq – motor – eşitmə əlaqələrinə əsaslandıqda, yazılı işarələrin və yazılı mətnlərin başa düşülməsi daha asan olur. Yazılı mətnin bütövlükdə tanınması və anlaşılması və oxu qabiliyyətinin həyata keçirilməsi ana dilində səssiz oxumaq və ucadan oxumaq, bir-birini tamamlamaq, həm tələbənin özü üçün, həm də başqaları üçün əlverişli olur. Xarici dildə bu ünsiyyət formaları qorunur, lakin ucadan oxumaq başqa bir təhsil məqsədilə yerinə yetirilir: bu öz-özünə oxumağı öyrətmək üçün bir vasitədir.

Ədəbiyyat

1. Bağırova, V.S. (2014). *Ali ixtisas məktəblərində kommunikasiya yönümlü oxunun tədrisi*.
2. Barsuk, R.Y. (1967). *Azərbaycan məktəblərində xarici dil tədrisinin bəzi problemləri*.
3. Əhmədov, B. (1973). Fəndaxili və fənlərarası əlaqə probleminə dair. *Azərbaycan məktəbi*, №1, s.34.

Elm və Təhsil Tədqiqatları **VIII Respublika Elmi Konfransı / 19 iyun 2025 / 58-60**
Research in Science and Education **VIII Republican Scientific Conference / 19 iyun 2025 / 58-60**
https://doi.org/10.36719/2789-6919/2025/VIII

Kəmalə Xudaverdiyeva
AMEA akademik Ziya Bünyadov adına
Şərqşünaslıq İnstitutu
doktorant
https://orcid.org/0000-0002-3789-2706
kamala.khudaverdiyeva@bk.ru

Avrasiya İqtisadi İttifaqı çərçivəsində Qazaxıstan-Ermənistan münasibətləri: əməkdaşlıq və rəqabət

Açar sözlər: *Qazaxıstan, Ermənistan, regional əməkdaşlıq, Avrasiya İqtisadi İttifaqı, iqtisadi rəqabət*

Keyword: *Kazakhstan, Armenia, regional cooperation, Eurasian Economic Union, economic competition*

Post-sovet məkanında yeni inteqrasiya modellərinin formalaşması ilə paralel olaraq Qazaxıstan və Ermənistan kimi dövlətlər müxtəlif təşkilatlar çərçivəsində əməkdaşlıq münasibətlərini inkişaf etdirməkdədirlər. Bu baxımdan Avrasiya İqtisadi İttifaqı (Aİİ) çərçivəsində qurulan münasibətlər regional siyasətdə xüsusi yer tutur. Həm Qazaxıstan, həm də Ermənistan bu təşkilatın üzvü olmaqla yanaşı, həmçinin ortaq tərəflərindən biri də keçmiş SSRİ ölkələri olmaqlarıdır. Lakin onların təşkilatdaxili münasibətləri, milli maraqları və xarici siyasət yönəlimləri arasında ciddi fərqlər vardır. Qazaxıstan regional və beynəlxalq əməkdaşlıqlarda daha çevik və çoxtərəfli yanaşma nümayiş etdirir. Ermənistan isə Avrasiya İqtisadi İttifaqı çərçivəsində iştirakını daha çox iqtisadi sabitliyin təmin edilməsi və ticarət çərçivəsində inteqrasiyanın dərinləşdirilməsi məqsədilə formalaşdırır. Bu fərqliliklər Aİİ daxilində əməkdaşlıq və rəqabət elementlərini eyni anda mövcud edir. Belə ki, Qazaxıstan-Ermənistan münasibətlərinin əsasən təşkilat çərçivəsində və məhdud iqtisadi konturda qalması, regional sabitlik və əməkdaşlıq baxımından əlavə suveren balans yaradılmasına şərait yaradır.

Aİİ çərçivəsində əməkdaşlığın hüquqi-institusional bazası. Avrasiya İqtisadi İttifaqı 2014-cü ildə Rusiya, Belarus və Qazaxıstan tərəfindən təsis olunmuş, 2015-ci ildən isə fəaliyyətə başlamışdır. Daha sonra Ermənistan və Qırğızıstan da bu ittifaqa qoşulmuşdur. Aİİ-nin məqsədi üzv dövlətlər arasında sərbəst ticarət zona yaratmaq, gömrük baryerlərini aradan qaldırmaq və iqtisadi əlaqələri gücləndirməkdir. Ermənistan təşkilata 2015-ci ilin yanvar ayında qoşulsa da, onun iqtisadi imkanları və coğrafi mövqeyi təşkilat daxilində onu passiv tərəfdaş halına gətirib. Qazaxıstan isə Aİİ çərçivəsində əsas oyunçulardan biridir və təşkilatın ideoloji əsaslandırıcılarından biri kimi çıxış edir. Bu ölkə geniş enerji resursları, inkişaf etmiş nəqliyyat infrastrukturuna malikdir və Çinin "Bir Kəmər, Bir Yol" təşəbbüsü ilə də sıx əlaqəlidir. Qazaxıstan-Ermənistan münasibətləri də məhz bu təşkilat daxilində qurulsa da, real ticarət dövriyyəsi və siyasi əlaqələrin səviyyəsi aşağıdır.

İqtisadi əlaqələrin məhdud çərçivəsi. Ermənistanın Qazaxıstanla iqtisadi əlaqələri əsasən Aİİ çərçivəsində gömrük və texniki normativlərin uyğunlaşdırılması üzərindən həyata keçirilir. Lakin statistik məlumatlar göstərir ki, iki ölkə arasında birbaşa ticarət dövriyyəsi aşağı səviyyədədir (Eurasian Economic Commission, 2023). Bunun əsas səbəbləri sırasında Ermənistanın coğrafi mövqeyi, regiondakı nəqliyyat dəhlizlərinə birbaşa çıxış imkanlarının məhdudluğu və iqtisadi strukturunun məhdud ixrac potensialı ilə xarakterizə olunması göstərilə bilər. Qazaxıstanın Azərbaycan və Gürcüstan üzərindən Avropa və Türkiyə bazarlarına çıxış imkanlarını genişləndirməsi Ermənistanla iqtisadi əməkdaşlığı ikinci plana keçirir. Qazaxıstan, həmçinin, Orta Dəhliz, Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu (TBNM) və Bakı-Tbilisi-Qars kimi layihələrdə aktiv iştirak edir (Cornell, 2017). Bu layihələrdə Ermənistanın yer almaması, onun regional nəqliyyat və ticarət bağlantılarından təcrid olunmasına səbəb olur. Beləliklə, Aİİ daxilində formal əməkdaşlıq olsa da, real iqtisadi rəqabət və struktur fərqləri mövcuddur.

Siyasi mövqelər: Qazaxıstanın balanslı yanaşması. Qazaxıstan Ermənistanla eyni təşkilatlarda – Aİİ və KTMT kimi qurumlarda təmsil olunsa da, Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən mövqe tutur. Xüsusilə 2020 və 2023-cü illərdə Qarabağda baş verən hadisələr zamanı Qazaxıstanın neytral və balanslı çıxışları (Ismailzade, 2021), Ermənistana hərbi dəstək verməkdən çəkinməsi Azərbaycanda müsbət qarşılanmışdır. Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev dəfələrlə Azərbaycanın strateji tərəfdaşlıq münasibətlərini vurğulamış və iqtisadi əməkdaşlığın genişləndirilməsinin vacibliyini bildirmişdir. Bu yanaşma Aİİ daxilində Qazaxıstan-Ermənistan münasibətlərinin formallıqdan ibarət olduğunu, Qazaxıstanın isə daha çox real əməkdaşlıq üçün Azərbaycanla əlaqələrə üstünlük verdiyini göstərir. Bu, həm də Qazaxıstanın regional balans yaratmaq siyasətinin təzahürüdür. Qazaxıstan-Ermənistan münasibətləri Avrasiya İqtisadi İttifaqı çərçivəsində mövcud olsa da, real əməkdaşlıq dərin deyil. Ermənistanın iqtisadi və geosiyasi təcrid olunmuş vəziyyəti bu əlaqələrin inkişafına mane olur. Qazaxıstanın isə Azərbaycan və digər türk dövlətləri ilə genişlənən strateji əməkdaşlığı, həm siyasi, həm də iqtisadi baxımdan bu münasibətləri kölgədə qoyur. Bu baxımdan, Qazaxıstanın Ermənistanla münasibətində tutduğu mövqe, Avrasiya İttifaqı çərçivəsində tərəflər arasında həm əməkdaşlıq, həm də rəqabət münasibətlərinin davam etməsinə şərait yaradır.

Ədəbiyyat

1. Eurasian Economic Commission. (2023). Eurasian Economic Union: Annual Report. Retrieved from http://www.eurasiancommission.org
2. Cornell, S.E. (2017). *Geopolitics and Strategic Alignments in the Caucasus and Central Asia*. Central Asia-Caucasus Institute.
3. Ismailzade, F. (2021). Kazakhstan's Balancing Policy in the South Caucasus. *Caucasus Analytical Digest,* (122), 3-6.

Elm və Təhsil Tədqiqatları **VIII Respublika Elmi Konfransı / 19 iyun 2025 / 61-64**
Research in Science and Education **VIII Republican Scientific Conference / 19 iyun 2025 / 61-64**
https://doi.org/10.36719/2789-6919/2025/VIII

Əvəz Səfərli
ARETN İqtisadiyyat İnstitutu
doktorant
https://orcid.org/0009-0000-4834-8039
safarli.ev3z@gmail.com

Rəqəmsal transformasiya ilə əmək bazarı arasında qarşılıqlı əlaqə

Açar sözlər: *rəqəmsal inkişaf, rəqəmsal transformasiya, əmək, əmək bazarı*

Keywords: *digital development, digital transformation, labor, labor market*

Rəqəmsal transformasiya həm iş yerlərinin dəyişdirilməsinə, həm də iş yerlərinin yaradılmasına təkan verən əmək bazarını yenidən formalaşdırır. Avtomatlaşdırma və süni intellekt inkişaf etdikcə, istehsal xətti işi və məlumatların daxil edilməsi kimi adi, əl işləri və təkrarlanan tapşırıqları əhatə edən rollar getdikcə daha çox risk altında olur. Bu işlərin Avtomatlaşdırılması çox vaxt asan olur və bu, ənənəvi sənayelərdə aşağı ixtisaslı işçi qüvvəsinə tələbatın əhəmiyyətli dərəcədə azalmasına gətirib çıxarır.

Əksinə, rəqəmsal transformasiya texnologiya mərkəzli peşələrdə böyüməyə təkan verir. Bütün sektorlardakı müəssisələr səmərəliliyi və rəqabət qabiliyyətini artırmaq üçün rəqəmsal alətləri qəbul etdikcə proqram təminatı tərtibatçılarına, kibertəhlükəsizlik mütəxəssislərinə və AI mütəxəssislərinə tələbat artır. Bundan əlavə, rəqəmsal iqtisadiyyatda tamamilə yeni iş kateqoriyaları yaranır (Leonardi, Neeley, 2022). Uber, Fiverr və Upwork kimi platformalar tərəfindən asanlaşdırılan konsert iqtisadiyyatı çevik, qısamüddətli iş imkanları yaratdı. Rəqəmsal marketinq və e-ticarət də SEO, məzmun yaratma və sosial media

strategiyasında bacarıq tələb edən sürətlə genişləndi. Rəqəmsal transformasiya müəyyən sektorları dəyişsə də, məşğulluq üçün yeni imkanlar açır. Bununla belə, bu dəyişiklik işçi qüvvəsinin inkişafının yenidən nəzərdən keçirilməsini tələb edir, işçiləri inkişaf edən iş mühitinə hazırlamaq üçün yenidən ixtisaslaşmaya və ömür boyu öyrənməyə güclü diqqət yetirilir. Rəqəmsal bacarıqlar arasındakı boşluğun aradan qaldırılması rəqəmsal dövrdə inklüziv iqtisadi inkişafın təmin edilməsi üçün əsas olacaqdır. Rəqəmsal transformasiya əmək bazarında bacarıq tələblərini əsaslı şəkildə dəyişdirir. Təşkilatlar rəqəmsal texnologiyaları öz əməliyyatlarına inteqrasiya etdikcə, həm texniki, həm də qeyri-texniki bacarıqlara ehtiyac nəzərəçarpacaq dərəcədə artır. Rəqəmsal savadlılıq rəqəmsal platformalardan, tətbiqlərdən və alətlərdən səmərəli istifadə etmək bacarığını əhatə edən əsas tələbə çevrilib. Bütün sektorlar üzrə işçilərin rabitə, məlumatların idarə edilməsi və ya xidmət göstərilməsi üçün rəqəmsal mühitlərdə naviqasiya etməsi gözlənilir.

Paralel olaraq, qabaqcıl İT bacarıqlarına tələbat sürətlə artır. Kodlaşdırma, məlumatların təhlili, kibertəhlükəsizlik və bulud hesablamaları kimi bacarıqlar indi çox tələb olunur, xüsusən sənayelər prosesləri avtomatlaşdırdıqca və ilk rəqəmsal modellərə keçdikcə. Bu bacarıqlar təkcə texnologiya şirkətlərində deyil, səhiyyə, maliyyə, təhsil və istehsalat kimi sektorlarda çox vacibdir. Sürətli texnoloji dəyişikliklər fonunda əhəmiyyəti artan digər bacarıqlar da eyni dərəcədə vacibdir. Uyğunlaşma, yaradıcılıq, tənqidi düşünmə və əməkdaşlıq, inkişaf edən iş mühitlərində naviqasiya üçün vacibdir (Ananthaswamy, 2023). İş rolları dəyişdikcə və ya yox olduqca işçilər çevik olmalı və davamlı öyrənməyə açıq olmalıdırlar.

Cavab olaraq, yenidən bacarıqların artırılması məşğulluğu qorumaq üçün kritik strategiyaya çevrildi. Hökumətlər, təhsil müəssisələri və müəssisələr işçilərin yeni vəzifələrə keçməsinə kömək etmək üçün təlim proqramlarına getdikcə daha çox

sərmayə qoyurlar. Ömür boyu təhsil artıq istəyə bağlı deyil, rəqəmsal dövrdə zərurətdir. Rəqəmsal transformasiya təkcə mövcud iş növlərini dəyişdirmir, həm də ixtisaslı işçi olmağın nə demək olduğunu yenidən müəyyənləşdirir. Rəqəmsal səriştəni insan mərkəzli qabiliyyətlərlə birləşdirə bilənlər gələcək əmək bazarında inkişaf etmək üçün ən yaxşı mövqedə olacaqlar.

Rəqəmsal transformasiya əmək bazarının strukturunu və dinamikasını, xüsusən də insanların necə, harada və nə vaxt işlədiyinə dair əhəmiyyətli dərəcədə yenidən formalaşdırıb. Ən diqqətəlayiq dəyişikliklərdən biri uzaqdan işləmə və hibrid modellərin sürətlə artmasıdır. Rabitə və əməkdaşlıq texnologiyalarında irəliləyişlər sayəsində bir çox təşkilatlar indi işçilərə faktiki olaraq hər yerdən işləməyə imkan verən çevik iş tənzimləmələri təklif edirlər. Bu dəyişiklik ənənəvi ofis normalarını yenidən müəyyənləşdirdi, bəziləri üçün məhsuldarlığı artırdı, eyni zamanda komandaların idarə edilməsində və şirkət mədəniyyətinin qorunmasında yeni problemlər yaratdı.

Bununla yanaşı, platforma iqtisadiyyatları kəskin şəkildə genişləndi. Uber, Fiverr və TaskRabbit kimi platformalar çevik, sərbəst iş üçün imkanlar təqdim edir. Bu modellər muxtariyyət və müxtəlif gəlir axınları təklif edir, lakin çox vaxt iş təhlükəsizliyi, səhiyyə və digər məşğulluq müavinətləri bahasına başa gəlir. Daha çox işçi tam zamanlı və ya əlavə gəlir üçün bu platformalara müraciət etdikcə, əmək hüquqları, ədalətli əmək haqqı üçün müavinətlər ətrafında mübahisələr gücləndi. Rəqəmsal vasitələrin gündəlik iş rejimlərinə inteqrasiyası peşəkar və şəxsi həyat arasındakı sərhədləri dəyişdirdi (Stark, 2020). Smartfonlar, e-poçtlar və mesajlaşma proqramları vasitəsilə daimi əlaqə ilə bir çox işçi çətinlik çəkir və bu, tükənmişlik və iş-həyat balansı ilə bağlı narahatlıqlara səbəb olur. Rəqəmsal transformasiya daha çevik, eyni zamanda daha parçalanmış əmək bazarını idarə edir. Bu, daha çox muxtariyyət və imkanlar gətirsə də, rəqəmsal dövrdə iş keyfiyyəti, bərabərlik

və iş-həyat balansının inkişaf edən tərifi ətrafında mürəkkəb suallar doğurur.

Ədəbiyyat

1. Ananthaswamy, A. (2023). *Why Machines Learn: The Search for Artificial Intelligence*. "Dutton".
2. Leonardi P., Neeley T. (2022). *The Digital Mindset: What It Really Takes to Thrive in the Age of Data, Algorithms, and AI*. Harvard Business Review Press.
3. Stark, J. (2020). *Digital Transformation of Industry: Continuing Change*. "Springer".

Elm və Təhsil Tədqiqatları **VIII Respublika Elmi Konfransı / 19 iyun 2025 / 65-69**
Research in Science and Education **VIII Republican Scientific Conference / 19 iyun 2025 / 65-69**
https://doi.org/10.36719/2789-6919/2025/VIII

Aysel İbrahimova
Azərbaycan Dövlət Pedaqoji Universiteti
https://orcid.org/0009-0009-7321-7159
aysel-ibrahimova2015@mail.ru

İnteraktiv tədris zamanı müəllimin rolu

Açar sözlər: *müəllim, kommunikativ tədris, tələbə, cavab, təcrübə, şəxsiyyət*

Keywords*: teacher, communicative teaching, student, answer, practice, personality*

Dilin tədrisinin əsas vəzifələrindən biri tədris edilən xarici dildə nitq vərdişlərinin formalaşdırılmasıdır. Tədqiqatçılar belə bir qənaətə gəliblər ki, yeganə bir metod yoxdur ki, müxtəlif kontekstlərdə eyni dərəcədə müvəffəq nəticələr verə bilsin. Belə bir şəraitdə müəllim hansı metoddan istifadə olunmasının məsuliyyətini daşıyır. Xarici dil mühiti olmadığı halda müəllim həmin dildə verbal davranışın nümunəsi olmalıdır, çünki dil müəllimi həm dil daşıyıcıları, həm də daşıyıcıları olmayan, lakin həmin dildən ünsiyyət yaratmaq məqsədi ilə istifadə edən şəxslərə kommunikativ əlaqələri yaratmaq bacarığına malik olmalıdır (Bell, Bell, 1977; Brumfit, 1984). Dili tədris edərkən müəllim ayrı-ayrı aspektləri bir-birindən təcrid edilmiş şəkildə deyil, onları interaktiv, yəni əlaqəli şəkildə öyrətməlidir (Halliday, 1985; Chomsky, 1966). Xarici dil dərslərində interaktivlik təkcə tələbə-müəllim, müəlli-tələbə arasında münasibətlərin qurulmasını nəzərdə tutmur, eyni zamanda aspektlərin bir-biri ilə əlaqəli şəkildə öyrənilməsini əsas götürür. Təlim prosesində istifadə olunan materiallar maraqlı olmalıdır ki, tələbələrdə bu dili öyrənməyə qarşı motivasiyanı təmin etsin. Bütün bunlar müəllim qarşısında müəyyən öhdəliklər qoyur,

müəllimə, onun nitqinə qarşı müəyyən tələblər var, çünki müəllim həm bilik, həm davranış, həm ümumi dünyagörüşü ilə bir nümunə, model olmalıdır.

Əlbəttə, dərsin keyfiyyətli olmasında, tələbələr və yaxud şagirdlər tərəfindən mükəmməl qavranılmasında, bəzi faktorlarla bərabər müəllimin də olduqca böyük rolu var. Öz müşahidələrimizə və dünya şöhrətli alimlərin tədqiqatına istinad edərək müəllimin tədris prosesində rolunun danılmaz olduğunu qətiyyətlə qeyd edirik. Bəs müəllim necə olmalıdır? C.Harmer "İngilis dilini necə tədris etməli (How to Teach English)" adlı kitabında qeyd edir ki, bu suala cavab almaq üçün Birləşmiş Krallığın, İspaniyanın, Finlandiyanın məktəblərində dərs deyən bir sıra müəllimlər sorğu-sual edilmiş və əldə olan nəticələr kitabda dərc olunmuşdur (Harmer, 1998). Bundan əlavə müəllimləri təkmilləşdirmə müəssisələrində çalışan məşqçilər (teacher trainers) və metodistlər də bu sorğuya cəlb olunmuşdular. Kitab müəllifinin göstərdiyi kimi Britaniyanın özəl məktəblərində təhsil alan müxtəlif millətlərin nümayəndələri və Kembric orta məktəbində oxuyan ayrı-ayrı sinif şagirdləri də bu sorğuya qatılmışdılar. Yeri gəlmişkən onların verdiyi cavablar çox maraqlı və məntiqli olmaqla bərabər mükəmməl (perfect) müəllim obrazı yaratmağa xidmət etməyə yönəlmişdir, desək, yanılmarıq. Gəlin, müəyyən cavablara nəzər salaraq onları təhlil edək, yəni bugünki, Azərbaycan reallığı ilə tutuşduraraq fikrimizi bildirək. İngiltərənin özəl məktəblərinin birində yuxarı sinfində oxuyan şagird yazmışdı ki, *müəllimlər dərslərini elə maraqlı etməlidirlər ki, sən dərsdə yuxulamayasan.* Doğrudan da, bakalavr pilləsində təhsil alarkən pedaqoji təcrübə keçdiyimiz məktəblərdə, yaxud magistraturanın II kursunda universitetdəki təcrübə zamanı monoton, cansıxıcı dərslərdə oturduqda az qala bizi yuxu tuturdu. Çox təssüf ki, bu reallıqdır.

Başqa bir şagirdin fikirləri (o da yuxarı sinifdə oxuyur)*: "Müəllim öz işini sevməlidir. Əgər müəllim həqiqətən öz işini ürəkdən sevirsə, ondan ləzzət alırsa, bu onun dərslərinin maraqlı keçməsini təmin edəcəkdir."* Təcrübə zamanı biz bu fikrin də düzgün olduğunu müşahidə etdik. Fənnini, şagird və tələbələrini sevən müəllim dərsə elə aludə olurdu ki, hətta zəngin vurulmasını da, sanki, hiss etmirdi və onun bu aludəliyi tələbələrə də sirayət eləyir və onları dərsdə fəal olmağa ruhlandırırdı. Hər dəqiqə dərsin qurtarmasını gözləyərək tez-tez mobil telefonunda saata baxan *"cansız"* müəllimlərdən fərqli olaraq öz fənninin fanatı olan, enerjili, fəal müəllimlərin dərsində hətta *"şah tənbəli"* olan şagirdlər belə nəsə etməyə can atır, fəallıq biruzə verirlər. Bu cür müəllimlərin sinifdənkənar hər hansı bir ciddi problemi olsa belə, onlar bunu heç vaxt nümayiş etdirmir, sinfə daxil olarkən üzlərindəki təbəssüm bütün problemlərin sinif otağından kənarda qaldığını sübut edir. Başqa bir şagirdin fikirləri də çox maraqlıdır. O, qeyd edir ki, şəxsiyyətli müəllimləri sevir və dərs zamanı müəllimin nə dərəcədə *"Şəxsiyyət"* olması hiss olunur və eyni zamanda müəllim özü də bunu gizlətmir, yəni müəllim, təkcə müəllim deyil, eyni zamanda "Şəxsiyyət" olmalıdır. Bu danılmaz bir həqiqətdir ki, şagird və tələbələr müəllimin yalnız dərs deməsi ilə deyil, ümumiyyətlə həyat tərzi ilə maraqlanır və həmin müəllimin xoşagəlməz bir hərəkəti onu tələbənin gözündən salır, lakin özünü *"Şəxsiyyət"* hesab edərkən hər yerdə layiqli aparan müəllimə həmişə hörmət var. Müəllim çox böyük bir addır, bu adı daşımaq, daha doğrusu bu ada layiq olmaq heç də asan deyil. Ulu öndər Heydər Əliyev müəllimləri çox qiymətləndirərək demişdi: *"Mən yer üzündə müəllimdən yüksək ad tanımıram". "Müəllim işi həm şərəfli, həm də çətin işdir. Ali məktəb müəllimi olmaq, müəllimlər hazırlamaq, yəni müəllimlər müəllimi olmaq, ikiqat şərəfli və eyni zamanda ikiqat məsuliyyətli işdir".*

Doğrudan da, dərindən düşünəndə görürsən ki, hər bir sənəti, işi öyrədən müəllimdir, yəni elə bir insan yoxdur ki, "müəllim əlindən keçməsin" və "şəxsiyyətli" müəllimlərin verdiyi dərslərin nəticələri qat-qat yüksək olur. Bəzi şagirdlər müəllim haqqında fikir söyləyərkən belə deyirdilər ki, onlar təkcə öz fənnini bilən müəllimi yox, ümumi dünyagörüşü geniş olan müəllimi sevirlər.

Ümumiyyətlə, tələbələrin fikrinə görə yaxşı müəllim odur ki, onunla problemlərini bölə biləsən, o sənə məsləhət versin, düzgün yola yönəltsin. Onların fikrincə, uğurlu müəllimlər tələbələrin çətin vəziyyətində öz yaxını, qohumu kimi onu anlamalı, başa düşməli və qayğı göstərməlidir. Tələbələrin bir qismi qeyd edir ki, müəllimlər sakit, özünü hər dəqiqə "diqqət mərkəzinə çevirməyən" tələbəyə xüsusi yanaşmalıdır. Onlar qeyd edirlər ki, yaxşı müəllim dərsə cavab vermək üçün əlini qaldırmayan uşaqlardan soruşmalıdır, çünki, onlar bəzən çox utancaq, təvazökar olduqları üçün bildiklərini deməkdən də çəkinirlər. Daha sonra, tələbələrin bəzilərinin fikrinə görə, yaxşı müəllim tələbələrin səhvlərini elə düzəltməlidir ki, tələbələr özlərini təhqir olunmuş kimi hiss etməsinlər, yəni səhvlər kobud şəkildə düzəldilməməlidir, müəllim hər bir tələbəyə fərdi yanaşmalıdır. Son vaxtlar kommunikativ tədris metoduna uyğun olaraq səhvləri qabartmadan düzəltmək daha məqsədəuyğundur. Məsələn, əgər tələbə sifətin dərəcələrini düzgün işlətmirsə, müəllim şəkillər vasitəsilə müəyyən əşyaları nümayiş etdirir, onların bir-birinə nisbətdə necə fərqləndiyini göstərərək bu bəhsi bir də izah edir. Tələbə onun suallarına cavab verir. Müəllim ondan ailə üzvlərinin yaşını soruşur, onların bir-birinə nisbətən yaşlı, cavan olmasını soruşur və dərs daha da möhkəmlənir. Əlbəttə, müəllim peşəsini seçən adam təmkinli, səbrli olmalı, tədris etdiyi fənni və tələbələri çox sevməli, yəni

işlədiyi tədris ocağını öz doğma evi, dərs dediyi şəxsləri isə öz doğmaları, övladları hesab etməlidir.

Ədəbiyyat

1. Bell, D.N., Bell, B.N. (1977). *Reading for profit and pleasure*.
2. Brumfit, C.J. (1984). *Communicative Methodology in Language Teaching*. The Roles of Fluency and Accuracy, Cambridge University Press.
3. Chomsky, N. (1966). *Linguistic Theory*. In Mead.
4. Halliday. (1985). *M.A.K. An Introduction to Functional Grammar*.
5. Harmer, J. (1998). *How to teach English*. Edinburgh late, Harlow, Essex. Addison Wesley Longman Limited.

Elm və Təhsil Tədqiqatları **VIII Respublika Elmi Konfransı / 19 iyun 2025 / 70-73**
Research in Science and Education **VIII Republican Scientific Conference / 19 iyun 2025 / 70-73**
https://doi.org/10.36719/2789-6919/2025/VIII

Mədinə Allahverdiyeva
Naxçıvan Dövlət Universiteti
https://orcid.org/0009-0007-6566-5723
mdinallahverdiyeva@ndu.edu.az

Naxçıvan Muxtar Respublikası və iqtisadi inkişaf

Açar sözlər: *ÜDM, iqtisadi inkişaf, qloballaşma, sahibkar, biznes, investisiya*

Keywords: *GDP, economic development, globalization, entrepreneur, business, investment*

İqtisadi tərəqqi dövlətin iqtisadi, siyasi və sosial dayanıqlığının artırılması məsələsidir. Respublikanın iqtisadi tərəqqisi cəmiyyət üzvlərinin həyat göstəricilərinin, iqtisadiyyatın rəqabət keyfiyyətlərinin, dövlətin ÜDM-nin, adambaşına aid olan milli gəlirin və iqtisadi sərbəstliyin pozitiv fərqlilikləri ilə müəyyən olunan məsələdir. İqtisadi tərəqqinin zəruri davamlılığı insan potensialı və onun gətirmiş olduğu müasirlikdir. İnsan potensialı cəmiyyət üzvlərinin təhsilinə, yaşayışına, biliyinə, əmək mühitinə və həyat keyfiyyətinin daha da səmərəliləşdirilməsinə sərf olunan məsrəfləri diqqətdə saxlamış olur.

Ölkənin hər nəfərə düşən gəliri bir birini əvəz edən illər üzrə cəmiyyət üçün özünü göstərmiş olan əmtəə və xidmətlərin dəyərinin olduqca faydalı var olma meyarıdır. İstər adambaşına olan gəlir göstəricisinin, istərsə də onun yüksəliş dinamikasının müəyyən olunması ilə əlaqəli bir sıra maneələr olsa da, bu 2 meyar ölkə hüdudlarında iqtisadi firəvanlıq göstəricilərinin və onun iqtisadi inkişafının dəyərləndirilmiş olmasına təminat yaratmaq məqsədilə olduqca faydalı variantdır.

İqtisadi tərəqqi, ardıcıl iqtisadi inkişafa zəmin ola biləcək perspektivlərə özəl bölmə yatırımlarının yönlərinə təsir göstər-

mək məqsədilə şəhər və ya dövlətlərdə məsul idarəetmə strukturunun müştərək səyidir. Ardıcıl iqtisadi inkişaf regional işçi qüvvəsi məqsədilə yetərli qədər mənfəət, işəgötürənlər üçün faydalı biznes perspektivləri və belə ardıcıl inkişafı müdafiə etmək məqsədilə təsisatların qorunması məqsədilə vergi gəlirləri təmin edə bilər. İqtisadi tərəqqinin hərəkətverici qüvvəsi olaraq özəl bölmə kapitalına alternativ olmur, ancaq cəmiyyətin olduqca çox tələbat hiss etmiş olduğu yatırımları motivasiya etmək məqsədilə müdafiə edə biləcəyiniz bir sıra ideyalar var.

İndiki mərhələdə cəmiyyətin və iqtisadiyyatın etibarlı tərəqqinin yeni sahələri fərqli sferalarda özünü göstərməkdədir. Artıq dünya dövlətləri qəbul edir ki, vəhdətdən, xüsusilə də, iqtisadi vəhdətdən uzaqda mövcud olmaq və müvəffəqiyyətlə perspektivli olmaq mümkün olmur. Dövlətlərin iqtisadi münasibətlərinin yüksəlmiş olması, nəticədə, böyük iqtisadi inkişaf, modern avadanlıqların və idarəetmə mexanizmlərinin icra olunmasının çevikliyinə zəmin olur.

Bölgələrdə idarəetmə mexanizmlərinin modernləşdirilməsi, ədalətin yüksəldilmiş olması, korrupsiya göstəricilərinə qarşı mübarizə regionların iqtisadiyyatına öz təsirini etmiş olur. Son zamanlar üzrə ölkənin milli iqtisadiyyatında pozitiv artım göstəricilərini görə bilirik. Artıq dövlətimizdə neft-qaz və əlaqələndirmə projeləri müvəffəqiyyətlə başa çatdırılır. Məhz bu vəziyyətdə, investisiya layihələri istiqamətində modern baxışlar özünü göstərmiş olur. Daha doğrusu, ölkə maraqlıdır ki, qeyri-neft bölməsi perspektivli olsun.

İndiki mərhələdə qlobal səviyyədə özünü göstərmiş olan iqtisadi ziddiyyətlər bir sıra dövlətlərin böhran olaraq xarakterizə edən qarışıq mühitlə, tənəzzül və ciddi finansal sıxıntıları ilə üz-üzə olmasına zəmin olub. Fərqli istiqamətlərin strateji tərəqqi məqsədlərinə və konseptual inkişaf konsepsiyalarına sahib olan ölkələr isə yeni iqtisadi zəminlər qərarlaşdıra,

tərəqqi üçün səmərəli zəmin açа biliblər. Belə bir vəziyyətdə, ölkənin təcrübəsi də təkmil forma olaraq xarakterizə oluna bilər.

İndiki mərhələdə dövlətimizdə eyni zamanda da xarici ticarət dövriyyəsi şaxələnir, ixrac göstəriciləri yüksəlir, ölkəyə xarici yatırımlar cəlb olunur. Bəhs olunan bu nailiyyətləri əldə etmək məqsədilə isə ardıcıl olaraq böyük projelər icra olunur.

Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da iqtisadiyyatın tərəqqisi olduqca şaxəli vüsət alıb. Təbii olaraq, son dövrlər ərzində muxtar respublikanın iqtisadi inkişafının davamlı tərəqqisinin təmin olunması üçün reallaşmış olan tədbirlər pozitiv yekunlara səbəb olub.

Təhlillər göstərir ki, 2024-cü ildə Naxçıvan Muxtar Respublikasında ÜDM 2023-cü ilə görə 3,1% çoxalmışdır. Muxtar respublikanın məsrəflərinin qarşılanmış olmasında yerli mənfəətin xüsusi həcmi 2022-ci ildə 31%, 2023-cü ildə 39%, 2024-cü ildə isə 58% olmuşdur.

Bildirmək olar ki, Naxçıvan, Şərur, Babək və Ordubad şəhərlərində sahibkarlıq subyektləri vasitəsilə vergi bölməsində könüllü əməletmə göstəricilərinin yüksəldilmiş olması üçün vergi ödəyicilərinə xidmət obyektləri inşa olunmuşdur. Reallaşmış olan işlər sayəsində 2024-cü ildə sahibkarlıq subyektləri vasitəsilə vergi bölməsində könüllü reallaşma və könüllü bildirişlər isə 100 faizə yaxın olmuşdur. 2024-cü ildə muxtar respublikada vergi gəlirləri 2023-cü ilə görə 38% çoxalaraq 226,6 milyon manat olub. Belə bir vəziyyət, proqnoz meyarlara görə 31%-ə yaxın artıqdır. Sahibkarlıq bölməsində inzibati qaydaların sadələşdirilməsi, biznes təmsilçilərinin idarəetmə keyfiyyətlərinin yüksəldilmiş olması, güzəştli kreditlərin təklif olunması sahəsində işlər ardıcıl olmalıdır. 2024-cü il ərzində muxtar respublikada Sahibkarlığın İnkişafı Fondu üzrə problemli kreditlərin həcmi 3,1 dəfə aşağı enmişdir. Respublikamızın şəhər və rayonlarının ardıcıl və balanslı

tərəqqisinin təmin olunması üçün qəbul olunan sosial-iqtisadi tərəqqi dövlət proqramlarının müvəffəqiyyətli reallaşmış olması sayəsində şəhər, qəsəbə və kəndlərimizin mənzərəsi əsaslı qaydada dəyişmiş, bölgələrin iqtisadi gücü yüksəlmiş, infrastruktur təsisatları, insanlara təqdim olunan dövlət xidmətlərinin səmərəsi, biznes və yatırımlar üzrə şəraiti münbit etmiş, cəmiyyət üzvlərinin rifah göstəriciləri artmışdır. Sistemli olaraq reallaşmış olan düşünülmüş reformalar və əhatəli tədbirlər respublikamızın iqtisadi inkişafını daha da möhkəmləndirmiş və işıqlı iqtisadi zəfərin əldə olunmasına mütərəqqi zəmin açmışdır.

Elm və Təhsil Tədqiqatları **VIII Respublika Elmi Konfransı / 19 iyun 2025 / 74-77**
Research in Science and Education **VIII Republican Scientific Conference / 19 iyun 2025 / 74-77**
https://doi.org/10.36719/2789-6919/2025/VIII

Fatma Əliyeva
Azərbaycan Dövlət Pedaqoji Universiteti
https://orcid.org/0000-0002-6650-5330
fatma.aliyevaa@mail.ru

İnformasiya-kommunikasiya texnologiyalarından düzgün istifadə

Açar sözlər: *təhsil sistemi, texnologiya, informasiya, metod, dərs prosesi*
Keywords*: education system, technology, information, method, teaching process*

Müasir dövrdə elm və texnologiyaya əsaslanan milli iqtisadiyyatın və informasiya cəmiyyətinin yaradılması dünya ölkələrinin siyasətlərində əsas istiqamətindən birinə çevrilmişdir. Belə şəraitdə informasiya və kommunikasiya texnologiyalarının (İKT) inkişafı dövlətlərin siyasi, iqtisadi və sosial fəaliyyətlərinə təsir göstərərək iqtisadiyyatın və ictimai münasibətlərin qloballaşmasına şərait yaradır. Məlumatların toplanması, sistemləşdirilməsi, düzəldilməsi və ötürülməsi üçün tətbiq olunan informasiya-kommunikasiya texnologiyaları təhsil müəssisələrində istifadə olunan texnoloji vasitələrə verilən ümumi termindir. İKT bilikləri rəqəmsal texnologiyaya bağlanaraq onları idarə etmək, əlaqəyə girmək və məlumatlar yaradaraq bilik cəmiyyətini formalaşdırmaq funksiyasını yerinə yetirir. Şübhəsiz ki, cəmiyyət həyatında baş verən bu dəyişikliklər təhsil sistemindən də yan keçməmişdir. İnformasiya cəmiyyətinin tələblərinə uyğun təhsil sisteminin formalaşması, İKT yönümlü təhsil innovasiyalarından istifadə metodlarının və qabaqcıl təcrübələrin mənimsənilməsi dünya təhsil sisteminə inteqrasiya etmək üçün əsas istiqamətlərdir. Dünya iqtisadiyyatı daha çox elm və bilik yönümlü

iqtisadiyyatdır. Buna görə də texnologiya sahəsində müəyyən bilik, bacarıq və vərdişlərə malik olan, həmçinin beynəlxalq dillərdə səlis danışa bilən savadlı kadrların yetişdirilməsi təhsil sisteminin qarşısında duran əsas vəzifələrdir.

İKT ali təhsil müəssisələrində tədris üçün zəngin mühit və motivasiya təmin edir. Bunlar tələbə performansına və nailiyyətlərinə təsir göstərən amillərdir. Tələbələr üçün təhsildə İKT-nin faydaları aşağıdakı kimi ümumiləşdirilir: sürətli keçid; çeviklik; iş və təhsilin kombinasiyası; tələbəyönümlü yanaşma; yüksək keyfiyyətli təhsil və yeni qarşılıqlı əlaqə üsulları. İKT tətbiqləri təkmilləşdirilmiş xidmətlər təklif etməklə, daha çox səmərəliliyi təmin edir və öyrənmə təcrübələri toplamaq imkanı yaradır. Bütün bunlar şəbəkə avadanlıqları, virtual laboratoriyalar, məlumat bazasının yaradılması, tədqiqat qurumları və s. kimi modulyar proqramlar vasitəsilə həyata keçirilir. Dərs prosesində istifadə olunan adi köhnə təbaşirin Power Point təqdimatları və animasiyalar, modelləşdirmə və simulyasiyalar, video kliplər, LCD proyektorlar kimi innovativ üsullarla əvəz olunması öyrətmə və öyrənmə metodlarını təkmilləşdirməkdə davam edir. İKT-nin ali təhsilə inteqrasiyası elmi-tədqiqat işlərinin keyfiyyətini və müxtəlif sahələrdə tədqiqat işlərinə cəlb olunan şəxslərin sayını artırır. İKT bütün mövzularda dünya üzrə əlaqələri asanlaşdırır və vahid əlaqələndirmə mərkəzinə çevrilir. Bu da tədqiqat işlərində vaxt, pul və səylərə qənaət edir. Hal-hazırda əsas təhsilalma formalarından olan distant təhsilin səmərəli təşkili informasiya texnologiyalarından məqsədyönlü və sistemli surətdə istifadə etməyə imkan verir. Bu təhsil formasının faydalı tərəflərindən biri də daha az xərc çəkməklə təhsil almağa şərait yaratmasıdır. Maddi imkanı aşağı olanlar və ali məktəblərin yerləşdiyi şəhərlərdə yaşayış yeri olmayanlar bu cür təhsil formasından yararlanaraq belə problemlərlə üzləşmirlər. Həmçinin, fiziki qüsurlarına, müəyyən komplekslərinə görə təhsildən uzaq düşənlər üçün bu təhsilalma forması çox

əhəmiyyətlidir. Bundan başqa, distant təhsil işləyən və vaxtının çoxunu uşaqlarla və ya ailəsi ilə keçirən insanlara yeni bilik və bacarıqlar qazanmaq üçün də uyğun vasitədir. Dərslərdə verilən tapşırıqların yerinə yetirilməsi ilə yanaşı onların qiymətləndirilməsi də önəmlidir. Bu zaman əvvəlcədən vaxt müəyyən edilir və "Skype", "Zoom", "Microsoft Teams" və başqa proqramlarla keçirilən mövzulara uyğun olaraq müəllimlər tələbələrdən imtahan götürür. İmtahan şifahi formada sual-cavab etməklə, ya da testlərin köməyi ilə (quiz və s.) tapşırıqlar şəklində təşkil oluna bilər. Sözügedən proqramlarla debat, müzakirə, "dəyirmi masa" və elmi seminarlar təşkil etmək olar. Konfranslar, seminarlar, müzakirələr və layihələrin təşkili zamanı qoşulmaq vaxt baxımından da əlverişlidir. Müəllim və tələbələr internet bağlantısının olduğu istənilən yerdə bu cür tədbirlərdə iştirak edirlər. Bundan başqa, dünyada tələbələrə distant təhsil təklif edən universitetlər mövcuddur. Bu universitetlər "virtual universitet", "açıq universitet" adlandırılır. Kanada Açıq Universiteti, Hollandiya Açıq Universiteti, Fern Universiteti (Almaniya) və Britaniya Açıq Universiteti belə universitetlərdəndir. Sadaladığımız bu ali təhsil müəssisələrinin təşkil etdiyi tədris proseslərindən yararlananların sayı getdikcə artır (Hüseynova, 2021, s.99; Haşımova, 2016; Abdullayev, Abbasova, 2014).

Qlobal informasiyaya əsaslanan iqtisadiyyatlara keçid böyük həcmdə informasiya ilə qarşılaşmaq, o cümlədən dillər və mədəniyyətlər arasında ünsiyyət qurmaq ehtiyacının kəskin artması demək idi. Bu işdə əzbərləmə effektiv axtarış strategiyalarından daha az əhəmiyyət kəsb edir. Zaman keçdikcə müəllimlərin dərsdə rolu da dəyişir. Əvvəllər müəllimlər yeganə dil öyrənmə mənbəyi idi. İndi isə müxtəlif proqramlar onları əvəz edərək, dünyanın hər yerindən olan insanlara dil bacarıqlarına yiyələnməyə kömək edir. İnsanlar dilin passiv qəbulediciləri olmaqdan daha çox araşdırma apararaq və

yaradıcılıq qabiliyyətini gücləndirərək prosesin fəal iştirakçılarına çevrilirlər. Kompüterdən istifadə və inteqrasiyada müəllimlərin texnologiyaya münasibəti və tətbiq bacarıqları vacib məsələdir. Müəllimlər dərslərdə texnoloji yeniliklərdən yararlanmaq üçün onların dərslərdə istifadəsinə müsbət münasibət bəsləməlidirlər. Bu yolda bilik, bacarıq və vərdişlər formalaşdırmaq əsas məqamlardan biridir. Vaxta qənaət etmək üçün aparat və proqram təminatından uğurla istifadə etmək, həmçinin dərsi onlara görə planlaşdırmaq texniki təcrübə tələb edir.

İKT yönümlü ingilis dili tədrisinin bir sıra müsbət xüsusiyyətləri vardır. Belə ki, İKT: tələbələri ana dili ingilis dili olan şəxslərin hazırladığı materiallarla təmin edir; müxtəlif dil öyrənmə metodları təklif edir; tələbələrin ehtiyaclarını qiymətləndirir; tələbələrin nə etdikləri ilə bağlı dəyərləndirmə aparır; istənilən vaxt istifadəyə uyğundur və əlavə xərc tələb etmir.

Ədəbiyyat

1. Abdullayev, S., Abbasova, S. (2014). Təhsil prosesində İKT-nin tətbiqinə və keyfiyyətinə sistemli yanaşma prinsipləri haqqında. *Elektron dövlət quruculuğu problemləri. I Respublika elmi-praktiki konfransı*, 4 dekabr.
2. Hüseynova, A. (2021). Azərbaycanda distant təhsil: problemlər və perspektivlər. *Azərbaycan məktəbi*, №4, səh. 98-104.
3. Haşımova, K. (2016). Multimedia Qalereyası elektron kitabxanaların tərkib hissəsi kimi. *"E-kitabxanaların formalaşması problemləri" Respublika elmi-praktiki konfransı*, 15 aprel, s.147-148.

Elm və Təhsil Tədqiqatları **VIII Respublika Elmi Konfransı / 19 iyun 2025 / 78-82**
Research in Science and Education **VIII Republican Scientific Conference / 19 iyun 2025 / 78-82**
https://doi.org/10.36719/2789-6919/2025/VIII

Nuray Məmmədli
Naxçıvan Dövlət Universiteti
https://orcid.org/0009-0002-2026-4241
nuray.memmedli31@gmail.com

Orta tunc dövründə Naxçıvanda şəhər tipli yaşayış yerlərinin formalaşması və arxeoloji xüsusiyyətləri

Açar sözlər*: Naxçıvan, Orta Tunc dövrü, şəhər tipli yaşayış yeri*

Keywords: *Nakhchivan, Middle Bronze Age, urban settlement*

Orta Tunc dövrü (e.ə. təxminən 2300-1600-cü illər) Qafqazın və Yaxın Şərqin arxeoloji tarixində mühüm mərhələ hesab olunur. Bu dövr təkcə metal emalının inkişafı və istehsalatın genişlənməsi ilə deyil, eyni zamanda sosial münasibətlərin mürəkkəbləşməsi, ictimai təbəqələşmənin yaranması və şəhərsayağı yaşayış məkanlarının formalaşması ilə xarakterizə olunur. Azərbaycanın qədim və zəngin tarixə malik bölgələrindən biri olan Naxçıvan da bu dövrdə mühüm mədəni inkişaf mərhələsindən keçmişdir. Naxçıvanın coğrafi mövqeyi – mühüm ticarət yolları üzərində yerləşməsi, təbii resurslarla, xüsusilə də duz və metal filizləri ilə zəngin olması – bu ərazidə erkən şəhər tipli yaşayış yerlərinin meydana gəlməsini stimullaşdırmışdır. Arxeoloji qazıntılar nəticəsində Oğlanqala, Kültəpə II, Duzdağ və digər yaşayış məskənlərində aşkarlanan tikinti qalıqları, saxsı və metal məmulatlar, müdafiə qurğuları göstərir ki, Orta Tunc dövründə Naxçıvanda artıq kompleks sosial-iqtisadi strukturlar formalaşmağa başlamışdır. Bu tədqiqatın məqsədi Orta Tunc dövründə Naxçıvanda yaranmış şəhər

tipli yaşayış yerlərinin memarlıq xüsusiyyətlərini, iqtisadi əsaslarını və sosial strukturunu arxeoloji materiallar əsasında araşdırmaqdır. Bu yanaşma həm Azərbaycanın qədim urbanizasiya tarixinə işıq salır, həm də Naxçıvanın regionda oynadığı rolu daha dərindən anlamağa imkan verir.

Orta Tunc dövrü şəhər tipli yaşayış yerləri kompleks tikinti strukturları ilə fərqlənir. Naxçıvanda bu dövrə aid arxeoloji abidələrdə müdafiə xarakterli qala divarları, bürclər, qala içi planlaşdırılmış evlər və ictimai tikililər aşkar olunmuşdur (Məmmədov, 2007, s.87). Oğlanqala və Şahtaxtı qalalarında iri ölçülü daşlardan hörülmüş qala divarları və bürclər şəhərsalma texnikasının inkişaf etdiyini göstərir. Kültəpə II yaşayış yerində isə tikililərin planlı şəkildə düzülməsi, saxsı istehsalı üçün xüsusi sahələrin olması şəhərsayağı məskunlaşmanı sübut edir.

Naxçıvanda şəhər tipli yaşayış yerlərinin inkişafının mühüm amillərindən biri güclü iqtisadi bazanın mövcudluğu idi. Ən mühüm nümunə Duzdağ istehsalat sahəsidir. Burada duz çıxarılması və emalı bu dövrdə artıq sistemli və genişmiqyaslı şəkildə həyata keçirilirdi (Museyibli, 2012, s.29). Duzun həm daxili istehlak, həm də ticarət üçün istifadə olunması Naxçıvanı regionda iqtisadi mərkəzə çevirmişdi. Əlavə olaraq, əkinçilik və maldarlıq əsas iqtisadi fəaliyyət sahələri olmuşdur. Tapılmış oraq bıçaqları, taxıl anbarları və sümükdən hazırlanmış alətlər bu fəaliyyətləri təsdiqləyir (Əliyev, 1985, s.50). Həmçinin, tuncun emalı və silah, alət, bəzək əşyalarının hazırlanması yüksək inkişaf etmiş sənətkarlıq ənənələrinin mövcudluğuna dəlalət edir.

Orta Tunc dövründə sosial struktur artıq sadə qəbilə icmalarından daha mürəkkəb formaya keçmişdir. Qala tipli yaşayış yerlərinin meydana gəlməsi bu məkanların artıq təkcə yaşayış sahəsi deyil, həm də inzibati və hərbi idarəetmə mərkəzləri olduğunu göstərir. Arxeoloji tapıntılar – fərqli

zənginliyə malik qəbirlər, təbəqələnmiş yaşayış qatları və xüsusi tikililər – cəmiyyət daxilində sosial təbəqələşmənin baş verdiyini sübut edir (Əliyev, 1985, s.55). Eyni zamanda, dini ayinlərə dair izlər – məsələn, qurban yerləri və ritual qablar – ictimai həyatın dini komponentinin güclü olduğunu göstərir (Məmmədov, 2007, s.96).

Naxçıvanın yerləşdiyi bölgə ticarət yolları baxımından əlverişli idi. Arxeoloji dəlillərə əsasən, şəhər tipli yaşayış məskənləri digər regionlarla – xüsusilə də Urmiya hövzəsi, Şərqi Anadolu və Cənubi Qafqaz əraziləri ilə ticarət və mədəni əlaqədə olmuşdur. Burada tapılan bəzi saxsı nümunələrin və metallurgiya məhsullarının mənşə etibarı ilə kənar bölgələrlə əlaqəli olması bu ünsiyyətin sübutudur.

Yaşayış yerlərinin nümunəvi təhlili. Oğlanqala (Şərur rayonu). Orta Tunc dövrünün ən mühüm yaşayış yerlərindən biri olan Oğlanqala arxeoloji kompleksində çoxsaylı müdafiə strukturları, bürclər və tikili izləri aşkar edilmişdir. Buradan tapılmış tunc əşyalar, keramika nümunələri və tikinti texnikası şəhərsayağı yaşayış modelinin mövcudluğunu təsdiqləyir (Əliyev, 1985, s.59).

Kültəpə II (Babək rayonu). Kültəpə II uzunmüddətli yaşayış yeri olmaqla yanaşı, Orta Tunc dövrünün iqtisadi və mədəni inkişaf səviyyəsini nümayiş etdirir. Burada tapılan keramika, metal əşyalar və təsərrüfat alətləri, eyni zamanda planlı yaşayış sahələri şəhərsayağı inkişafın bariz nümunəsidir (Məmmədov, 2007, s.102).

Duzdağ (Naxçıvan şəhəri yaxınlığı). İstehsalat və yaşayış funksiyalarını birləşdirən Duzdağ kompleksi duz sənayesinin erkən mərhələdə formalaşdığını göstərir (Museyili, 2012, s.33). Burada yerləşən istehsalat sahələri və işçi qəsəbəsi şəhər tipli yaşayış formasının sosial-iqtisadi əsaslarını ortaya qoyur.

Şahtaxtı qalası (Sədərək rayonu). Yüksək ərazidə yerləşən Şahtaxtı qalası strateji və inzibati əhəmiyyət daşıyıb. Burada aşkar edilən tikinti izləri, silahlar və keramika məmulatları şəhər tipli müdafiə və idarəetmə mərkəzinin varlığından xəbər verir (Arxeoloji tədqiqatlar hesabatı, 2020, s.48).

Orta Tunc dövründə Naxçıvanda şəhər tipli yaşayış yerlərinin formalaşması bölgənin iqtisadi, sosial və siyasi inkişafı ilə sıx əlaqədardır. Bu yaşayış yerləri sadəcə insanların yaşadığı məkanlar deyil, həm də ticarət, sənətkarlıq, müdafiə və inzibati funksiyaları özündə birləşdirən kompleks strukturlar idi. Naxçıvanda bu dövrə aid tapıntılar göstərir ki, bölgə təkcə Cənubi Qafqazın deyil, bütövlükdə Yaxın Şərq sivilizasiyasının inkişafında mühüm rol oynamışdır. Bu səbəbdən Naxçıvandakı şəhər tipli yaşayış yerlərinin tədqiqi qədim Azərbaycan tarixinin və arxeologiyasının öyrənilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Tapılmış maddi mədəniyyət nümunələri — keramika, tunc alətlər, əmək vasitələri və silahlar — bu yaşayış məkanlarının inkişaf etmiş sənətkarlıq ənənələrinə və yüksək iqtisadi potensiala sahib olduğunu göstərir. Xüsusilə Duzdağda duz hasilatı və onun emalı bu dövrdə artıq miqyaslı istehsalatın mövcudluğundan xəbər verir. Bu, Naxçıvanın regional ticarət əlaqələrində də fəal rol oynadığını sübut edir. Sosial baxımdan da bu yaşayış yerləri sadə strukturlardan fərqlənərək ictimai və dini funksiyaları özündə birləşdirən mərkəzlərə çevrilmişdir. Qəbirlərin təbəqələnməsi, ritual əşyaların tapılması və inzibati xarakterli tikililər bu cəmiyyətlərdə sosial təbəqələşmənin və təşkilatlanmanın olduğunu göstərir. Bütün bu amillər bir daha təsdiq edir ki, Orta Tunc dövründə Naxçıvan təkcə Azərbaycanın deyil, bütövlükdə Cənubi Qafqazın erkən şəhər mədəniyyətinin formalaşmasında mühüm rol oynamışdır. Naxçıvan ərazisindəki şəhər tipli yaşayış yerlərinin tədqiqi bu dövrə dair yeni elmi baxışların formalaşmasına imkan yaradır və

bölgənin qədim tarixinin öyrənilməsində əsaslı mənbələrdən biri kimi çıxış edir.

Ədəbiyyat

1. *Arxeoloji tədqiqatlar hesabatı*. (2020). Azərbaycan Milli Elmlər Akademiyası, Arxeologiya və Etnoqrafiya İnstitutu.
2. Əliyev, İ.Ə. (1985). *Naxçıvanın qədim tarixi və arxeologiyası*. Elm.
3. Məmmədov, F.Q. (2007). *Azərbaycanın Orta Tunc dövrü mədəniyyəti*. Şərq-Qərb.
4. Museyibli, N. (2012). *Duzdağ və Naxçıvanın duz sənayesi*.

Elm və Təhsil Tədqiqatları VIII Respublika Elmi Konfransı / 19 iyun 2025 / 83-85
Research in Science and Education VIII Republican Scientific Conference / 19 iyun 2025 / 83-85
https://doi.org/10.36719/2789-6919/2025/VIII

Türkan Qurbanova
Azərbaycan Dövlət Pedaqoji Universiteti
https://orcid.org/0009-0009-2661-6667
turkan.qurbanova@adpu.edu.az

İnklüziv təhsil və qiymətləndirmə: ənənəvi yanaşmalardan alternativ modellərə doğru

***Açar sözlər**: alternativ qiymətləndirmə, təhsil bərabərliyi, qiymətləndirmə növləri, təhsil strategiyaları*
***Keywords**: alternative assessment, educational equity, assessment types, educational strategies*

Son illərdə Azərbaycan Respublikasında inklüziv təhsilin inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilmişdir. Müasir dövrdə təhsilin əsas məqsədi yalnız bilik vermək deyil, eyni zamanda, hər bir fərdin şəxsiyyət kimi formalaşmasını və cəmiyyətə inteqrasiyasını təmin etməkdir. Bu baxımdan, inklüziv təhsil bütün uşaqların – o cümlədən xüsusi təhsil ehtiyacları (XTE) olan şagirdlərin – bərabər və keyfiyyətli təhsilə çıxışını nəzərdə tutur. Lakin bu uşaqların uğurla təhsil alması üçün təkcə uyğunlaşdırılmış kurikulum deyil, həm də onların ehtiyaclarına uyğun qiymətləndirmə sisteminin qurulması zəruridir (Hacıyeva, 2021). Ənənəvi qiymətləndirmə üsulları çox vaxt XTE olan şagirdlərin real inkişaf səviyyəsini düzgün əks etdirmir. Bu səbəbdən, müəllimlərin fərdi yanaşmalar tətbiq etməsi və qiymətləndirməni şagirdin potensialına uyğun təşkil etməsi vacibdir (Təhsil İnstitutu, 2022). Müasir təhsil sistemləri hər bir şagirdin hüquq bərabərliyini və inkişafını təmin etməyə çalışır. Bu kontekstdə inklüziv təhsil anlayışı – xüsusi təhsil ehtiyacları olan uşaqların da ümumi təhsil sistemində tam iştirakını nəzərdə tutur (UNESCO, 1994). Qiymətləndirmə isə bu prosesin əsas komponentlərindən

biridir. İnklüziv təhsil yanaşması fərdiləşdirilmiş və çevik qiymətləndirmə mexanizmləri tələb edir. Ənənəvi test modelləri XTE-lı şagirdlərin real potensialını əks etdirməyə bilər. Fərdi inkişaf planları və alternativ qiymətləndirmə vasitələri bu cəhətdən çox böyük önəmə malikdir. Qiymətləndirmə təhsil prosesinin mühüm tərkib hissəsidir. O, yalnız şagirdin biliyini ölçmək deyil, həm də onun inkişafını izləmək, tədris prosesini tənzimləmək və müəllim-şagird-valideyn əməkdaşlığını gücləndirmək məqsədi daşıyır. İnklüziv təhsil kontekstində qiymətləndirmə daha da fərdiləşdirilmiş və dəstəkləyici şəkildə qurulmalıdır. Formativ qiymətləndirmə inklüziv mühitlərdə daha effektiv nəticə verir. Şagirdin davamlı müşahidəsi və inkişafına dair geribildirimləri özündə əks etdirir. Burada əsas məqsəd inkişafı təşviq etməkdir. Qiymətləndirmədə uğur əldə etmək üçün çoxşaxəli yanaşmalar tətbiq olunmalıdır. Portfoliolar, layihə işləri, müşahidələr, yaradıcı fəaliyyət nümunələri tətbiq edilməlidir. Şagirdin bacarıqları yalnız akademik biliklərlə deyil, sosial-emosional inkişafla da ölçülür. Müəllimin rolu sadəcə qiymətləndirici deyil, yönləndirici və dəstəkləyici olmalıdır. Müəllimlər inklüziv təlimdə çevik qiymətləndirmə vasitələrini bilməli və tətbiq etməlidirlər. Qiymətləndirmə vasitəsilə şagirdlərin özünəinamı və motivasiyası artırıla bilər. Burada uğurun tanınması, fərdi inkişafın dəyərləndirilməsi şagirdin təhsilə bağlılığını gücləndirir.

İnklüziv təhsildə qiymətləndirmə yalnız akademik nəticəni ölçmək üçün deyil, hər bir şagirdin inkişafını dəstəkləmək, onun potensialını aşkarlamaq və cəmiyyətə inteqrasiyasını təmin etmək üçün mühüm vasitədir. Müasir müəllim bu yanaşmaları mənimsəməli və tətbiq etməlidir. Qiymətləndirmə növləri məqsədinə, zamanına və tətbiq üsuluna görə bir neçə əsas kateqoriyaya bölünür.

1. Formativ qiymətləndirmə tədris prosesinin gedişində istənilən vaxt həyata keçirilir. Burada məqsəd şagirdin öyrənmə

prosesindəki irəliləyişini müşahidə etmək və ona dəstək verməkdir. Bu inklüziv təhsildə ən vacib qiymətləndirmə növüdür, çünki fərdi ehtiyaclara uyğunlaşma imkanı yaradır.

2. Summativ qiymətləndirmə (nəticəyə əsaslanan qiymətləndirmə). Tədris prosesinin sonunda həyata keçirilir (məsələn, fəsil və ya dərs ilinin sonunda). Əsas məqsəd şagirdin əldə etdiyi nəticələri ölçməkdir.

Müddətinə görə qiymətləndirmə növləri də vardır: 1. İlkin qiymətləndirmə (diaqnostik qiymətləndirmə). Tədrisə başlamazdan əvvəl şagirdin hazırkı bilik və bacarıq səviyyəsini müəyyənləşdirmək üçün aparılır. Fərdi inkişaf planının (FİP) hazırlanmasına əsas verir. 2. Cari qiymətləndirmə isə müəyyən müddət ərzində (həftəlik, aylıq) davamlı şəkildə aparılır. Şagirdin inkişaf tendensiyalarını izləməyə kömək edir. 3. Yekun qiymətləndirmə mövzu, fəsil və ya il sonunda aparılır. Dəyərləndirmə əsasən nəticə yönümlüdür, lakin inklüziv mühitdə şagirdin fərdi inkişaf səviyyəsi də nəzərə alınmalıdır.

İnklüziv təhsildə qiymətləndirmə yanaşmaları yalnız "bal vermək" funksiyasını yerinə yetirməməlidir. Onlar həm də şəxsi inkişafı, fərdi potensialı və emosional rifahı dəstəkləyən alətlərə çevrilməlidir. Bu səbəbdən müəllimlər müxtəlif qiymətləndirmə növlərindən uyğun şəkildə istifadə etməli, ənənəvi üsulları alternativ metodlarla tamamlamalıdırlar.

Ədəbiyyat

1. Hacıyeva, G. (2021). *Xüsusi təhsil ehtiyacları olan uşaqlarla iş: müəllim üçün vəsait*. ADPU nəşri.
2. Təhsil İnstitutu (2022). *Müəllimlər üçün inklüziv təhsildə qiymətləndirmə təlim materialları*.
3. UNESCO. (1994). *The Salamanca Statement and Framework for Action on Special Needs Education*.

Elm və Təhsil Tədqiqatları **VIII Respublika Elmi Konfransı / 19 iyun 2025 / 86-88**
Research in Science and Education **VIII Republican Scientific Conference / 19 iyun 2025 / 86-88**
https://doi.org/10.36719/2789-6919/2025/VIII

Gülnar Rasulova
Cəmşid Naxçıvanski adına Hərbi Lisey
Hərbi Elmi Tədqiqat İnstitutu
adyunkt
https://orcid.org/0009-0002-6524-4578
gulnar.rasulova07@mail.ru

Hərbi məktəblərdə şəxsiyyətin formalaşmasında tərbiyə işinin rolu

Açar sözlər: *hərbi məktəb, tərbiyə, şəxsiyyət, pedoqoji proses, gənc hərbçi*
Keywords: *military school, education, personality, pedagogical process, young soldier*

Hərbi məktəblər yalnız hərbi bilik və bacarıqların aşılandığı müəssisələr deyil, həm də gələcək zabitlərin və hərbi qulluqçuların şəxsiyyətinin formalaşdığı mühüm tərbiyə mərkəzləridir. Burada aparılan tərbiyə işinin məqsədi milli-mənəvi dəyərlərlə silahlanmış, yüksək intizamlı və məsuliyyətli vətəndaşlar yetişdirməkdir. Yəni burada yalnız fiziki və peşə bacarıqları deyil, həm də milli ruhlu, intizamlı, əxlaqlı və vətəninə sadiq vətəndaşların formalaşması prosesi gedir.

Tərbiyə işi bu mənada xüsusi əhəmiyyət daşıyır. Belə ki, tərbiyə işi — gənc nəsildə düzgün davranış vərdişlərinin formalaşdırılması, dünyagörüşünün inkişaf etdirilməsi, əxlaqi və mənəvi dəyərlərin aşılanması məqsədilə planlı və sistemli şəkildə aparılan pedaqoji fəaliyyət olmalıdır. Məqsəd gələcək hərbçiləri həm fiziki, həm də mənəvi cəhətdən güclü yetişdirmək, gənc hərbçilərin şəxsiyyətində müsbət keyfiyyətlərin, liderlik, məsuliyyət və kollektiv ruhunun formalaşdırmaqdır. Bu prosesdə ən vacib rol tərbiyəçi zabitlərin, müəllimlərin və psixoloqların üzərinə düşür. Tərbiyəçi zabitlər – gündəlik

nəzarət və istiqamət verməklə yanaşı, nümunəvi davranışları ilə də gənclərə örnək olmalıdırlar. Müəllimlər və psixoloqlar – pedaqoji və psixoloji yanaşmalarla tələbələrin fərdi xüsusiyyətlərini nəzərə alaraq tərbiyə metodlarını seçməli, onlara yalnız bilik verməklə kifayətlənməməli, həm də nümunəvi davranışları ilə gənclərə yol göstərməlidirlər. Qapalı tədris müəssisələri olmağına baxmayaraq, bu prosesdə ailələrin də üzərinə məsuliyyət düşür. Belə ki, məktəb və ailə arasında əməkdaşlıq gücləndirilməlidir. Bu qarşılıqlı əlaqə tərbiyə prosesinin effektivliyinin artmasına xidmət edir.

Tərbiyə işi, ümumiyyətlə, geniş bir anlayış olaraq bir neçə əsas istiqaməti əhatə edir: Vətənpərvərlik tərbiyəsi – gənclərdə milli ruhun, vətənə bağlılıq hissinin inkişafını həyata keçirir. Nəinki hərbçi üçün, hər bir vətəndaş üçün vacib olan keyfiyyətdir. Vətənpərvərlik tərbiyəsi Vətənə bağlılıq hissi, milli tarix və mədəniyyətə hörmət formalaşdırır (Məmmədov, 2018). Dövlət atributlarının öyrədilməsi, vətənpərvərlik tədbirləri və qəhrəmanlıq nümunələri bu məqsədə xidmət edir. Əxlaqi tərbiyə – dürüstlük, sədaqət, ədalət kimi dəyərlərin aşılanmasına xidmət edir və şəxsi nüfuz və mənəvi bütövlük formalaşır. İntizam və məsuliyyət – qaydalara riayət və verilmiş tapşırıqların məsuliyyətlə yerinə yetirilməsini öyrədir. Hərbi nizam-intizamın qorunması, gündəlik tapşırıqların yerinə yetirilməsi, qərar qəbuletmə bacarığı və məsuliyyətlilik bu sahəyə daxildir (İsmayılov, 2014). Bu da hər bir hərbçi üçün vacib olan keyfiyyətlərdəndir. Psixoloji və fiziki hazırlıq – stressə davamlı, sağlam düşüncəli fərdlərin yetişməsinə xidmət edir (Kursantların Hərbi vətənpərvərlik ruhunda tərbiyəsinin tədrisi metodikası, 2012). Bədənin sağlam və dözümlü olması, həmçinin stres şəraitində özünü idarəetmə bacarığı şəxsiyyətin mühüm komponentidir. Bəs bunları hansı tərbiyə metodlarından istifadə etməklə həyata keçirə bilərik? Belə düşünürük ki, tərbiyə metodları həm ənənəvi, həm də müasir yanaşmaları

https://doi.org/10.36719/2789-6919/2025/VIII

özündə birləşdirməlidir. Söhbətlər, nümunəvi fəaliyyətlər, vətənpərvərlik tədbirləri və hərbi təlimlər bu prosesin əsasını təşkil etməlidir.

Əlbəttə ki, bu sahədə bəzi çətinliklər də mövcuddur. Məsələn, fərdi yanaşmanın olmaması, sosial şəbəkələrin təsiri və motivasiya problemləri. Bu kimi məsələlərin həlli üçün sistemli psixoloji dəstək və maraqlı tərbiyə proqramları tətbiq edilməlidir. Məsələn, psixoloji və pedaqoji diaqnostikadan istifadə, tərbiyə proqramlarının rəqəmsal texnologiyalarla uyğunlaşdırılması, uğurlu hərbi karyera nümunələrinin tanıdılması və şəxsi inkişaf planlarının hazırlanması ilə bəzi problemləri aradan qaldırmaq mümkündür.

Nəticə olaraq qeyd etməliyik ki, hərbi məktəblərdə tərbiyə işi şəxsiyyətin inkişafında və formalaşmasında həlledici rol oynayır. Bu proses sadəcə bilik və bacarıqla yox, həm də yüksək əxlaqi keyfiyyətlərə sahib, Vətənə və xalqa sədaqətli, güclü iradəyə malik vətəndaşların yetişdirilməsinə xidmət edir. Tərbiyə işi məqsədyönlü və sistemli şəkildə aparıldıqda, bu hərbi müəssisələr yalnız hərbi kadrların deyil, həm də sağlam cəmiyyətin əsas dayaqlarını yetişdirə bilir.

Ədəbiyyat

1. İsmayılov, R. (2014). Hərbi psixologiya və pedaqogika. I hissə.
2. *Kursantların Hərbi vətənpərvərlik ruhunda tərbiyəsinin tədrisi metodikası*. (2012).
3. Məmmədov, İ. (2018). *Vətənə bağlılıq və milli şüur*. Maarif nəşriyyatı.

Gunel Azizova Yusubova
National Aviation Academy
https://orcid.org/0009-0003-1010-6650
gnl.azizova@gmail.com

Inclusive Classrooms

Keywords: *inclusive, teacher, classroom, students, ability*
Açar sözlər: *inklüziv, müəllim, sinif, tələbə, bacarıq*

Teachers clarify the weak points and learning needs of students in inclusive classrooms. Eliminating learning gaps and supporting students is achieved through an individualized approach. Firstly, teachers should create a supportive, valuable, and happy environment for students. Without a doubt, such an environment will lead students to success. Inclusive classes may accommodate differences of all kinds, including religious, linguistic, racial, and ability, etc. The benefits of inclusive classrooms are that students learn to respect, discuss, and work together in a friendly way. They gain the ability to support each other. From my point of view, empathy develops in students who study in inclusive classrooms very well. Teachers should evaluate all students' potential and skills, then define appropriate teaching methods. Properly chosen teaching methods will motivate students to approach lessons enthusiastically. In addition, the materials must be available for students. All students must be actively involved in the lessons. Teachers should create a supportive and positive environment. Teachers can seek support from colleagues and parents when necessary. Students are more likely to learn in an environment where they feel valued. Compared to traditional classrooms, students in inclusive settings are more open to diversity. Their social-emotional skills and capacity for empathy are more advanced. In conclusion, inclusive classrooms help students become more considerate, empathetic, and socially responsible members of society.

Elm və Təhsil Tədqiqatları **VIII Respublika Elmi Konfransı / 19 iyun 2025 / 90-93**
Research in Science and Education **VIII Republican Scientific Conference / 19 iyun 2025 / 90-93**
https://doi.org/10.36719/2789-6919/2025/VIII

Aytən Bayramova
Bakı Biznes Universiteti
magistrant
https://orcid.org/0009-0003-0806-5757
aytenbayramova09002@gmail.com

Bank xidmətlərinin iqtisadiyyatda mövqeyi və rolu

Açar sözlər: *bank xidmətləri, maliyyə resursları, rəqəmsal transformasiya, maliyyə böhranları, iqtisadi artım*
Keywords: *banking services, financial resources, digital transformation, financial crises, economic growth*

Banklar, iqtisadiyyatın müxtəlif sahələrini maliyyələşdirmək üçün resursların toplanmasını təmin edir. Onlar həm dövlət, həm də özəl sektorda mövcud olan layihələri maliyyələşdirmək məqsədilə sərmayə toplamaqla, ümumilikdə iqtisadiyyatın inkişafını dəstəkləyirlər. Banklar, iş dünyası üçün kreditlər təqdim etməklə, istehsal və xidmət sahələrini inkişaf etdirirlər. Eyni zamanda, onlar fərdi şəxslərə və müəssisələrə mövcud imkanlar daxilində maliyyə dəstəyi verərək, iqtisadi inkişafı sürətləndirirlər. Banklar, maliyyə bazarlarının və iqtisadi strukturların əsas tənzimləyiciləridir. Onlar maliyyə bazarlarında sərmayə, kredit və digər maliyyə resurslarının dövriyyəsini təmin edirlər. Bu bazarların səmərəli işləməsi isə iqtisadiyyatın stabilliyini və inkişafını təmin edir. Banklar vasitəsilə dövlətlər və özəl şirkətlər maliyyə resurslarına çıxış əldə edirlər, bu isə istehsalın artırılmasına, yeni iş yerlərinin yaradılmasına və iqtisadi artıma səbəb olur. Bu cür fəaliyyətlər həm də bankların təklif etdiyi kreditlər, investisiya xidmətləri və digər maliyyə alətlərinin iqtisadiyyata təsirini göstərir. Bank xidmətləri, yalnız iqtisadi artımı stimullaşdırmaqla kifayətlənmir, həm də sosial

rifahın artırılmasına mühüm təsir göstərir. Banklar, sosial layihələri maliyyələşdirmək, dövlət siyasətini dəstəkləmək və sosial sahədə yeniliklərə investisiya qoymaqla, cəmiyyətin inkişafını sürətləndirirlər. Məsələn, sosial mənzil proqramları, səhiyyə və təhsil sahələrindəki layihələr bankların dəstəyi ilə həyata keçirilir. Bu cür fəaliyyətlər, həm insanların həyat səviyyəsini yaxşılaşdırır, həm də iqtisadiyyatda davamlı inkişafı təmin edir.

Bank xidmətləri, iqtisadi inkişafın mühüm tərkib hissəsidir. İnvestisiyalar vasitəsilə banklar, həm fərdi sektora, həm də dövlət sektoruna maliyyə resursları təmin edir. Banklar bu investisiyaların təmin edilməsi ilə iqtisadi böyümə və inkişafın sürətini artırır. İnvestisiya imkanları artır və bu, nəticədə daha çox istehsal, yeni iş yerləri və artan iqtisadi fəaliyyət deməkdir. Banklar qeyri-formal sektoru maliyyələşdirmək və iqtisadiyyata daxil etmək üçün də mühüm rol oynayır. Müasir dövrdə, texnologiyanın sürətli inkişafı ilə bank xidmətləri də rəqəmsal transformasiya dövrünə qədəm qoyub. İnternet bankçılığı, mobil tətbiqlər, ödəniş sistemləri, blockchain texnologiyası və süni intellekt kimi yeniliklər bankların fəaliyyətini daha sürətli, səmərəli və müştəri yönümlü edir. Bu cür innovasiyalar yalnız bank xidmətlərini yaxşılaşdırmır, həm də geniş miqyasda iqtisadi fəaliyyətin daha çevik və effektiv olmasını təmin edir. Rəqəmsal bankçılıq və fintech sahələri həm də yeni iş sahələri açır və ölkələrdə iqtisadi inkişafın yeni mərhələlərini yaradır. Kredit və borc bazarlarının inkişafı iqtisadiyyatda vacib rol oynayır.

Müasir dövrdə banklar yalnız daxili iqtisadiyyatda deyil, həm də beynəlxalq iqtisadiyyatda mühüm rol oynayır. Beynəlxalq ticarət, valyuta mübadiləsi və sərmayə qoyuluşu kimi əməliyyatlar, bankların həyata keçirdiyi maliyyə xidmətləri ilə mümkün olur. Dünya miqyasında ticarət əlaqələrinin inkişafı və beynəlxalq kapital axınları bankların fəaliyyətinə və

mövqeyinə böyük təsir göstərir. Bu, həm də ölkələr arasında iqtisadi əlaqələrin möhkəmlənməsinə və qlobal iqtisadi inkişafın sürətlənməsinə səbəb olur. Qlobal maliyyə böhranları və iqtisadi qeyri-sabitlik hallarında beynəlxalq bank təşkilatları, xüsusən də Mərkəzi Banklar və beynəlxalq maliyyə qurumları, iqtisadi sabitliyi qorumaq və bərpa etmək məqsədilə vacib addımlar atırlar. Dünya Bankı, Beynəlxalq Valyuta Fondu və digər beynəlxalq maliyyə təşkilatları, qlobal maliyyə böhranları zamanı maliyyə dəstəyi təklif edir və dövlətlərə iqtisadi stabilliyi təmin etmək üçün məsləhət xidmətləri göstərirlər. Bu cür təşkilatların fəaliyyəti, dünya iqtisadiyyatında maliyyə sabitliyini qorumağa kömək edir və ümumi iqtisadi inkişafı dəstəkləyir. Müasir dövrdə dünya bank xidmətləri iqtisadiyyatın hər bir sahəsinə təsir edən güclü bir təsirə malikdir. Onlar yalnız maliyyə resurslarını təmin etməklə kifayətlənmir, eyni zamanda iqtisadi inkişafı stimullaşdırır, sosial rifahı artırır və beynəlxalq iqtisadi əlaqələri gücləndirir. Banklar, müasir texnologiyaların tətbiqi və innovasiyaların dəstəklənməsi vasitəsilə iqtisadiyyatı daha effektiv və çevik hala gətirir.

Bank xidmətlərinin təkmilləşdirilməsi yalnız texnologiyanın inkişafı ilə əlaqəli deyil, həm də müştəri tələblərinə uyğunlaşdırılmalı, maliyyə bazarlarında yeni imkanlar yaradılmalı və iqtisadiyyatın ehtiyaclarına cavab verməlidir. Bu yazıda, bank xidmətlərinin təkmilləşdirilməsinin vacibliyi, əsas istiqamətləri və bu təkmilləşdirmələrin müştərilər və iqtisadiyyat üçün yaratdığı imkanlar geniş şəkildə araşdırılacaqdır.

Bank xidmətləri yalnız müştərilərə maliyyə xidmətləri təqdim etməklə kifayətlənmir, həm də geniş iqtisadi fəaliyyətə təsir göstərir. Banklar iqtisadiyyata əlavə sərmayələr daxil edərək, yeni iş yerləri açılmasına, iqtisadi artımın sürətlənməsinə və sosial rifahın yaxşılaşmasına şərait yaradırlar. Bankların təkmilləşdirilməsi isə, iqtisadiyyatın bütün sahələrində məhsuldarlığın artmasına, bazarların daha çevik işləməsinə və yeni

investisiya imkanlarının yaranmasına gətirib çıxarır. Müasir dövrdə iqtisadi artım və sabitlik yalnız effektiv maliyyə xidmətləri ilə mümkün ola bilər. Bu xidmətlərin təkmilləşdirilməsi həm daxili, həm də xarici sərmayə cəlb etməyə imkan verir.

Müasir dövrdə bank sektoru, sürətlə inkişaf edən və təkmilləşən texnologiyalara görə daim rəqabət içindədir. Bankların rəqabət qabiliyyətini artırmaq üçün onlardan sürətli və innovativ xidmətlər təqdim etmələri tələb olunur. Yeni bank xidmətləri, müştərilərin tələblərinə daha yaxşı cavab vermək üçün inkişaf etdirilməlidir. Bankların xidmətlərini təkmilləşdirməsi, həm müştərilərin məmnuniyyətini artırmaq, həm də bazar payını genişləndirmək baxımından vacibdir. Rəqabət mühiti içində bir bankın bazarda öz mövqeyini qoruması üçün daima yeniliklərə açıq olması tələb olunur. Bu zaman daha çox müştəri cəlb etmək və mövcud müştərilərlə uzunmüddətli münasibətlər qurmaq mümkündür. Bank xidmətlərinin təkmilləşdirilməsi, müştərilərə daha yaxşı xidmət göstərməyə şərait yaradır. Müştərilər üçün mükəmməl xidmətin təqdim edilməsi yalnız onların bankla münasibətini yaxşılaşdırmır, həm də bankın xidmətlərindən istifadə etmə ehtimalını artırır.

Elm və Təhsil Tədqiqatları **VIII Respublika Elmi Konfransı / 19 iyun 2025 / 94-98**
Research in Science and Education **VIII Republican Scientific Conference / 19 iyun 2025 / 94-98**
https://doi.org/10.36719/2789-6919/2025/VIII

Namiq Vəlixanov
Azərbaycan Turizm və Menecment Universiteti
magistrant
https://orcid.org/0009-0004-8925-7597
namigvelikhanov@gmail.com

Ali təhsil müəssisələrində strateji dəyişikliklərin kadrların motivasiyasına təsirinin təhlili

Açar sözlər: *ali təhsil müəssisələri, strateji idarəetmə, motivasiya, rəqəmsal transformasiya, elektron universitet modeli, süni intellekt*

Keywords: *higher education institutions, strategic management, motivation, digital transformation, electronic university model, artificial intelligence*

Ali təhsil müəssisələri müasir dövrün qlobal təhsil mühitində baş verən yeniliklərə uyğunlaşmaq üçün yeni strateji addımlar atmağa meyilli olmalıdırlar. Ali təhsil müəssisələrinin idarəetmə sisteminin müasirləşdirilməsi və innovativ təhsil modellərinin qəbul olunması akademik heyətin motivasiyasına önəmli dərəcədə öz təsirini göstərir. Strateji dəyişikliklər ancaq təşkilati strukturu formalaşdırmaqla deyil, həm də akademik heyətin iş mühitini, peşəkar inkişaf imkanlarının səviyyəsini artırmaq məqsədi daşıyır.

Bu məqalədə ali təhsil ocaqlarında strateji dəyişikliklərin kadrların motivasiyasına təsiri tədqiq edilir. Xüsusilə, müasir ali təhsil ocaqlarında tətbiq olunan idarəetmə modelləri, psixoloji dəstək və mentorluq proqramlarının akademik heyətin motivasiyasına hansı formada töhfə verdiyi tədqiq olunur. Həmçinin beynəlxalq universitetlərdə bu sahə üzrə tətbiq olunan uğurla nəticələnmiş təcrübələr və onların Azərbaycandakı ali təhsil sisteminə inteqrasiyası da nəzərdən keçirilir.

Strateji dəyişikliklərin akademik heyətin motivasiyasına təsiri:

1.1. Strateji idarəetmə və ali təhsil - ali təhsil müəssisələri sürətlə inkişaf edən qlobal iş mühitində rəqabətə dayanıqlı qalmaq üçün strateji idarəetmə formalarını tətbiq etməlidir. Bu yanaşma təhsilin keyfiyyətini artırmaq, akademik heyətin operativ və dayanıqlı inkişafını təmin etmək və müəssisənin beynəlxalq arenada öz yerini gücləndirməsi üçün mühümdür.

Strateji dəyişikliklər ali təhsil müəssisələrinin məqsəd və fəaliyyətini sistemli formada planlaşdırmağa, maddi və texniki resursların düzgün istifadəsini təmin etməyə və təşkilati strukturu keyfiyyətli şəkildə idarə etməyə təkan verir. Ən uğurlu strateji idarəetmə modelləri Harvard, Stanford və Oksford kimi dünya universitetlərində tətbiq edilir.

1.2. Strateji dəyişikliklərin kadrların motivasiyasına təsiri: a) İş mühiti və məmnuniyyətin artırılması. Strateji dəyişikliklər iş şəraitinin müasirləşdirilməsinə və müəssisə heyətinin daha rahat iş mühitində fəaliyyət göstərməsinə imkan yaradır. Rəqəmsal transformasiya, operativ idarəetmə modelləri və innovativ təlim metodları işçi heyətin motivasiyasını yüksəltməklə onların iş məhsuldarlığını artırır. b) Peşəkar inkişaf və karyera perspektivləri. Müasir ali təhsil ocaqlarında strateji dəyişikliklər müəllim heyəti üçün daha geniş karyera mühitinin yaranmasına təkan verir. Beynəlxalq əməkdaşlıq addımları, müasir tədqiqat mərkəzlərinin formalaşdırılması və şəxsi inkişaf proqramlarının genişləndirilməsi kadrların motivasiyasına müsbət təsir edir. Bu da təhsilin inkişafına təsirini göstərir. c) Müəssisə rəhbərliyi ilə qarşılıqlı münasibətlərin formalaşdırılması**.** Açıq, şəffaf və demokratik idarəetmə sistemlərinin tətbiq olunması kadr heyətinin motivasiya və dayanıqlılığı səviyyəsini artırır. Kadrların qərar qəbuletmə məsələlərinə cəlb olunması, əməkdaşların düşüncələrinin diqqətə alınması və idarəetmənin demokratikləşdirilməsi işçilərin motivasiyasına təsirini göstərən

başlıca meyarlardandır. d) Müasir motivasiya formalarının tətbiq olunması. Skandinaviya ali təhsil müəssisələrində uğurla tətbiq edilən, keyfiyyəti ilə dünya universitetləri arasında seçilən motivasiya proqramları Azərbaycan universitetlərinə də inteqrasiya edilə bilər. İşçi məmnuniyyətini yüksəldən elastik iş qrafikləri, mentorluq və şəxsi inkişaf proqramları və psixoloji dəstək xidmətləri ali təhsil müəssisələrində işçi heyətinin motivasiyasını artıran effektiv vasitələrdir.

1.3. Rəqəmsal transformasiya və akademik idarəetmə**.** Müasir dövrdə ali təhsil ocaqları sürətlə inkişaf edən qlobal akademik mühitdə rəqabətliliyi yüksəltmək üçün yeni texnologiyaların idarəetmə sisteminə inteqrasiyasına böyük önəm verir. Rəqəmsal transformasiya müəssisələrdə idarəetmə formalarını optimallaşdırmaq, işçi heyətin iş yükünü minimuma endirmək və tələbələrin keyfiyyətli təhsil almaları üçün əsas faktor kimi görülür. a) Elektron universitet modelləri: Elektron universitet modeli deyildikdə ali təhsil ocaqlarının fəaliyyətlərini rəqəmsal mühitə inteqrasiya edərək idarəetmənin daha açıq və şəffaf olmasını təmin edir. Nümunə olaraq, Harvard və Stanford kimi ali təhsil müəssisələrində idarəetmənin əksər formaları optimallaşdırılmış və avtomatlaşdırılmış funksiyalar üzərindən icra olunur. Bu modelin əsas komponentlərinə aşağıdakılar daxildir:

Elektron sənəd dövriyyəsi – müəssisənin idarə heyətinin və tələbələrin iş və tədris proseslərini asanlaşdıran rəqəmsal platformalar. Rəqəmsal resurs bazaları – bütün akademik və inzibati məlumatların bir mərkəzdə sistemləşdirilmiş formada qorunması. İntellektual analitika sistemləri – ali təhsil ocaqlarının fəaliyyət nəticələrini təhlil edərək operativ idarəetmə addımlarının atılmasına kömək edir. b) Süni intellekt və avtomatlaşdırılmış idarəetmə formaları. Süni intellekt müasir dövrdə ali təhsil sferasında ən innovativ yeniliklərdən biri kimi qəbul olunur. Müasir dövrdə universitetlər süni intellekt formalarından akademik sistemin idarəetməsinin optimallaş-

dırılması üçün geniş şəkildə istifadə edir. Bu sistemlər aşağıdakı istiqamətlərdə göstərilə bilər: Tələbə performansının analizi – süni intellekt təyin olunmuş müəyyən alqoritmlər vasitəsilə tələbələrin akademik göstəricilərini təhlil edərək fərdi inkişaf strategiyaları təklif edir. Bu da müəssisənin kadr heyətinin tədris prosesindəki fəaliyyətinə müəyyən təsirlər göstərərək iş yükünü azaldır. İşçi motivasiyası və idarəetmə – akademik heyətin iş yükünü azaltmaqla onların effektivliyini artıraraq avtomatlaşdırılmış idarəetmə prosesləri həyata keçirilir. İnnovativ kadr idarəetməsi – süni intellekt bazalı sistemlər işçilərin iş prosesindəki yükünü azaldaraq onların rifahına müsbət təsir göstərə bilir. 1.4. Psixoloji dəstək və mentorluq proqramları. Müasir ali təhsil ocaqlarında akademik heyətin rifahının yüksək saxlanılması, elmi və pedaqoji fəaliyyətin davamlılığını artırmaq üçün müxtəlif dəstək formalarından istifadə edilir. Psixoloji dəstək və mentorluq proqramları işçi heyətinin stress səviyyəsini azaltmaqla , iş mühitini daha mülayim formaya gətirmək və fərdi inkişaf prosesini inkişaf etdirmək məqsədi güdür. Bunlara nümunə olaraq peşəkar psixoloq konsultasiyaları, stress idarəetmə seminarları, işçi məmnuniyyəti sorğularını göstərmək olar. Mentorluq proqramları vasitəsilə isə müəssisə daxilində fəaliyyət göstərən akademik heyətin effektiv fəaliyyət göstərməsinə təkan vermək mümkündür. Tədqiqat nəticəsinə nəzər salsaq göstərir ki, strateji dəyişikliklərin keyfiyyətli idarə olunması müəllim heyətinin motivasiya səviyyəsini yüksəltmək və ali təhsil ocaqlarının ümumi fəaliyyətini inkişaf etdirmək və optimal vəziyyətə gətirmək üçün mühüm meyardır. Universitetin idarə heyəti innovativ idarəetmə addımlarını tətbiq edərək təhsil ocağının kadr heyətinin peşəkar inkişafını dəstəkləyə və onların iş sferasındakı məmnuniyyətini yüksəldərək təhsil keyfiyyətinə müsbət təsir göstərə bilər.

Rəqəmsal transformasiya, mentorluq proqramları və psixoloji dəstək sistemləri akademik heyətin motivasiyasına

güclü təsir göstərən mexanizmlərdir. Beynəlxalq universitetlərin təcrübəsi göstərir ki, açıq və demokratik idarəetmə, işçi iştirakının artırılması və motivasiya sistemlərinin gücləndirilməsi akademik məhsuldarlığın yüksəlməsinə və universitetlərin innovativ inkişafına kömək edir. Azərbaycan ali təhsil sistemində bu modellərin tətbiqi universitetlərin qlobal akademik mühitə inteqrasiyasını sürətləndirəcək və akademik heyətin peşəkar inkişafını dəstəkləyəcəkdir. Strateji dəyişikliklərin kadrların motivasiyasına təsiri yalnız qısa müddətli nəticələrlə məhdudlaşmır, həm də universitetlərin uzunmüddətli inkişafını və akademik ekosistemin dayanıqlılığını təmin edir. Bu nəticələr ali təhsil ocaqlarının strateji idarəetmədə yeni yanaşmalar tətbiq etməsi və akademik heyətin motivasiyasını yüksəldən innovativ modelləri qəbul etməsi üçün vacib göstərişlər təqdim edir.

Elm və Təhsil Tədqiqatları **VIII Respublika Elmi Konfransı / 19 iyun 2025 / 99-102**
Research in Science and Education **VIII Republican Scientific Conference / 19 iyun 2025 / 99-102**
https://doi.org/10.36719/2789-6919/2025/VIII

Əfsanə Qasımzadə
Odlar Yurdu Universiteti
magistrant
https://orcid.org/0009-0008-3535-3347
gasiimovaa1515@gmail.com

Dövlət sektorunun ümumi tədqiqat nəzəriyyəsi və onun metodologiyası haqqında ümumi məlumat

Açar sözlər: *dövlət sektoru, xərclər, gəlirlər, tənzimləmə*
Keywords: *public sector, expenses, revenues, regulation*

Dövlət sektoru iqtisadiyyatın dövlət mülkiyyətində olan hissəsidir və onun əsas məqsədi ictimai maraqların təmin olunması, iqtisadi və sosial bərabərliyi qorumaq, strateji xidmətlər təqdim etməkdən ibarətdir. Bu sektorun fəaliyyəti, dövlətin fiskal siyasəti, dövlət müəssisələrinin fəaliyyəti, dövlət xərcləri və gəlirləri, sosial təminat sistemləri və digər bu kimi sahələri özündə birləşdirir. Dövlət əsaslı vəsait qoyuluşunun strukturunu təkmilləşdirmək, həmin vəsaitdən səmərəli istifadəyə nəzarəti artırmaq, dövlət zəmanəti ilə iqtisadiyyata cəlb olunan, habelə dövlət büdcəsində dövlətin investisiya xərcləri üçün nəzərdə tutulmuş vəsaitin istiqamətləri, müxtəlif sahələr üzrə bölgüsünün vahid prinsiplərinə və prioritetlərinə nail olmaq, dövlət investisiya siyasəti ilə müvafiq inkişaf proqramları arasında əlaqələri möhkəmləndirmək mühüm vəzifələr arasında yer alır. Dövlət sektorunun səmərəli fəaliyyətinin təmin edilməsi və strukturunun təkmilləşdirilməsi ilə yanaşı, dövlət mülkiyyətinin özəlləşdirilməsi yolu vasitəsilə qeyri-dövlət sektorunun əhatə dairəsinin genişləndirilməsi

istiqamətində də işlər davam etdirilir. Göstərilən tədbirlərin həyata keçirilməsi, yoxsulluğun azaldılması, iqtisadiyyatda struktur islahatlarının davamı, eləcə də büdcə gəlirlərinin artırılması, büdcə xərclərinin sosial və investisiya yönümlülüyünün təmin olunması, xərclərin şəffaflığının və səmərəli idarə edilməsinin yüksəldilməsi ilə müşayiət olunur. Bazar iqtisadiyyatına keçid şəraitində büdcə sisteminin tənzimlənməsi iki istiqamətdə aparılır: Birinci növbədə dövlət büdcəsi tarazlaşdırılır; İkincisi, büdcənin gəlir və xərcləri bazar iqtisadiyyatının tələblərinə uyğunlaşdırılır. Bütün deyilənləri nəzərə alaraq, həyata keçiriləcək büdcə siyasəti respublikada son 15 ildə bərqərar olmuş maliyyə sabitliyinin saxlanılmasını, inflyasiyanın tədricən aşağı salınmasını təmin etməklə, genişlənməkdə olan islahatların sürətlənməsinə təkan verir. Bu zaman islahatların ilkin nəticəsi kimi əhalinin aztəminatlı təbəqələrinin sosial müdafiəsi təmin olunmalıdır. Azərbaycan Respublikasının büdcəvergi siyasətində mühüm istiqamətlərdən biri də minimum yaşayış həddinin tələblərini gözləməklə ayrı-ayrı sferalarda əmək haqları arasında olan fərqin tədricən aradan qaldırılmasına, regionlarda əmək ehtiyatlarından, təbii və iqtisadi potensialdan səmərəli istifadə etməklə regionların iqtisadi tarazlığının təmin edilməsinə nail olmaq, onların iqtisadi gücünü artırmaq və sosial problemlərinin həllini sürətləndirməkdir (Bulut, Süleymanov, 2013, s.325). Metodologiya. Dövlət sektorunun araşdırılmasında istifadə olunan əsas metodoloji yanaşmalar aşağıda qeyd olunmuşdur:

"Dövlət sektorunun tədqiqində istifadə edilən metodlar və onların qısa təsviri"

Cədvəl 1.

Metod	Təsviri
Deskriptiv metod	Dövlət sektorunun mövcud vəziyyətini araşdırır, məsələn, büdcə xərcləri, işçi sayı, müxtəlif xidmət sahələri və s.
Analitik yanaşma	Dövlət siyasətlərinin və proqramlarının iqtisadi, sosial cəhətdən fərqli təsirlərini təhlil edir və öyrənir.
Statistik metod	Rəqəmlərlə ifadə olunan məlumatlar əsasında təhlillər aparılır (məsələn, xərclərin ÜDM-də payı, onların statistik göstəricisi və s.).
Komparativ yanaşma	Müxtəlif ölkələrin dövlət sektoru göstəricilərinin bir-birilə müqayisəsi.
Empirik tədqiqatlar	Sorğular, müşahidələr və digər praktik məlumatlar əsasında aparılan tədqiqat işləri və həyata keçirilən tədbirlər.

Dövlət büdcəsi iqtisadiyyatda fəaliyyət göstərən iqtisadi qanunlar, iqtisadi kateqoriyalarla yanaşı, həmçinin qarşılıqlı əlaqə, təsir və asılılıq şəklində də öz işini həyata keçirir. O, iqtisadi münasibətlərin bir hissəsi olan maliyyə münasibətlərinin müəyyən tərəfini izah edir. Cari halda biz bu münasibətləri hər şeydən əvvəl dövlət büdcəsindəki gəlirlər və xərclər arasındakı nisbətdə, əlaqələrdə də müşahidə edirik. Büdcə münasibətləri dövlətlə müxtəlif müəssisələr, idarə və təşkilatlar, əhali və s. arasındakı əlaqələri ifadə edir və həmin münasibətlərin məcmusu kimi qiymətləndirilir. Hazırda Azərbaycanda dövlətçiliyin yeni formalaşdığı, iqtisadi müstəqilliyin tədricən bərqərar olduğu bir vaxtda dövlətin roluna, onun sosial və iqtisadi məsələlərin həyata keçirilməsində fəal iştirakına tələb günü-gündən artır. Dövlət bu proseslərə özünün iqtisadi-

maliyyə siyasətinin tərkib hissələrindən olan büdcə siyasəti ilə öz təsirini göstərir. Büdcə siyasəti dövlətin büdcə gəlirləri və xərcləri, həmçinin büdcə kəsirinin artırılıb-azaldılması üzrə kompleks surətdə həyata keçirdiyi tədbirlərdə öz əksini tapır. Büdcə siyasəti respublika hökuməti tərəfindən müəyyən edilir və ölkənin ümumi siyasi və iqtisadi kursuna tabedir (Rzayev, 2021). Hazırda Azərbaycanda bazar münasibətlərinin dərinləşməsi və özəl bölmənin üstünlük əldə etməsi ilə əlaqədar iqtisadiyyatın maliyyələşdirilməsinə dövlət büdcəsi xətti ilə yönəldilən vəsaitlər kəskin şəkildə azalıb. Eyni zamanda, Azərbaycanın suveren dövlət kimi mövcudluğu ölkənin müdafiəsi və təhlükəsizliyi ilə yanaşı, büdcədə yeni xərc maddələrini ortaya çıxarmışdır.

Ədəbiyyat

1. Bulut, C., Süleymanov, E. (2013). Dövlət maliyyəsi.
2. Rzayev, Ə. (2021). Dövlət idarəetməsi: nəzəriyyə və praktika. “Elm”.

Elm və Təhsil Tədqiqatları **VIII Respublika Elmi Konfransı / 19 iyun 2025 / 103-106**
Research in Science and Education **VIII Republican Scientific Conference / 19 iyun 2025 / 103-106**
https://doi.org/10.36719/2789-6919/2025/VIII

Nuranə Babazadə
Bakı Biznes Universiteti
magistrant
https://orcid.org/0009-0002-1569-9355
nurane.babazade@gmail.com

Azərbaycanın sosial-iqtisadi inkişafında kiçik və orta sahibkarlığın yeri və rolu

Açar sözlər: *kiçik və orta sahibkarlıq, sosial-iqtisadi inkişaf, sosial proqramlar, dayanıqlı inkişaf, aqrar kreditlər*

Keywords: *small and medium-sized enterprises, socio-economic development, social programs, sustainable development, agrarian loans*

Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafı, müstəqil dövlətin yaradılmasından sonra keçdiyi iqtisadi və sosial transformasiyaların bir nəticəsidir. Bu inkişaf müxtəlif sahələrdəki islahatlar, yerli və xarici investisiyaların artırılması, iqtisadi diversifikasiya, sosial proqramların həyata keçirilməsi və dövlətin iqtisadiyyata müdaxiləsi ilə əlaqədardır. Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafında kiçik və orta sahibkarlığın (KOS) iqtisadi əhəmiyyəti və yeri geniş aspektli müsbət təsirləri ilə xarakterizə olunur. Bu müəssisələr, ölkənin iqtisadiyyatının dayanıqlığını artırmaq, işsizliyin azaldılması, sosial bərabərsizliklərin aradan qaldırılması və ümumi rifahın yüksəldilməsi baxımından əhəmiyyətli rol oynayır.

KOS-ların Azərbaycan iqtisadiyyatındakı əhəmiyyəti və mahiyyətini izah edən ilkin amil - mikroiqtisadi aktivlik və istehsal səmərəliliyinin stimullaşdırılmasıdır. Ümumi Daxili Məhsul (ÜDM): Azərbaycan, neft və qaz sektorunun inkişafı sayəsində ÜDM-in artımını təmin etmişdir. 2000-ci illərin əvvəllərindən başlayaraq, ölkənin iqtisadiyyatı sürətlə

böyümüşdür. İqtisadi diversifikasiya: neft sektoruna olan asılılığın azaldılması məqsədilə qeyri-neft sektorunun inkişafına diqqət artırılmışdır. Kənd təsərrüfatı, turizm, informasiya texnologiyaları və xidmət sektoru kimi sahələrə investisiyaların cəlb edilməsi məqsədilə müvafiq strategiyalar həyata keçirilir. KOS-ların fəaliyyəti, qeyri-neft sektorunun inkişafına və yerli istehsalın artırılmasına böyük təkan verir. Azərbaycanın qeyri-neft sektorunun dayanıqlı inkişafında, xüsusilə aqrar sahənin maliyyələşdirilməsində kiçik və orta sahibkarlıq subyektlərinin rolu artmaqda davam edir. KOS-lar bu sektorda fəaliyyət göstərən əsas subyektlərdən biri olaraq, torpaqdan və digər yerli resurslardan istifadədə daha yüksək səmərəlilik nümayiş etdirir. Son illərdə aqrar kreditlərin strukturunda KOS-ların payı əhəmiyyətli şəkildə artmışdır. Bu artım dövlətin kənd təsərrüfatında fəaliyyət göstərən sahibkarlara yönəltdiyi dəstək proqramlarının genişlənməsi ilə bağlıdır. Xüsusilə Aqrar Kredit və İnkişaf Agentliyinin həyata keçirdiyi güzəştli kredit mexanizmləri və subsidiya modelləri, kiçik fermerlərin maliyyə resurslarına çıxışını asanlaşdırmışdır. Bunun nəticəsində kənd yerlərində innovativ texnologiyaların tətbiqi, müasir suvarma və məhsul istehsal sistemlərinə keçid daha sürətli həyata keçirilir. Aqrar sahədə fəaliyyət göstərən KOS-lar, həm daxili bazarın tələbatının ödənilməsi, həm də ixrac potensialının artırılması baxımından strateji əhəmiyyət daşıyır. Bu subyektlər yalnız iqtisadi artımı deyil, eyni zamanda ərzaq təhlükəsizliyi, regionların inkişafı və əhalinin sosial təminatı kimi prioritetlərə də töhfə verir. KOS-lar, sahibkarlıq mühitindəki çevikliyin və innovasiyaların sürətini artırmaqla yanaşı, yeni bazar nişləri və gəlir gətirən sahələr yaradır. Məsələn, kənd təsərrüfatında yeni texnologiyaların tətbiqi, eko-turizmin inkişafı və yeni xidmət sahələrinin açılması qeyri-neft sektorunun möhkəmlənməsinə mühüm təsir göstərir.

Məşğulluq yaradılması-iş imkanları: KOS-lar, ölkədə geniş iş imkanları yaradır və regionlarda iqtisadi inkişafı dəstəkləyir. Bu, xüsusilə gənclər və qadınlar üçün əhəmiyyətlidir, çünki işsizlik səviyyəsinin azaldılmasına kömək edir. Regionlarda məşğulluqların inkişafı KOS-ların, şəhər və kənd yerlərində iş yerlərinin açılması ilə regionlar arasındakı iqtisadi bərabərsizliyi azaldır. Dövlətin regionlar üzrə təlim və dəstək proqramları, KOS-ların fəaliyyətini artıraraq yerli icmaların sosial-iqtisadi vəziyyətini yaxşılaşdırır.

Sosial inkişaf / İctimai bərabərlik: KOS-lar, sosial cəhətdən zəif qruplar üçün, xüsusilə qadınlar, gənclər və az təminatlı şəxslər üçün iqtisadi fəaliyyət imkanları yaradır, sosial bərabərsizliyi azaldır. İctimai istiqamətlər: KOS-lar, yerli icmalara sosial məsuliyyət çərçivəsində xidmət edərək, sosial layihələrə və xeyriyyəçilik fəaliyyətlərinə dəstək verirlər. Qadınların və gənclərin iş bazarına daxil olması, onlara iqtisadi müstəqillik qazandırır, eyni zamanda sosial ədalət və bərabərsizliklərin azaldılmasına kömək edir.

İnnovasiya və rəqabət / İnnovativ həllər: KOS-lar, rəqəmsal transformasiyaya daha tez uyğunlaşaraq, yeni məhsul və xidmətlər təqdim edir, bu da bazar mühitinin inkişafına və rəqabətliliyə təkan verir. KOS-lar, bazarda müxtəlif məhsul və xidmətləri təqdim etməklə, müştərilərin seçim imkanlarını artırır və böyük müəssisələrlə rəqabət aparır. Yeni texnologiyaların tətbiqi, dijital xidmətlərin genişləndirilməsi və müştəri ehtiyaclarına daha tez uyğunlaşma bu sahədəki inkişafın əsasını təşkil edir. Bu da ölkənin ümumi iqtisadiyyatına müsbət təsir göstərir.

Dövlətin iqtisadiyyatdakı rolu / Dövlət dəstəyi: Azərbaycan hökuməti, KOS-ların inkişafını təşviq edən bir sıra proqramlar həyata keçirir. Bu, vergi güzəştləri, maliyyə dəstəyi, subsidiya mexanizmləri, biznes inkubatorları, akselerasiya proqramları, təhsil və təlim proqramları şəklində özünü göstərir. KOS-ların

inkişafında institusional dəstək mexanizmlərinin formalaşdırılması mühüm yer tutur. Azərbaycan Respublikasında bu məqsədlə yaradılmış Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) KOS-ların hüquqi və iqtisadi maraqlarının qorunması, informasiya təminatı və sahibkarların maarifləndirilməsi istiqamətində geniş fəaliyyət göstərir. Agentlik tərəfindən təqdim olunan "Bir pəncərə" prinsipinə əsaslanan xidmətlər sistemi, sahibkarlıq subyektlərinin dövlət orqanları ilə əlaqəsini sadələşdirir və şəffaflığı təmin edir. Bununla yanaşı, "Dövlət-özəl sektor əməkdaşlığı" modeli çərçivəsində təşkil edilən forumlar və regional tədbirlər, sahibkarların aktual problemlərinin birbaşa müzakirəsinə və həll yollarının axtarılmasına şərait yaradır. 2021-ci ildən etibarən tətbiq edilən "KOS Dostu" konsepsiyası vasitəsilə regionlarda fəaliyyət göstərən sahibkarlara yerində texniki və informasiya dəstəyi göstərilir. Bu təşəbbüs həm sahibkarlığın təşviqi, həm də regionlar üzrə iqtisadi fəallığın balanslaşdırılması baxımından əhəmiyyətli nəticələr verir.

Elm və Təhsil Tədqiqatları **VIII Respublika Elmi Konfransı / 19 iyun 2025 / 107-111**
Research in Science and Education **VIII Republican Scientific Conference / 19 iyun 2025 / 107-111**
https://doi.org/10.36719/2789-6919/2025/VIII

Gulay Bayramova
Nakhchivan State University
Master student
https://orcid.org/0009-0007-1349-9700
gbayramova@gmail.com

Evaluating the Effects of Artificial Intelligence on Language Learning

Keywords: *artificial intelligence, human intelligence, language learning, Translation tools, simulations*
Açar sözlər: *süni intellekt, insan intellekti, dil öyrənmə, tərcümə vasitələri, simulyasiyalar*

It is an inevitable fact that artificial intelligence applications, which affect all areas of life, will be reflected in education. Artificial intelligence is used in education with personalized education or dialogue education systems, exploratory education, data mining in education, student article analysis, virtual interactive teachers, chat robots, education for children with special needs, child-robot interaction, evaluation of homework and exams, smart school with various technologies, online and distance mobile education applications. Artificial intelligence applications in education are changing and renewing day by day with technological developments, and their usage areas and effectiveness are diversifying. How chatbots, one of the artificial intelligence programs, are used in language education and what their benefits and harms may be are discussed and interpreted in this research.

Artificial intelligence refers to the ability of technology, particularly computer systems, to simulate human intelligence processes. Natural language processing, machine vision, speech recognition, and expert systems are some specific uses of AI

(Demircan, 2013). As a result, artificial intelligence has great promise for a variety of fields, including language learning. AI presents excellent prospects for individualized and effective instruction in this field. Artificial intelligence can offer learning experiences to individual students through its many simulations and adaptive algorithms. The purpose of this work is to investigate how artificial intelligence affects language acquisition, as well as the consequences for students, teachers, and the future of AI-based language instruction.

Artificial intelligence (AI), arguably the oldest field of computer science, encompasses a wide range of issues, such as developing systems that can learn and think like humans and mimicking cognitive processes to solve real-world problems. As a result, it is commonly called machine intelligence. Users may learn a lot about how to use artificial intelligence (AI) in the most effective manner by studying its consequences. The application of AI technology in the classroom is currently the focus of much research. For instance, a progressive introduction to emerging technologies is being used to train pre-service teachers (PSTs) and in-service teachers (ISTs) in their use.

For instance, online courses have replaced traditional classroom instruction as the primary means of student instruction in teacher education. Moreover, the increasing popularity of massive open online courses has allowed for the analysis of student involvement based on their activities, which are monitored by analytics provided by the platform. Also, artificial intelligence methods like natural language processing have been applied to the analysis of written and spoken language to improve better teaching experience. AI can be defined as "computing systems that are able to engage in humanlike processes such as learning, adapting, synthesizing, self-correction and use of data for complex processing tasks" (Krashen, n.d.). AI is a broad field with many subfields. For

example, machine learning (ML) uses algorithms to identify patterns in educational data through repeated training; deep learning simulates and predicts educational outcomes using large datasets; and natural language processing (NLP) uses algorithms for language recognition to extract and analyze textual meaning. By using intelligent tutoring systems, intelligent agents, and intelligent collaborative learning systems, artificial intelligence (AI) supports and improves learning environments in education. AI research has recently had a big impact on education, and to combine multiple domains including computer science, image processing, linguistics, psychology, and neuroscience, an interdisciplinary 124 approach is needed. By providing real-time class status updates and addressing students' requirements via personalized learning platforms, artificial intelligence (AI) assists teachers in making decisions. Furthermore, AI has the power to change the educational landscape (Stern, n.d.).

Types of AI language learning tools There are numerous AI language learning resources accessible, each with distinct features and objectives. Language platforms, language tutoring systems, language generating systems, and machine translation tools are a few examples. AI algorithms are used by machine translation tools to translate speech or text between languages automatically and in real time. Translation tools, like as Google Translate, Bing Translator, ChatGPT, and CHAR AI, are frequently available on web platforms and mobile apps and are frequently utilized for fast translations of brief words or sentences. In contrast to translation tools, language tutoring systems employ artificial intelligence (AI) algorithms to provide users with individualized language instruction and feedback.

They might have interactive lessons, activities, and tests to assist students get better at speaking, grammar, and vocabulary (Duolingo, Open English, Busuu). Language generation systems

tools use AI algorithms to produce original text in a given language based on a set of input parameters. These systems could produce reports, social media posts, or news stories. Software applications and internet platforms often have language generation technologies. One of them are Hugging Face's Transformer and OpenAI's GPT-3. Some AI language learning technologies, such as chatbots that use natural language, mix elements of these categories.

Chatbots A chatbot is a computer program or artificial intelligence that conducts text or audio conversations (Tomlinson, 2013) and engages users in a certain field or topic by providing insightful natural language responses (Zimmerman, 2018). For both general and educational uses, chatbots have been created. Despite their immense potential to enhance language instruction and learning, the notion of chatbots serving as teachers for language acquisition is still relatively new. In science lecture classes, chatbot use is also contrasted with humanoid robots, and it has been found that the chatbot's visualization aids students' comprehension of the lecture (Ismayilli, n.d.). However, it might be challenging to locate studies on the usage and development of chatbots to improve language acquisition. This study found studies on language instruction and learning.

Artificial intelligence significantly influence on how much time need to spend on learning new language and it's efficiency due to the possibility of creating an individual plan to each student. Also, AI can use different methods and approaches for native speakers who have some similariti es with learning languages or other factors, related with student.

References

1. Demircan, Ö. (2013). *Yabancı dil öğretim yöntemleri*. Der Yayınları.

2. Krashen, S.D. (n.d.). *Principles and Practice in Second Language Acquisition*. Oxford University Press.
3. Stern, H. (n.d.). *Fundamental Concepts Of Language Teaching*. Oxford University Press.
4. Tomlinson, B. (2013). *Introduction: Applied linguistics and materials development*. Applied Linguistics and Materials Development (1-8). Bloomsbury Academic.
5. Zimmerman, M. (2018). *Teaching AI: Exploring new frontiers for learning.* International Society for Technology in Education.
6. Ismayilli, T.M. (n.d.). General cognitive overview to the category of affirmation. *German international journal of modern science SCIENTIFIC NOTES*: Artmedia24, (31), 53-55.
7. Ismayilli, T. M. (2023). A cognitive perspective on the delivery of affirmation in stylistic devices in english. *Deutsche Internationale Zeitschrift für Zeitgenössische Wissenschaft*, 68.

Elm və Təhsil Tədqiqatları **VIII Respublika Elmi Konfransı / 19 iyun 2025 / 112-114**
Research in Science and Education **VIII Republican Scientific Conference / 19 iyun 2025 / 112-114**
https://doi.org/10.36719/2789-6919/2025/VIII

Нильгюн Набиева
Бакинский Славянский Университет
магистрантка
https://orcid.org/0009-0004-9025-5708
nabiyeva.n@mail.ru

Пути совершенствования речевой культуры учащихся начальных классов

Ключевые слова: *речевая культура, младшие школьники, развитие речи, активные методы, коммуникативные умения*

Açar sözlər: *nitq mədəniyyəti, ibtidai sinif şagirdləri, nitqin inkişafı, aktiv metodlar, ünsiyyət bacarıqları*

Keywords: *speech culture, primary school students, speech development, active methods, communication skills*

Современная школа призвана не только передавать знания, но и формировать у учащихся коммуникативные умения, необходимые в учебной, социальной и повседневной деятельности. Особенно важно уделять внимание формированию речевой культуры в младшем школьном возрасте, поскольку именно в этот период происходит активное развитие всех компонентов речи — фонетического, лексического, грамматического и прагматического.

Речевая культура — это не только правильность речи, но и её выразительность, уместность, этичность, логичность и богатство. От уровня сформированности речевой культуры у младших школьников зависит успешность их дальнейшего обучения, способность выражать свои мысли, понимать других и взаимодействовать с окружающим миром.

Основные пути совершенствования речевой культуры младших школьников. 1.Интеграция речевой деятельности

во все учебные предметы. Развитие речи не ограничивается уроками русского языка и литературного чтения. Речевую деятельность целесообразно включать в процесс изучения математики, окружающего мира, технологии и даже физической культуры. Например, обсуждение задач, проговаривание действий, формулировка выводов и устные пояснения способствуют не только осмыслению учебного материала, но и совершенствованию речи. 2. Использование активных методов обучения. Активные методы, такие как: мозговой штурм, кластер, дискуссия, инсценировка, игры на развитие речевого взаимодействия – помогают вовлекать детей в речевую деятельность. Такие подходы развивают инициативность, стимулируют самостоятельное высказывание, способствуют формированию грамматически правильной, связной и выразительной речи. 3. Создание речевой среды. Богатая речевая среда, в которой ребенок слышит образцы правильной, культурной, разнообразной речи — важнейшее условие формирования речевой культуры. Учителю необходимо моделировать такие ситуации, в которых учащиеся будут слышать, воспринимать и воспроизводить различные речевые образцы: диалоги, монологи, рассказы, описания, рассуждения. Также важно привлекать учащихся к внеклассным формам работы: кружкам, конкурсам чтецов, театрализованным постановкам, литературным викторинам. 4. Работа над словарным запасом и грамматическим строем речи. Расширение словарного запаса и формирование грамматически правильной речи — еще один ключевой путь совершенствования речевой культуры. Здесь полезны: словарные диктанты; лексические игры (например, «Найди лишнее слово», «Подбери синонимы»); грамматические упражнения в игровой форме; составление предложений и небольших текстов по иллюстрациям. 5. Формирование

мотивации к речевому самовыражению. Младшие школьники должны чувствовать потребность в речевом взаимодействии и получать удовольствие от общения. Это достигается через: доброжелательную атмосферу на уроке; уважительное отношение к каждому высказыванию; поощрение речевой активности учащихся; возможности для выбора форм выражения мыслей (устно, письменно, в рисунке и др.).

Пути совершенствования речевой культуры младших школьников разнообразны и требуют комплексного, системного подхода. Это интеграция речевых заданий в разные виды учебной деятельности, использование активных и творческих методов, обогащение словарного запаса, поддержка мотивации к речевому самовыражению и создание благоприятной речевой среды. Работа по развитию речевой культуры не должна быть формальной — она должна быть живой, интересной и личностно значимой для каждого ребенка. Только в этом случае можно ожидать устойчивого роста речевых и коммуникативных умений, что в дальнейшем положительно скажется не только на учебных успехах, но и на всей жизни ребенка.

Elm və Təhsil Tədqiqatları **VIII Respublika Elmi Konfransı / 19 iyun 2025 / 115-117**
Research in Science and Education **VIII Republican Scientific Conference / 19 iyun 2025 / 115-117**
https://doi.org/10.36719/2789-6919/2025/VIII

Gülay Hüseynova
Bakı Biznes Universiteti
magistrant
https://orcid.org/0009-0004-3847-6829
gulaynhuseynova04@gmail.com

Kameral vergi yoxlamalarının təşkilinin təkmilləşdirilməsi və qabaqcıl beynəlxalq təcrübədən istifadə istiqamətləri

Açar sözlər: *kameral, vergi yoxlamaları, vergi ödəyicisi, rəqəmsal texnologiyalar, innovativ yanaşma*
Keywords: *cameral, tax audits, taxpayer, digital technologies, innovative approach*

Müasir dövrdə qlobal miqyasda vergi inzibatçılığı sistemlərinin təkmilləşdirilməsi prosesi, o cümlədən kameral vergi yoxlamalarının effektivliyinin artırılması əsas prioritet istiqamətlərdən birinə çevrilmişdir. Bu istiqamətdə atılan addımlar vergi orqanlarının səmərəli fəaliyyətini təmin etməklə yanaşı, vergi ödəyiciləri ilə dövlət arasında qarşılıqlı etimada əsaslanan münasibətlərin formalaşmasına da xidmət edir. Kameral vergi yoxlamaları müasir vergi inzibatçılığında vergi nəzarətinin effektiv üsullarından biridir və onun təkmilləşdirilməsi milli vergi sistemlərinin inkişafında mühüm rol oynayır.

Kameral vergi yoxlamalarının təşkilində başlıca məqsəd vergi ödəyicisinin təqdim etdiyi bəyannamə məlumatlarının tamlığının və düzgünlüyünün təmin edilməsidir. Bununla yanaşı, vergi orqanları vergi öhdəliklərinin vaxtında və düzgün yerinə yetirilməsinə nəzarət funksiyasını həyata keçirərkən daha çevik və səmərəli metodlardan istifadə etməlidir. Bu məqsədlə kameral yoxlamaların metodologiyasının təkmilləşdirilməsi, rəqəmsal texnologiyaların tətbiqi, risk əsaslı yanaşmalar və

qabaqcıl beynəlxalq təcrübələrin öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. Azərbaycanda və digər ölkələrdə kameral yoxlamaların tətbiqi, əsasən, vergi ödəyicilərinin təqdim etdiyi məlumatların düzgünlüyünün avtomatlaşdırılmış sistemlər vasitəsilə yoxlanılması prosesinə əsaslanır. Kameral vergi yoxlamalarının təkmilləşdirilməsi üçün ilk növbədə rəqəmsal texnologiyaların tətbiqinin genişləndirilməsi zəruridir. Bu yanaşma vergi orqanlarının işinin səmərəliliyini artırır, yoxlama müddətini qısaldır və insan amilindən asılı olan səhvlərin sayını azaldır. Müasir dünya praktikasında kameral vergi yoxlamalarının avtomatlaşdırılmış sistemlər vasitəsilə aparılması geniş yayılmışdır. Xüsusilə OECD-yə üzv ölkələrin təcrübəsində vergi inzibatçılığı proseslərinə süni intellekt, böyük verilənlər (big data) analitikası və risklərin qiymətləndirilməsi mexanizmlərinin inteqrasiyası geniş tətbiq edilir. Bu texnologiyalar vasitəsilə vergi bəyannamələrindəki məlumatlar dərhal təhlil olunaraq potensial uyğunsuzluqlar müəyyən edilir və yüksək risk qrupuna daxil olan vergi ödəyiciləri xüsusi nəzarətə götürülür. Beynəlxalq təcrübədə İsveçrə və Almaniya kimi ölkələrdə kameral yoxlamalar yüksək səviyyədə rəqəmsallaşdırılmış və statistik metodlar, eləcə də süni intellekt tətbiq edilərək risk analizləri əsasında aparılır. Bu təcrübə göstərir ki, risklərin dəqiqliklə qiymətləndirilməsi və yoxlama obyektlərinin seçilməsi yoxlamaların effektivliyini artırır.

Azərbaycan Respublikasında da son illərdə bu istiqamətdə mühüm islahatlar həyata keçirilmişdir. Xüsusilə Milli Gəlirlər Baş İdarəsinin yaradılması ilə birlikdə vahid vergi inzibatçılığı sisteminə keçid, məlumatların elektronlaşması, "Vergi risklərinin idarə edilməsi sistemi"nin tətbiqi və digər innovativ addımlar kameral yoxlamaların daha effektiv şəkildə həyata keçirilməsinə zəmin yaratmışdır. Azərbaycan Respublikasında isə kameral vergi yoxlamalarının təşkili üçün informasiya texnologiyalarından istifadənin daha da inkişaf etdirilməsi məqsədilə

vergi sisteminin inteqrasiya olunmuş informasiya platformalarının yaradılması prioritetdir. Bu, vergi ödəyicilərinin maliyyə məlumatlarının real vaxt rejimində monitorinqini və yoxlamaların optimallaşdırılmasını təmin edir. Bundan əlavə, kameral yoxlamaların təkmilləşdirilməsində qanunvericilik bazasının yenilənməsi, xüsusilə yoxlama müddətlərinin və prosedurlarının sadələşdirilməsi, həmçinin vergi ödəyicilərinin məlumatlandırılması və təlimatlandırılması sahəsində tədbirlərin gücləndirilməsi önəmlidir. Bu, yoxlamaların şəffaflığını və qarşılıqlı etimadı artırır. İnnovativ yanaşmalara misal olaraq, süni intellekt və böyük verilənlər analitikasının tətbiqi qeyd edilə bilər ki, bu da vergi risklərinin daha dəqiq təyin edilməsinə və yoxlamaların daha səmərəli aparılmasına imkan yaradır. Bu metodların tətbiqi vergi inzibatçılığı prosesində insan faktoru ilə bağlı riskləri azaldır və idarəetməni təkmilləşdirir.

Nəticə etibarilə, Azərbaycanda kameral vergi yoxlamalarının səmərəliliyinin artırılması üçün innovativ texnologiyaların tətbiqi, qabaqcıl beynəlxalq təcrübənin adaptasiyası və risk əsaslı idarəetmənin gücləndirilməsi prioritet istiqamətlər kimi çıxış edir. Bu yanaşma vergi nəzarətinin çevikliyini və dəqiqliyini artırmaqla yanaşı, vergi ödəyiciləri ilə dövlət arasında inamın və əməkdaşlığın möhkəmlənməsinə xidmət edəcəkdir. Kameral vergi yoxlamalarının təkmilləşdirilməsi rəqəmsal texnologiyaların geniş tətbiqi, beynəlxalq qabaqcıl təcrübələrin öyrənilməsi və milli vergi qanunvericiliyinin modernləşdirilməsi ilə mümkündür. Bu isə vergi nəzarətinin daha effektiv, şəffaf və çevik təşkilinə şərait yaradır. Vergi qanunvericiliyinin təkmilləşdirilməsi ilə bərabər onun sadələşdirilməsi də mühüm əhəmiyyət kəsb edir. Belə ki, bu kiçik və orta sahibkarlıq subyektlərinin fəaliyyətinin daha da şəffaflaşdırılması yolu ilə, rəqəmsal platformalardan daha aktiv istifadə və müvafiq olaraq, nəzarətin səmərəliliyinin artırılmasına şərait yaradır.

Elm və Təhsil Tədqiqatları **VIII Respublika Elmi Konfransı / 19 iyun 2025 / 118-121**
Research in Science and Education **VIII Republican Scientific Conference / 19 iyun 2025 / 118-121**
https://doi.org/10.36719/2789-6919/2025/VIII

Qönçə Hacıyeva
Bakı Slavyan Universiteti
magistrant
https://orcid.org/0009-0006-8748-2250
hajiyeva.goncha@mail.ru

İngilis dilinin öyrənilməsində internetdən istifadənin rolu

Açar sözlər: *ingilis dili, xarici dil tədrisi, internet, istifadə, kompüter texnologiyaları*
Keywords: *English language, foreign language teaching, internet, use, computer technologies*

Artıq bir neçə ildir ki, təhsildə kompüter texnologiyalarından geniş formada istifadə olunur. Bu gün texnologiyanın sürətli inkişafı və insan həyatının asanlaşması həyatın hər sahəsində özünü göstərir. Texnologiya və xüsusilə də internet təhsil və təlim fəaliyyətlərinin keyfiyyətini artıran mühüm vasitədir. İnternet həyatımıza daxil olan, insanların ehtiyac duyduğu hər cür sosial ünsiyyəti təmin edən, eyni vaxtda əyləncəli və qarşılıqlı əlaqəni təmin edən kütləvi ünsiyyət vasitəsidir. Bildiyimiz kimi, dil öyrənmək uzun zaman və zəhmət tələb edən prosesdir və məhdud dərs saatları çərçivəsində bu prosesdə ləngimə olduğuna görə müəllimlər dil öyrənənləri həvəsləndirməli və onların müstəqil öyrənmələrini təmin etmək üçün hazırda dünyada mövcud olan məlumatları əldə etməyin yollarını öyrətməlidirlər, internetdəki hansı məlumatların etibarlı və lazımlı olduğunu bildirməli, şagird və tələbələrin tədris materiallarına onlayn çıxışını təmin etməli və onlayn mühitdə onlarla müzakirələr aparmalı və dil daşıyıcıları ilə ünsiyyəti təşkil etməlidirlər. İngilis dili bu gün dünyada ən çox öyrənilən dil kimi seçilir. Şagirdlər və tələbələr internetdən

istifadə etməklə müxtəlif səviyyələrdə ingilis dilini çox rahat formada öyrənmək imkanı əldə edirlər. Hər şeydən öncə internet bizə xarici dildə həm yazılı, həm də şifahi formada ünsiyyət ehtiyaclarının yaranmasında vacibdir. İngilis dilini onlayn öyrənmək ənənəvi sinif mühitində öyrənməklə müqayisədə bir çox üstünlüklər təklif edir. Şagirdlər və tələbələr öz sürətləri ilə öyrənə və davamlı olaraq bacarıqlarını təkmilləşdirmək üçün çətin dərsləri təkrarlaya bilirlər.

Ölkəmizdə və dünyanın müxtəlif yerlərində bütün dil öyrənənlər üçün ingilis dili dərslərinin təlim materiallarını tapmaq mümkündür. İnternet bu gün dil öyrənmək istəyən şəxsə onlayn lüğətdən tutmuş video dərs, interaktiv test və tələbələr üçün digər faydalı vasitələrə qədər müxtəlif tədris metodlarını təklif edir. O, həmçinin dünyanın digər ucunda olan ingilis dilini mükəmməl bilən insanlarla ünsiyyət qurmaq üçün unikal imkan təqdim edir. İngilis dilini öyrənmədə internetdən istifadə etmənin bir çox üstünlükləri vardır. Ən böyük üstünlük şagird və tələbələrin öz öyrənmə sürətlərinə nəzarət edə bilmələridir. İlk növbədə internet dili öyrənərkən qaranlıq qalan mövzu üzərində daha çox dayanmaq imkanını verir. Şagirdlər ingilis dilini ənənəvi formada sinifdə, məsələn, fənn proqramına uyğun olaraq öyrənərkən sinfin tempinə sadiq qalmalıdırlar. Yaxud da öz qavrama qabiliyyətlərindən daha yüksək sürətlə çalışmağa məcbur ola bilərlər. Ona görə də internet onlar üçün uyğun olan sürətlə dili öyrənməyə çətinlik olmadan mənimsəməyə imkan verir. Müxtəlif proqramlardan istifadə, onlayn dərslər, video və audio resurslar, sosial şəbəkələr, onlayn platformalar, mobil tətbiqlər, interaktiv lövhələr - bütün bunlar dil öyrənmə prosesini daha maraqlı və əyləncəli etməyə kömək edir, təlim prosesini daha effektiv və əlçatan edir. Dil tədrisində tətbiq edilən CALL (Computer Assisted Language Learning -kompüter dəstəyi ilə dil tədrisi) və CMC (Computer-Mediated Communication –

kompüter vasitəli ünsiyyət) ən effektiv və geniş yayılmış texnikalardandır.

İnternetin məlumat mənbələrindən istifadə edərək, onları tədris prosesinə yönəldib dərsdə bir sıra didaktik məsələləri səmərəli şəkildə həll etmək olar. Həmçinin, müxtəlif çətinlik səviyyəsində olan şəbəkə materiallarından bilavasitə istifadə edərək oxu vərdişlərini və bacarıqlarını formalaşdırmaq olar. İnternet şəbəkəsindən və bilavasitə müəllim tərəfindən hazırlanmış autentik səsli mətnlərin əsasında eşitmə qabiliyyətini təkmilləşdirərək, müəllim və ya tələbələr tərəfindən təqdim olunmuş internet materiallarının problemli müzakirəsi əsasında monoloq və dialoqla danışıq bacarığını inkişaf etdirmək olar. Təəssüf ki, şagird və tələbələrin birbaşa dərs zamanı internet şəbəkəsinin mənbələrindən istifadəsi çətinləşir. Buna görə də, bu vəziyyətdən ən yaxşı çıxış yolu dərsdə ənənəvi dərsliklərin təklif edə bilmədiyi və internet şəbəkəsindən öncədən tapılmış və hazırlanmış autentik materialların istifadə olunmasıdır. İnternetdən alınmış materiallardan dərs prosesində istifadə olunarsa, dərs daha rəngarəng olar. Təbii ki, tələbələrin xarici dil sahəsində dərsdənkənar fəaliyyətinin təşkili üçün internetin didaktik imkanları daha genişdir. Hər şeydən öncə internet bizə xarici dildə həm yazılı, həm də şifahi formada ünsiyyət ehtiyaclarının yaranmasında vacibdir. İnternetdən səmərəli istifadənin ən geniş yayılmış növlərindən biri dil daşıyıcıları ilə birgə teleünsiyyət layihələrinin təşkilidir. İnternet xarici dili öyrənənlər üçün autentik mətnlərdən istifadə etmək, dil daşıyıcılarını dinləmək və onlarla ünsiyyət saxlamaq, bir sözlə, təbii dil mühiti kimi unikal imkanlar yaradır.

Bu gün müasir dünya texnologiyanın təhsil sisteminə intensiv inteqrasiyasını tələb edir. Dili yaxşı öyrənmək istəyən hər bir kəs müasir elmi biliklərlə yanaşı, İKT vərdişlərinə də sahib olmalı və elmi biliklərə yiyələnmək üçün internetdən ciddi bir vasitə kimi yararlanmağı bacarmalıdır. İnternet zəngin məlu-

mat bazalarına malik olmaqla bərabər, həmin bazalara çıxışı təmin edən üsulları da özündə birləşdirir. Təlimin məqsədinə uyğun müvafiq texnoloji üsul və vasitələrin seçilməsi ilə tələbələrin motivasiyasını gücləndirmək, öyrənmə prosesini daha canlı və maraqlı etmək, beləliklə, materialın effektiv şəkildə mənimsənilməsinə nail olmaq mümkündür.

Elm və Təhsil Tədqiqatları **VIII Respublika Elmi Konfransı / 19 iyun 2025 / 122-123**
Research in Science and Education **VIII Republican Scientific Conference / 19 iyun 2025 / 122-123**
https://doi.org/10.36719/2789-6919/2025/VIII

Yeganə Məhərrəmova
Odlar Yurdu Universiteti
magistrant
https://orcid.org/0009-0004-8692-0760
myegane@iternet.ru

Pandemiyanın sahibkarlıq sektoruna təsiri: cari vəziyyət və inkişaf perspektivləri

Açar sözlər: *pandemiya, sahibkarlıq, iqtisadi sabitlik, post-pandemiya, rəqəmsal transformasiya*
Keywords: *pandemic, entrepreneurship, economic stability, post-pandemic, digital transformation*

1. Pandemiyanın ümumi iqtisadi təsiri və sahibkarlıq.

COVID-19 pandemiyası, qlobal miqyasda olduğu kimi, Azərbaycanda da sahibkarlıq fəaliyyətinə mənfi təsir göstərmişdir. Xüsusilə xidmət sektoru, turizm və iaşə sahələri ciddi geriləmə ilə üzləşmişdir. Bu sahələrdə fəaliyyət göstərən bir çox müəssisə müvəqqəti olaraq bağlanmış, bəziləri isə fəaliyyətlərini tamamilə dayandırmalı olmuşdur. Digər tərəfdən, bəzi sahibkarlar bazar mövqelərini itirmiş və gəlirlərində əhəmiyyətli azalma müşahidə olunmuşdur.

2. Rəqəmsallaşma və yeni iqtisadi yanaşmalar. Pandemiya dövründə ənənəvi biznes modelləri dəyişməyə məcbur olmuş, müəssisələr sürətlə rəqəmsal texnologiyalara uyğunlaşmağa başlamışdır. Xüsusilə onlayn satış platformalarının artması və xidmətlərin elektron formada təqdim olunması, yeni iqtisadi modelin formalaşmasına zəmin yaratmışdır. Texnologiyanı tez mənimsəyən sahibkarlıq subyektləri bu dəyişiklikdən daha çox faydalanmışdır.

3. Dövlətin Antiböhran Dəstək Strategiyaları. Azərbaycan hökuməti pandemiyanın təsirlərini azaltmaq üçün sahibkarlara

yönəlik bir sıra iqtisadi dəstək tədbirləri həyata keçirmişdir. Bu dəstəyə vergi güzəştləri, faizsiz və ya dövlət zəmanətli kreditlər, eləcə də kredit tətilləri daxil olmuşdur. Sözügedən tədbirlər, xüsusilə mikro və kiçik müəssisələrin ayaqda qalmasına yardımçı olmuşdur.

4. KOB-ların mübarizə qabiliyyəti və davamlılığı. Kiçik və orta sahibkarlıq subyektləri iqtisadi dalğalanmalara qarşı daha həssas olsalar da, onların çevik idarəetmə strategiyaları böhrana adaptasiyada mühüm rol oynamışdır. Bu dövrdə yerli bazara uyğunlaşmaq bacarığı və məhdud resurslardan səmərəli istifadə etməyi bacaran KOB-lar fəaliyyətlərini davam etdirə bilmişdir. Dövlət və QHT-lər tərəfindən bu müəssisələrə treninqlər, hüquqi məsləhətlər və maliyyə təşviqləri təqdim olunmuşdur.

5. Post-pandemiya dövründə inkişaf istiqamətləri. Pandemiya dövründən sonra yeni reallıqlar formalaşmış və bu da sahibkarlıq üçün innovativ inkişaf imkanları yaratmışdır. Rəqəmsallaşma, çevik iş modelləri və risk idarəetmə bacarıqları gələcək üçün prioritet istiqamətlərdən biri kimi dəyərləndirilir. Bununla yanaşı, qarşıdakı dövrlərdə mümkün böhranlara qarşı qabaqlayıcı tədbirlərin hazırlanması və davamlı strategiyaların tətbiqi vacib olacaqdır.

Pandemiya sübut etdi ki, sahibkarlıq fəaliyyəti təkcə iqtisadi proses deyil, həm də sosial və strateji təhlükəsizlik elementidir. Gələcəkdə bu sektorun inkişafı yalnız iqtisadi deyil, həm də sosial davamlılıq və milli iqtisadi təhlükəsizlik baxımından mühüm əhəmiyyət daşıyacaqdır.

Elm və Təhsil Tədqiqatları **VIII Respublika Elmi Konfransı / 19 iyun 2025 / 124-126**
Research in Science and Education **VIII Republican Scientific Conference / 19 iyun 2025 / 124-126**
https://doi.org/10.36719/2789-6919/2025/VIII

Murad Kərimov
Bakı Slavyan Universiteti
magistrant
https://orcid.org/0009-0004-4998-6357
karimovmurad@gmail.com

Gənclərin sosial identiklik mühitinə təsir edən amillər

Açar sözlər: *sosial identiklik, gənclər, ailə, məktəb, dost qrupları, sosial media, mənsubiyyət, şəxsiyyət inkişafı, rəqəmsal identiklik, sosiallaşma*

Keywords: *social identity, youth, family, school, peer groups, social media, belonging, identity development, digital identity, socialization*

Sosial identiklik insanın özünü müəyyən bir sosial qrupa aid hiss etməsi və bu aidiyyət vasitəsilə öz şəxsiyyətini formalaşdırması prosesidir. Bu anlayış Henri Tajfel və Con Törnerin sosial identiklik nəzəriyyəsi ilə elmi şəkildə izah olunmuşdur. Gənclik dövrü isə bu identikliyin formalaşması baxımından xüsusi önəm daşıyır. Bu dövrdə fərdlər həm özlərini tanımağa, həm də cəmiyyət içində hansı qrupa mənsub olduqlarını anlamağa çalışırlar. Gənclərin sosial identikliyinə təsir edən amillər çoxşaxəlidir və onların şəxsiyyətinin inkişafında böyük rol oynayır. Bu amillər arasında ailə, məktəb, yaşıdlar və sosial media mühüm yer tutur.

Ailə mühiti: gəncin ilk sosial identiklik təcrübəsi ailədə başlayır. Valideynlərin uşağa yanaşması, ona verdiyi dəyərlər və sosial davranış modelləri bu prosesin əsasını təşkil edir. Ailə daxilində hiss olunan qəbul, sevgi və dəstək gəncin özünü cəmiyyətdə dəyərli hiss etməsinə şərait yaradır. Əgər ailə mühiti demokratik və anlayışlıdırsa, gənc öz fikrini sərbəst ifadə etməyi

və fərqli sosial rolları qəbul etməyi öyrənir. Əksinə, avtoritar və ya diqqətsiz ailələrdə böyüyən gənclərdə sosial identiklik ya zəif formalaşır, ya da radikal formalara meyillənir.

Məktəb və təhsil mühiti: təhsil müəssisələri gənclərin sosial identikliyinin inkişafında ikinci əsas sosiallaşma sahəsidir. Məktəb təkcə bilik vermir, həm də sosial münasibətlərin və davranış qaydalarının öyrədildiyi məkandır. Burada gənclər müxtəlif sosial qruplarla ünsiyyətə girərək öz yerini tapmağa çalışırlar. Müəllimlərin yanaşması, məktəbdəki sosial atmosfer və rəhbərliyin dəyərləri gənclərin özlərini necə hiss etdiklərinə birbaşa təsir edir. İnklüziv və dəstəkləyici məktəb mühiti gənclərdə tolerantlıq və sosial məsuliyyət hissini gücləndirir. Məktəbdə əldə olunan uğurlar və ya uğursuzluqlar da onların özlərini dəyərli və ya əksinə, dəyərsiz hiss etmələrinə səbəb ola bilər.

Yaşıdlar və dost çevrəsi: yaşıdlarla ünsiyyət gənclər üçün ən təsirli sosial faktorlardan biridir. Gənclik dövründə dost münasibətləri, qrup mənsubiyyəti və qarşılıqlı dəstək ön plana keçir. Gənclər yaşıd qrupları vasitəsilə özlərini sınayır, sosial rolları mənimsəyir və mənsubiyyət hissi qazanırlar. Bu qruplar eyni zamanda fərqlilikləri qəbul etmək və ya qrup normalarına uyğunlaşmaq təzyiqini də gətirə bilər. Yaşıd qruplarında qəbul olunmaq istəyi gənclərin davranışlarını ciddi şəkildə dəyişə bilər. Bəzi hallarda gənclər öz şəxsi dəyərlərini və istəklərini qurban verərək yalnız qrupa uyğunlaşmaq üçün müəyyən davranış modellərini mənimsəyə bilərlər.

Sosial media və texnologiya: müasir dövrdə sosial identiklik yalnız real həyatda deyil, eyni zamanda virtual məkanda da formalaşır. Sosial media platformaları (məsələn, Instagram, TikTok, YouTube və s.) gənclər üçün həm özünüifadə vasitəsi, həm də fərqli qruplara mənsub olma imkanı təqdim edir. Onlar bu platformalar vasitəsilə öz maraq dairələrini paylaşır, fikirdaşlarla əlaqə qurur və sosial qəbul axtarırlar. Bununla belə,

sosial media gənclər üzərində psixoloji təzyiqlər də yarada bilər. Özünü daim müqayisə etmək, bəyənilmək istəyi və süni ideallara çatmağa çalışmaq sosial identiklikdə narahatlıqlar yarada bilər. Rəqəmsal identikliklə real həyatda formalaşan identiklik arasında uyğunsuzluq isə daxili kimlik böhranlarına səbəb ola bilər.

Elm və Təhsil Tədqiqatları **VIII Respublika Elmi Konfransı / 19 iyun 2025 / 127-129**
Research in Science and Education **VIII Republican Scientific Conference / 19 iyun 2025 / 127-129**
https://doi.org/10.36719/2789-6919/2025/VIII

Narınc Cəbrayılova
Bakı Slavyan Unversteti
magistrant
https://orcid.org/0009-0003-0759-8826
narinccebrayi238@gmail.com

Müstəqillik dövrü istiqlal mövzusunun ədəbiyyatımıza təsiri və istiqlal poeziyasının nümayəndələri

Açar sözlər: *poeziya, fəlsəfə, milli birlik, bədii təhlil*
Keywords: *poetry, philosophy, national unity, artistic analysis*

Məlum olduğu kimi, Azərbaycan ədəbiyyatında müstəqil dövlətçilik ideyaları XX əsrin əvvəllərindən etibarən formalaşmağa başlamışdır. Mollanəsrəddinçilər və cümhuriyyətçi yazıçılar Azərbaycan ədəbiyyatında dövlət müstəqilliyi ideyalarının möhkəm təməllərini formalaşdırmışlar. Ona görə də yeni tarixi epoxada "Molla Nəsrəddin" ədəbi məktəbinin açıq-aydın şəkildə meydana qoyduğu azərbaycançılıq ideyaları, ölkənin coğrafi sərhədlərinin real olaraq təsəvvür edilməsi və qorunub möhkəmləndirilməsi, ana dili, milli oyanışı ilə bağlı böyük ideallar müstəqil dövlətçiliyə nail olmağın və bu dövrün özünəməxsus ədəbiyyatını yaratmağın həlli zəruri olan problemlərə çevirmişdir. Vaxtilə böyük demokrat yazıçı, milli istiqlal ədəbiyyatının sərkərdəsi Cəlil Məmmədquluzadənin azərbaycançılıq ideyalarına və istiqlal u*ğrunda mübarizəyə h*əsr edilmiş əsərləri və mollanəsrəddinçilik hərəkatının - azərbaycançı milli-mənəvi birliyi və müstəqil dövlət ideyasını özündə birləşdirən çağırışları yeni şəkildə böyük ədəbiyyatı düşündürməyə başlamışdır. İlk növbədə sovet hakimiyyəti illərində ədəbiyyatda canlandırılan vətənpərvərlik ideyalarının dərin mahiyyətindəki müstəqillik düşüncəsinə də yaradıcılıqla nəzər salınmışdır. Xüsusən, XX əsrin yetmişinci illərinin sonu

və səksəninci illərinin əvvəllərində ölkəmizə rəhbərlik etmiş ulu öndər Heydər Əliyevin apardığı məqsədyönlü siyasət nəticəsində Azərbaycanda dövlət səviyyəsində dəstəklənən və uğurla həyata keçirilən ümummilli ideyaların, azərbaycançı mövqenin Azərbaycan ədəbiyyatı və ictimai fikrindəki böyük əks-sədası, xalqı gələcək dövlət müstəqilliyinə hazırlamaqda mühüm əhəmiyyət kəsb etmiş ədəbiyyatın enerjisi müasir ədəbi prosesi idarə etmək üçün daha da canlandırılmışdır. Ədəbiyyatda milli ruh, vətəndaşlıq mövqeyi, həyəcan, çağırış, birlik və vətənpərvərlik duyğusu qüvvətlənmişdir. 20 yanvar, şəhidlik və milli istiqlal mövzusu, azərbaycançılıq duyğusu Azərbaycan ədəbiyyatının tarixi salnaməsinə yeni motivlər, fərqli obrazlar, təsirli səhifələr əlavə etmişdir. Bəxtiyar Vahabzadənin "Şəhidlər" poeması elegiya yox, milli istiqlal marşının nidaları kimi səslənmişdir. Xəlil Rza Ulutürkün "Davam edir 37" şeirində hələ ayaqda olan sovet imperiyasına qarşı milli istiqlala köklənmiş xalqımızın dönməz hərbə-zorbası əks-səda tapmışdır. Məmməd Arazın, Sabir Rüstəmxanlının, Hidayətin, Zəlimxan Yaqubun, Rüstəm Behrudinin və başqalarının şeirlərindəki imperiya mifini dağıdan düşüncələr, kəsərli fikirlər Azərbaycan ədəbiyyatında müstəqil dövlətçilik qayəsinin dərinləşməsinə və möhkəmlənməsinə xidmət etmişdir. Məmməd Aslanın "Ağla, qərənfil, ağla" şeiri 20 yanvar faciəsinin ümummilli elegiyası kimi yaranmışdır. Hidayətin hazırlayıb nəşr etdirdiyi "Qara yanvar", "Didərginlər" kitablarında toplanmış əsərlər bütünlüklə müharibə və qaçqınlıq mövzusuna həsr olunmuşdur. Qarabağ - müharibə mövzusu olmaqdan çox, milli istiqlal mövzusuna çevrilmişdir. Xocalı faciəsi ilə Azərbaycanda ölkənin ərazi bütövlüyü uğrunda aparılan mübarizənin faciəli səhnələri ədəbiyyata gəlmişdir. Nurəngiz Günün "Xocalı simfoniyası" əsəri anaların fəryadı üstündə köklənmişdir. Azərbaycan ədəbiyyatında çağırış, səfərbərlik poeziyası qüvvətlənmiş, publisistikanın vətəndaşlıq kəsəri artmışdır. Azərbaycan ədəbiyyatında dövlət müstəqilliyinin başlanğıc illərinin bədii nəsrinin ilk addımları atılmışdır.

Anarın "Otel otağı" romanında Qarabağ müharibəsinin fonunda ölkəni tərk edib getmiş ziyalının faciəli aqibəti təqdim olunmuşdur. Sabir Əhmədlinin "Qara yanvar hekayələri", İsi Məlikzadənin "Məndən nigaran qalmayın", Əlabbasın "Halal qan", Xalidə Hasilovanın "Yollara yağan qanlı qərənfillər", "Kəşfiyyatçı" və sair hekayələrində artıq müharibə mövzusunun ayrı-ayrı təsirli məqamları təsvir edilmişdir. Yeni tarixi mərhələdə qaçqınlıq da öz ədəbiyyatını yaratmışdır. Elçin Hüseynbəylinin "Qumru quşu", "Kəndə gün çıxanda qayıdacığıq", Əli Səmədlinin "Gəlin gəlir", Kamran Nəzirlinin "Qoca uşaq" hekayələrində qaçqın həyatının məşəqqətli təbloları canlandırılır. Sabir Əhmədlinin "Kütlə" romanı müstəqillik uğrunda mübarizənin bütün mahiyyəti ilə, real şəkildə dərk olunmasına xidmət edir. Müstəqillik dövrü Azərbaycan ədəbiyyatının təşəkkülü və inkişafında altmışıncılar və yetmişincilər ədəbi nəsilləri ilə yanaşı, yeni tarixi epoxanın meydana çıxardığı müasir yazıçılar nəsli də yaxından və fəal iştirak edir. Daha doğrusu, müstəqillik dövrü Azərbaycan ədəbiyyatı öz yaradıcılarını da yetirib formalaşdırmışdır. Afaq Məsud, Vaqif Bayatlı Odər, Ramiz Rövşən, Aqil Abbas, Rəşad Məcid, Rüstəm Behrudi, Əjdər Ol, Elxan Zal, Seyran Səxavət, İlqar Fəhmi, Səyyad Aran, Nəriman Əbdülrəhmanlı, Sara Oğuz, Adil Cəmil, Rafiq Yusifoğlu, Yunis Oğuz, Vaqif Məmmədov, Xanəli Kərimli, Muxtar Qasımzadə, Elçin Hüseynbəyli, Əliabbas, Asim Yadigar, İbrahim Yusifoğlu və başqaları müstəqillik dövrü ədəbiyyatının əsas aparıcı arsenalını təmsil edirlər. Eyni zamanda, bilavasitə müstəqilliyin yetirməsi olub, bu dövr ədəbiyyatını yaradanların sıralarında özlərini təsdiq edən Salam Sarvan, Qulu Ağsəs, Səlim Babullaoğlu, Qanturalı, Şəmil Sadiq, Əkbər Qoşalı, Şərif Ağayar, Aqşin Yenisey, Seymur Baycan, Müşfiq Xan, Elxan Qaraqan, Murad Köhnəqala, Nərgis, Rasim Qaraca, Elxan Yurdoğlu, Qismət, Fərid Hüseyn və başqaları artıq böyük ədəbiyyat yollarında həvəslə və inadla çalışmaqda davam edirlər.

Elm və Təhsil Tədqiqatları **VIII Respublika Elmi Konfransı / 19 iyun 2025 / 130-133**
Research in Science and Education **VIII Republican Scientific Conference / 19 iyun 2025 / 130-133**
https://doi.org/10.36719/2789-6919/2025/VIII

Nurşən Məmmədxanova
Bakı Dövlət Universiteti
bakalavriat
https://orcid.org/0009-0005-0239-5733
nursnmmmdxanova@gmail.com

Azərbaycan türkcəsi inkişaf tarixi

***Açar sözlər**: dil, Şah İsmayıl, M.Ə.Rəsulzadə, türk dili, məktəb*

***Keywords**: language, Shah İsmayıl, M.A.Rasulzade, türkish language, school*

Dil millətin ruhu, birinci dərəcəli zahiri əlamətidir. Xalqın milli psixologiyası, xarakteri, təfəkkür tərzi, bədii yaradıcılıq, dini və mənəvi durumu dil vasitəsilə meydana çıxır. Zaman keçdikcə bəzi dillər "ölü dillər" siyahısına daxil olarkən, bəzi dillər isə fəallığını qoruyur. Hazırda dünyada mövcud olan 6700 dilin yalnız 5%-dən fəal istifadə edilir. Bu dillərdən biri də Azərbaycan dilidir. Azərbaycan dili Türk dili ailəsinin Oğuz yarımqrupuna daxildir və dünyada yaşayan 50 milyondan çox azərbaycanlını birləşdirir. Azərbaycan dili böyük inkişaf yolu keçən qədim ədəbi dillərdən biridir. "Kitabi Dədə Qorqud" dastanının dili ədəbi dilimizin şifahi növü kimi qəbul edilərsə, hazırda ünsiyyət dilimizin yaşı 1300 ildən çoxdur. Azərbaycan yazılı ədəbi dilinin tarixi isə hələlik əldə olan materiallara görə 13-cü əsrdən başlayır.

Azərbaycan xalqı islam dinini qəbul etdikdən sonra ərəb dili müsəlman aləminin ortaq dilinə çevrilmiş, nəticədə türk dilimizə ərəb və fars sözləri qarışmışdır. Tarixin hər bir dövründə öz varlığını qoruyan dilimiz öz çiçəklənmə dövrünü Şah İsmayılın banisi olduğu Səfəvilər dövründə yaşamışdır. Dövlətçilik tariximizin parlaq səhifələrindən olan Səfəvilər dövlətinin

dövlət dili türk dili olmuş, Şah İsmayıl əsərlərinin əksəriyyətini türk dilində yazmışdır. Şah İsmayılın fərmanlarının türk dilində verilməsi, verdiyi fərmanlarda "fərman" əvəzinə "sözümüz", əmr əvəzinə "buyruq" sözünün işlədilməsi türk dilinin böyük nüfuza malik olduğunu göstərir. Ki, bu sözlər məhz türk sözləridir. Səfəvi dövlətinin növbəti dövrlərində də türk dili öz nüfuzunu saxlamışdır. Bunu səyyah gündəliklərində, hətta erməni mənbələrində belə görmək olur. İtalyan səyyahı Pietro Dello Valle 1617-ci ildə Qəsri-Şirindən keçərkən sərhəddəki əsgərlərlə qarşılaşır. O yazırdı: "Süvarilər türkcə danışır. Bu dil dövlət və hərb dilidir". O, saraya gəlmiş, Şah Abbasla görüşmüşdür. Yazırdı: "Şah məndən türk dilini bilib bilmədiyimi soruşdu, xoş gəldin, səfa gəldin dedi". Pietro bunları Azərbaycan türkcəsində yazmışdır. Digər bir səyyah Don Qarsiya Desilva yazır: "Şah Lahor elçisi ilə türk dilində danışırdı. Bu dil sarayda işlək dildir". Hər halda bu mənbələr sözdə guya uydurulan "Şah Abbasın zamanında dövlət farslaşmışdır" yalanını puç edir. Şah Səfinin dövründə də türk dili öz nüfuzunu qorumuşdur. Adam Oleari səyahətnaməsində yazır: "İsfahanda şah sarayında təsadüfən fars sözü eşidə bilərsən. Şah Səfi hər kəslə türkcə danışır. Farslar belə çalışır ki, türkcə danışsın". Bunlar gündəliklərdə yazılanların sadəcə az bir hissəsidir. Dilimizin inkişafı Əfşarlar dövründə də davam etmişdir. Nadir şahın Pir Məhəmməd xanla söhbətinə, onun danışıq dilinə diqqət edək. Kritli İbrahimin salnaməsində Nadir şahın bu söhbətinə yer verilib: "İşday bu xandur, Pir Məhəmməd xan, Herat xanı. Yaxşi kişidur, yaxşi yola gedupdur. Sizin ilende yaxşi yola ketmek gerekdur. Pir Məhəmməd xan, bu kişilaru görürsan. Bunlar mənimdur."

Məmaliki Məhruseyi Qacar dövlətinə nə qədər fars donu geyindirilməyə çalışılsa da, qaynaqlar öz sözünü deyir. Mehdi Nəvvad Tehraninin yazdıqlarına görə, Fətəli şah Qacar Türk dilindən rəsmi dil və rəsmi yazı dili kimi istifadə etmiş,

fərmanlarını türkcə vermişdir. O demişdir: "Türkcə öyrənin, əks halda, işdən qovulacaq və cəzalandırılacaqsınız". Nəsirəddin şahın xüsusi həkimi olan Polak "Polakın səyahətnaməsi" adlı əsərində yazır: "İranın müxtəlif yerlərində fars, türk, erməni, xaldey və ərəb dillərində danışırlar. Lakin türk dili digər dillərə nisbətən daha geniş yayılmışdır".

Azərbaycanın Rusiya tərəfindən işğalı ilə ölkəmizdə rusdilli məktəblərin açılmasına, dilimizin sıxışdırılmasına başlansa da, AXC-nin qurulması ilə dilimiz inkişafına davam etdi. Doğma dilimizin qorunması, saflığı və inkişafı yolunda mübarizədə M.Ə Rəsulzadənin misilsiz xidmətləri olmuşdur. O yazırdı: "Dil millətin canıdır. 1 dili öldürmək 1 milləti öldürmək deməkdir". O, əcnəbi sözlərin yerli-yersiz dilə gətirilməsinin əleyhinə idi. 27 iyun 1918-ci ildə "Dil haqqında" verilən qərara əsasən "Dövlət dili türk dilidir" qanunu müəyyənləşdi. Bundan əlavə, Rəsulzadənin ortaq türk dili və ortaq əlifba haqda fikirləri bu gün də öz aktuallığını itirməyib. 1919-cu ildə Müsavat partiyasının qurultayında demişdi: "Biz ortaq türkcə yaratmalıyıq". Rəsulzadə yaxşı bilirdi ki, dil birliyi mənəvi birliyin qapısıdır.

Azərbaycan dilinin inkişafı və geniş sahədə tətbiqi ulu öndər H.Əliyevin fəaliyyətilə bağlıdır. O, rəhbərliyə gəldiyi ilk günlərdən dil məsələsinə çox diqqətlə yanaşmış, dilimiz dövlət dili elan olunmuşdur. BDU-nun 50 illiyinə həsr olunmuş yubiley toplantısında ana dilində danışmış, 75 illik yubileyinə həsr olunan təntənəli mərasimdə demişdir: "Dilini sevən, milli ruhla yaşayan insanlar, doğrudan da, bunu böyük hadisə kimi qəbul etdilər". H.Əliyevin təklifilə 1978-ci il Konstitusiyasının 73-cü maddəsində belə redaksiya verilir: "Azərbaycan SSR-nin dövlət dili Azərbaycan dilidir". 1995-ci il 12 noyabr Konstitusiyasının 21-ci maddəsinə əsasən, Azərbaycan dili dövlət dili kimi təsdiq edilmişdir. H.Əliyevin davamçısı İ.Əliyevin 2004-cü il yanvarın 12-də imzaladığı "Azərbaycan dili" haqqında fərmanı və 2018-ci il 1 noyabrda imzaladığı fərman "Azərbaycan dilinin qorun-

masına və dövlət dilindən istifadənin təkmilləşdirilməsinə" yönəldilmişdir.

Bugünkü günümüzdə öz ana dilində danışmaq istəyib, təqibə məruz qalan milyonlarla soydaşımız var. Azərbaycan türklərinin ən çoxluq təşkil etdiyi İranda bu gün soydaşlarımız ana dilində təhsil ala bilmir, ictimaiyyətdə türkcə danışmaları belə qadağan olunur. B.Vahabzadənin "Mərziyyə" poemasını həsr etdiyi Üskülü Mərziyyə keçən əsrdə məktəbdə ana dilində dərs demiş, nəticədə təqib olunmuş və öldürülmüşdür.

2024-cü il 4 noyabrda Kərkükdə yaşayan soydaşlarımız üçün Məhəmməd Füzuli adına türkdilli məktəb açıldı.

2025-ci il 22 yanvarda Əfqanıstandakı soydaşlarımız üçün "Əfşar ulduzu" adlı anadilli məktəb fəaliyyətə başladı. İnanırıq ki, Təbrizdə də anadilli məktəblər açılacaqdır.

Elm və Təhsil Tədqiqatları **VIII Respublika Elmi Konfransı / 19 iyun 2025 / 134-137**
Research in Science and Education **VIII Republican Scientific Conference / 19 iyun 2025 / 134-137**
https://doi.org/10.36719/2789-6919/2025/VIII

TƏBİƏT ELMLƏRİ
NATURAL SCIENCES

Qorxmaz Hüseynov
Naxçıvan Dövlət Universiteti
kimya üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0002-1028-2078
huseynli72@list.ru
Pakizə Məmmədova
ARETN Təbii Ehtiyatlar İnstitutu
https://orcid.org/0009-0006-2919-527X
pakizememmedova98@gmail.com
Fidan Seyidova
ARETN Təbii Ehtiyatlar İnstitutu
https://orcid.org/0009-0003-9182-4362
fidann2710@gmail.com

Mis tiostibiat birləşməsinin Ph-dan asılılığının təyini

Açar sözlər: *mis tiostibiat, natrium tiostibiat, turş mühit, əsasi mühit, tartrat turşusu*
Keywords: *copper thiostibiat, sodium thisotibiate, acidic medium, basic medium, tartaric acid*

Tezisdə natrium tiostibiatdan istifadə etməklə mis tiostibiat birləşməsi sintez olunması haqqında məlumat verilir. Mis tiostibiatın iki mühitdə turş və üzvi mühitdə sintezi aparılmış və reaksiya tənlikləri qeyd olunmuşdur. Nümunənin pH-dan asılılığı hesablanıb, cədvəl şəklində qeyd olunmuşdur. Təbəqələrin termiki emalı 100-550^{0}C temperatur aralığında aparılmışdır.

https://doi.org/10.36719/2789-6919/2025/VIII

$Cu_{12}Sb_4S_{13}$ və Cu_3SbS_4 nanokristallarının fiziki-kimyəvi xüsusiyyətləri ətraflı araşdırılmışdır (Walelign, 2014).

Ona görə də bu birləşmələr elektron qurğularında yarımkeçirici materiallar kimi istifadə olunması perspektivli hesab edilir (Babanly, 1993). Müəyyən miqdar mis tiostibiatın (Cu_3SbS_4) nümunələrinin fiziki kimyəvi analizləri yerinə yetirilmişdir. Birləşmə hava oksigeni (havanın verilmə sürəti 30 ml /dəq) mühitində müəyyən temperatura qədər qızdırılmışdır (Rzayeva, 2024).

Təcrübi hissə. Bunu nəzərə alaraq mis(I) tetratioantimoniatin (Cu_3SbS_4) alınmasında ilkin komponent olaraq mis(I) xloridin xlorid turşusunda $CuCl \cdot HCl$ ($H[CuCl_2]$), mis(I) xloridin ammonyakda ($[Cu(NH_3)_2]Cl$) məhlulundan və Na_3SbS_4 birləşmələrinin sulu məhlullarından istifadə edilmişdir. Məhlulda müvafiq birləşmələrin hidrolizinin qarşısını almaq üçün kompleksəmələgətirici olaraq tartrat turşusu məhlulundan istifadə edilmişdir. Cu_3SbS_4 nazik təbəqəsini almaq üçün səthi mexaniki və kimyəvi təmizlənmiş şüşə altlıq üzərində kimyəvi çökdürmə həyata keçirilmişdir. Birləşmənin çökdürülmə şəraiti mühitin pH-nın geniş (pH=0÷14) intervalında tədqiq edilmişdir. Çökdürmə reaksiyaları 80^0C temperaturda 120 dəq. müddətində başa çatdırılmışdır.

Cu_3SbS_4 birləşməsinin turş və əsasi mühitdə alınma reaksiyalarının tənliklərini ümumi şəkildə aşağıdakı kimi yazmaq olar:

$$3H[CuCl_2]+Na_3SbS_4 \rightarrow Cu_3SbS_4+3NaCl+3HCl \quad (1)$$

$$3[Cu(NH_3)_2]Cl+Na_3SbS_4 \rightarrow Cu_3SbS_4+3NaCl+6NH_3 \quad (2)$$

(1) reaksiya tənliyinə uyğun olaraq pH-ın 1 ÷ 5,0 intervalında bir sıra təcrübələr aparılmışdır. Na_3SbS_4-ün 0,01 M

https://doi.org/10.36719/2789-6919/2025/VIII

qatılıqlı məhlulu üzərinə ekvivalent miqdarda 0,01 M qatılıqlı $H[CuCl_2]$ məhlulu əlavə edilərək 80^0C temperaturda beş dəqiqə maqnit qarışdırıcısı ilə qarışdırılmışdır. Məhlulda turş mühit (pH=1 ÷ 5,0) 0,1 M HCl məhlulu ilə nizamlanmışdır.

(2) reaksiyası üzrə Cu_3SbS_4 birləşməsinin əsasi mühitdə alınmasını tədqiq etmək üçün Na_3SbS_4 və mis(I) xloridin amonyakda ($[Cu(NH_3)_2]Cl$) məhlullarından istifadə edilmişdir. Reaksiya qarışığı üzərinə 0,1 M ammonyak məhlulı əlavə etməklə məhlulun pH-ı 8,0-10.5 səviyyəsinə kimi dəyişdirilmişdir. Müəyyən edilmişdir ki, əsasi mühitdə Cu_3SbS_4 birləşməsi kolloid formada əmələ gəlir. Buna görə də Cu_3SbS_4 çöküntüsünü məhluldan ayırmaq çətin olur. Bunu nəzərə alaraq, məhlulun pH-nın 3-4 səviyyəsində saxlamaq üçün məhlula tartrat turşusu əlavə edilmişdir. Bu da məhlulda mis(II) hidroksoxloridin ($CuCl(OH)$) əmələ gəlməsinin və alınan Cu_3SbS_4 birləşməsinin hidrolizə uğramasının qarşısını alır.



https://doi.org/10.36719/2789-6919/2025/VIII

Alınmış təcrübi nəticələrə əsasən, Cu_3SbS_4 təbəqəsinin alınmasına mühitin pH-nın təsiri öyrənilmişdir (şək. 1)

Şək. 1. Cu_3SbS_4 təbəqəsinin alınmasının mühitin pH-dan asılılığı

Müəyyən edilmişdir ki, Cu_3SbS_4 birləşməsinin alınması üçün əlverişli şərait olaraq mühitin pH-ı 2÷5 aralığında saxlanılması daha məqsədəuyğundur. Təcrübələrin nəticələrindən aydın olmuşdur ki, pH-ın 2÷5 intervalında süzüntüdə mis və sürmə ionlarına rast gəlinmir. Çöküntülər məhluldan ayrıldıqdan sonra təbəqələr yuyulmuş və qurudulmuşdur.

Ədəbiyyat

1. Aliyeva, S., Rzayeva, A. (2024). Synthesis of copper thiostibiate nano compound by sovotermal method. *Journal of Chemistry and Technologies*. Vol.32, No.2, p.304-311.
2. Babanly, M.B., Yusibov, YU.A., Abishev, V.T. (1993). Trekhkomponentnye khal'kogenidy na osnove medi i serebra. BGU.
3. Walelign, W., Dong-Hau, K. (2014). Proacess limitation for p-type CuSbS2 semiconductor with high electrical mobility of 20 cm2 V−1. *Materials Research Bulletin*, V. 53, p. 290-294.

Elnurə Səfərova
Azərbaycan Dövlət Pedaqoji Universiteti
biologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0002-4151-1750
seferovaelnure@mail.ru
Sabiyə Cəbrayılzadə
Azərbaycan Dövlət Pedaqoji Universiteti
biologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0002-0374-4828
sabina.jbz@bk.ru

Biologiyanın tədrisində (VIII sinif) "Qan-damar sistemi" mövzusunda sistemləşdirmənin aparılması

Açar sözlər: *biologiya, tədris, qan-damar, sistemləşdirmə, mövzu*
Keywords: *biology, teaching, blood vessels, systematizetion, topic*

Dərslərin təşkilində müəyyən cədvəllərdən, sxemlərdən istifadə etmək şagirdlərin dərsə olan marağının artmasına səbəb olur. Şagirdləri bu şəkildə dərsə daha çox cəlb etmək, onlarda həvəs yaratmaq mümkündür. Bu üsullardan istifadə dərsin daha yaxşı şəkildə mənimsənilməsini təmin edir. Eyni zamanda, dərsin vaxtından daha məqsədli istifadə edilməsini təmin etmiş olur. Sxem və cədvəllərdən istifadə dərsin şagirdlərin yaddaşında qalması səviyyəsini artırır. VIII siniflərdə mövzuları tədris edərkən konkret olaraq sxemlərdən, cədvəllərdən, diaqramlardan istifadə edilə bilər. Mövzuların sistemə salınması, ümumiləşdirilməsinin aparılması mövzunun şagirdlərin hafizəsində uzun müddət qalmasını təmin edir. Cədvəl, diaqram, sxem tərtib edən zaman məntiqli, cəlbedici və

https://doi.org/10.36719/2789-6919/2025/VIII

maraqlı olmasına önəm vermək lazımdır. VIII sinif dərslik vəsaitində 8 bölmə verilmişdir: sinir və endokrin sistemləri, sümük və əzələ sistemləri, qan-damar sistemi, tənəffüs sistemi, həzm və maddələr mübadiləsi, ifrazat sistemi, cinsiyyət sistemi və duyğu orqanlarımız. Müəyyən bölmələri sxemlər və cədvəllər vasitəsilə sistemləşdirdik.

"Qan-damar sistemi" bölməsində şagirdlərə insanın qan-damar sisteminə aid olan ürək və qan damarlarının quruluşu və funkiyası öyrədilir. Qan-damar sistemi xəstəlikləri, qan qruplarının insan həyatında əhəmiyyəti aydınlaşdırılır. Həmin materialların "qan xəsətlikləri", "qan-damar sistemi" və "qan qrupları" adlanan sxemlərlə ümumiləşdirilməsi səmərəlidir.

Qan-damar sistemi bəhsini bu şəkildə sistemləşdirmək mümkündür:



https://doi.org/10.36719/2789-6919/2025/VIII



VIII siniflərdə "Qan damar sistemi" mövzusunu sistemləşdirmə ilə tədris etdikdə şagirdlər tərəfindən mövzunun mənimsənilməsi artmış olur. Lazım olan əsas biliklər dərk edilir



və uzun müddət ərzində şagirdlərin beynində sistemli şəkildə qalır. Sistemləşdirmənin aparılması dərsin vaxtından səmərəli şəkildə istifadə edilməsini təmin edir. Bu məqsədlə müəllim mövzunu sistemə salmalı və ümumiləşdirməlidir.

Elm və Təhsil Tədqiqatları **VIII Respublika Elmi Konfransı / 19 iyun 2025 / 142-145**
Research in Science and Education **VIII Republican Scientific Conference / 19 iyun 2025 / 142-145**
https://doi.org/10.36719/2789-6919/2025/VIII

Nərminə İsayeva
Azərbaycan Dövlət Aqrar Universiteti
https://orcid.org/0009-0002-4659-1953
isayeva-91.@ bk.ru

Acılıqotu bitkisinin yayılması və tibbi əhəmiyyəti (Ephedraceae)

Açar sözlər : *alkoloid, qlükozid, saponin, steroid, bioloji fəal maddə*

Keywords: *alkaloid, glucoside, saponin, steroid, biologically active substance*

Azərbaycanımızın zəngin torpaqlarında, yabanı və mədəni olaraq çox qiymətli bitki örtüyü məskunlaşıb. Bu bitkilər çox zəngin tərkibə malik olduqlarından əsrlər boyu yerli əhali tərəfindən müxtəlif məqsədlər üçün istifadə edilir. Uzun illər razyana, acılıqotu, biyan, acıqovuq, süsən, xardal, yovşan, boymadərən, dəlibəng, yarpız, sürvə və s. kimi bitkilərin faydalı xüsusiyyətləri araşdırılmışdır. Azərbaycan ərazisində 1000-ə yaxın dərman bitkisi müxtəlif xəstəliklərin müalicəsində tətbiq edilir. Bitkilərin zəngin kimyəvi tərkibi (alkoaloidlər, efir yağları, qlükozidlər, bioloji aktiv maddələr və saponinlər s.) onları daha da qiymətli edir.

Belə bitkilərdən biri də acılıqotudur. Mərkəzi Asiya, Cənubi Amerika, Avropa – ümumiyyətlə, Yer kürəsində 70 növü məlumdur. Respublikamızın ərazisində bu bitkinin 4 növü yabanı olaraq bitir (qatırquyruğuna bənzər acılıqotu, ikisünbül acılıqotu, orta və hündür böylu acılıqotu). Acılıqotu bitkisi əsasən istilik sevən bitkidir. Çin təbabətində bitki min illərdir "maxuanq" adı ilə işlənir. Bütün növləri yarpaqsız, buğumlu, yaşıl rəngli gövdəsi düz, qismən odunlaşmış və boz rəngli budaqlara malikdir. Yaxşı inkişaf etməmiş qarşı-qarşıya

https://doi.org/10.36719/2789-6919/2025/VIII

düzülmüş formada olan yarpaqları xırda pulcuqlar təşkil edir. Meyvələri - giləmeyvə şəkilli, kürə şəklində, yetişdikdən sonra qırmızı rəngdə olur. İki evli və ya birevli bitkidir. Yuxarıda adı çəkilən hər 3 növü tibdə geniş istifadə olunur .

Respublikamızın ərazisində bitki əsasən Lənkəran, Şamaxı, Abşeron və Kür-Araz ovalığında yayılıb. Çiçəkləmə dövrü və yetişməsi iyun və iyul aylarına təsadüf edir. Bitkinin bir növü Azərbaycanın dağlıq və dağətəyi rayonlarında bitir, hündürlüyü 4 m-ə çatır, Ephedra procera F. bitkisini misal göstərə bilərik. Ephedra procera-nın yaşıl hissələrində alkaloidlərin miqdarı 0,9 -1 ,6 %-dir. Respublikamızda acılıqotunun bir növü Kür-Araz ovalığında daşlıq-kəsəklik və qumluq yerlərdə geniş yayılmışdır.

Acılıqotu bitkisinin müxtəlif növlərində əsas etibarı ilə 2 alkaloidin (efedrin və psevdoefedrin) olduğu aşkar edilmişdir (C10H15 NO- efedrin alkaloidi).

İnkişaf etmiş yaşıl hissələrin tərkibində 0,6-3,3% alkaloid təşkil edir ki, bunun da 45-75% efedrindən ibarətdir. Odunlaşmış budaqlarında 0,9%, meyvələrin tərkibində 0,1%, toxumlarında 0,7% alkaloid var. Alkaloidlər bitkilərin müxtəlif hissələrində (yarpaq, çiçək, meyvə, toxum, qabıq, kök və s.)

olur. Bunları əksər hallarda sərbəst halda yox, üzvi turşuların duzları şəklində müəyyən edirik. Alma turşusu, tanin, kəhraba və s. göstərə bilərik. Eyni fəsilədən olan iki növ bitkinin biri alkaloidlə zəngin olduğu halda, digər növündə alkaloidlərin miqdarı az olur. Acılıqotu bitkisindən alınan efidrin hidroxlorid 0, 027-0 0,3 miqdarda tibbdə dərman preparatı kimi (həblər və toz şəklində), 5% məhlul halında 0,6-1,0 miqdarda dəri altına qan təzyiqini artırmaq məqsədi ilə vena daxilinə yeridilir. Bitkinin 10% məhlulunu 1-2 damcı göz bəbəklərində gözbəbəyini genişləndirici kimi tətbiq etmək mümkündür. Həzm sisteminə və qəbizliyə göstərdiyi təsir baxımından da tibbi vasitə kimi işlədilir. Yüksək antioksidant, antibakterial xüsusiyyətlərə malikdir.

Acılıqotunun tərkibində olan alkaloidlər sinir sistemini oyadır, arterial təzyiqi artıraraq bronxları gücləndirir, qanda şəkərin miqdarını yüksəldir. Bitkinin yarpaqlarından toplayaraq astma əleyhinə məlhəm hazırlanmasında istifadə edilir. Bir çox ölkələrdə acılıqotu bitkisinin müxtəlif xəstəliklərdə sidik qovucu, qızdırma salıcı və s. məqsədlə tibdə istifadəsi məlumdur. Həmçinin, bitkinin odunlaşmış budaqlarından və zoğlarından tərləmənin qarşısını almaq üçün istifadə edilir. Rus xalq təbabətində isə revmatizm, həzm sistemi, tənəffüs yolları və s.-də əhəmiyyəti olduğu göstərilir.

Qədim əlyazmalardan məlum olur ki, 5000 il bundan əvvəl çinli həkimlər acılıqotundan astma xəstəliyində istifadə edirmişlər. Eramızdan əvvəl 1700-1100-cü illərdə qədim romalılar belə hesab edirdilər ki, acılıqotu ömrü uzatmaq xüsusiyyətinə malikdir və müxtəlif fikirlər var idi. Zamanla şərqdə təbiblər bitkinin soyuqdəymədə baş ağrılarında, şiş və tərləmədə, burun tutulmalarında, sümük ağrılarında, öskürəkdə, qıcolmalarda təsirini aşkar etmişdilər.

XVI əsrdə acılıqotunu qurudulmuş halda Yaponiyaya gətirirlər. 1885-ci ildə yapon təbibi Haqayesi Haqai, alman

kimyaçısı Avqust Vilqelm Hofman (1818-1892) bitkinin tərkibində olan efedrin alkaloidini aşkar etdilər.

XX əsrin 20-ci illərində mütəxəssislər digər alkaloidləri aşkar etdikdən sonra avropalıların bitkiyə olan marağı artdı. Efedrin və onun izomerlərinin müxtəlif orqanlarda olan reseptorlara təsir etdiyi zaman noradrenalin və dofamin sintez olduğu aşkar edildi. Bununla bağlı olaraq müəyyən edildi ki, orqanizmdə spazmalar olduqda bitkidən hazırlanmış məlhəm ağciyərlərdə və bronxlarda genişlənməyə səbəb olur.

1894-1972-ci illərdə sovet geobotaniki P.S.Massaqetov Qazaxıstan və Orta Asiyada orta acılıqotunu və qatırquyruğu acılıqotunu aşkarlayıb, tərkibində 2-3% efedrinin olduğunu müəyyən etmişdir. Efedradin A-D sinir turşusu tetrometilprozin, siklopropilin, amin turşusu, tanin, karbon turşusu və s. var. Bitkinin kökünün tərkibində efedrin alkaloidi deyil, feriloiqlistanin və maokonin alkaloidi var.

Bitkinin yayılmasının böyük əhəmiyyəti var, vegetativ hissələri, toxumları bəzi həşəratların yemini, kəklik və digər quşların qidasını təşkil edir. Bundan başqa qumlu, səpilən təpələrin bərkiməsində, torpaq aşınmasının qarşısını almaqda əsas rol oynayır. Vegetativ hissələrin tərkibindəki bioloji aktiv maddələrin yüksək miqdarda olması səbəbindən ev heyvanları qəbul etdikdə zəhərlənmə halları baş verə bilir.

Elm və Təhsil Tədqiqatları **VIII Respublika Elmi Konfransı / 19 iyun 2025 / 146-148**
Research in Science and Education **VIII Republican Scientific Conference / 19 iyun 2025 / 146-148**
https://doi.org/10.36719/2789-6919/2025/VIII

Fəridə Həsənova
Azərbaycan Dövlət Aqrar Universiteti
magistrant
https://orcid.org/0009-0007-5460-9494
fhesenova10@gmail.com

Otvari gəndalaş (*Sambucus ebulus* L.) bitkisinin müalicəvi xüsusiyyətləri

Açar sözlər: *Sambucus ebulus L., dərman bitkiləri, bioloji fəal maddələr, fitoterapiya, farmakoloji təsir*
Keywords: *Sambucus ebulus L., medicinal plants, biologically active substances, phytotherapy, pharmacological effect*

Fitoterapiya, yəni bitkilərlə müalicə qədim zamanlardan bəri insanların sağlamlıq axtarışlarının mərkəzində olmuşdur. Bu gün də təbii mənşəli dərman vasitələrinin öyrənilməsi və istifadəsi öz aktuallığını saxlayır. Ölkəmizin zəngin florasında farmakoloji əhəmiyyətə malik çoxsaylı dərman bitkiləri mövcuddur. Onlardan biri də "Otvari gəndalaş – *Sambucus ebulus* L." bitkisidir.

Otvari gəndalaş *Adocxaceae* fəsiləsinin *Sambucus* L. cinsinə aid olub, hündürlüyü 1-2 m-ə qədər olan, yerüstü hissələri hər il yenilənən çoxillik bitkidir. Yarpaqları iri, ətirli, tünd yaşıl rəngli, qarışıq tükcüklü və qarşılıqlı düzülmüş şəkildədir. Çiçəkləri ağ və ya açıq çəhrayı rəngli olub, çətir çiçək qrupunda toplanır. Meyvələri tünd bənövşəyi-qara, sferik və şirəlidir. Təbii olaraq Avropa, Qafqaz və Qərbi Asiyada yayılmışdır. Azərbaycanda əsasən dağətəyi zonalarda, meşə kənarlarında, kolluqlarda, su hövzələri yaxınlığında rast gəlinir.

Bitki zəngin kimyəvi tərkibə malikdir, bu isə onun müalicəvi potensialının başlıca səbəblərindəndir. Bitkinin tərkibində

flavonoidlər (kversetin, rutin, antosianlar), fenolkarbon turşuları (qəhvə turşusu, ferul turşusu), üzvi turşular (malon turşusu, şikim turşusu, askorbin turşusu), sianogen qlikozidlər (sambuniqrin), vitamin və minerallar və s. vardır (Paşa, 2023). Tərkibində olan bioloji fəal maddələr hesabına bitki virus əleyhinə, antioksidant, antibakterial, immunomodulyator və iltihab əleyhinə təsir göstərir.

Dərman xammalı kimi bitkinin əsasən çiçək və meyvələrdən, bəzən isə yarpaqlarından istifadə edilir.

Eksperimental tədqiqatlarda göstərilmişdir ki, *S.ebulus* ekstraktları TNF-α, IL-1β kimi iltihab markerlərinin səviyyəsini azaldır. Bu isə onun oynaq iltihabları və revmatoid artrit zamanı effektiv təsir göstərməsinə səbəb olur.

İn vitro təcrübələrdə qrip viruslarına, HSV-1, SARS-CoV-2 və bakteriyalara qarşı yüksək fəallıq göstərdiyi müşahidə edilmişdir. Meyvə ekstraktları *E.coli, S.aureus* və *P.aeruginosa* ştammlarına qarşı təsirli olmuşdur.

DPPH və ABTS testlərində yüksək radikal tutma qabiliyyətinə malik olması müşahidə edilmişdir. Bu isə onun yaşlanma əleyhinə və hüceyrə qoruyucu təsirlərə malik olduğunu deməyə imkan verir (Jabbari, Danshfard və b., 2017).

Bitkinin həmçinin diuretik və tərqovucu təsirləri vardır. Bitki ekstraktları metabolitlərin orqanizmdən xaric edilməsinə, orqanizmin təmizlənməsinə kömək edir. Laboratoriya siçanlarında karbon-4-xloridlə induksiya olunmuş qaraciyər zədələnməsinə qarşı qoruyucu təsir göstərdiyi müşahidə edilmişdir.

Bitkidən həm də irinli yaralar, abseslər, dəri səpgiləri, revmatizm və oynaqlarda ağrı zamanı kompress şəklində xaricə istifadə edilir. Bitkidən istifadə zamanı ehtiyatlı olmaq lazımdır. Onun tərkibində olan sambuniqrin adlı sianogen qlikozid, parçalanma zamanı sianid turşusu əmələ gətirə bilər. Çiy halda yüksək miqdarda qəbul edildikdə başgicəllənmə, qusma,

tənəffüs pozğunluqları yarada bilər. Hamilə və süd verən qadınlar, 12 yaşdan kiçik uşaqlar, xroniki qaraciyər və böyrək çatışmazlığı olan şəxslər üçün bitkinin istifadəsi əks göstərişdir.

Yuxarıda qeyd edilənlər bitki üzərində aparılmış tədqiqatların sadəcə bəzilərəridir və daha geniş tədqiqatların aparılması bitkinin müalicəvi potensialının öyrənilməsi üçün olduqca əhəmiyyətlidir.

Ədəbiyyat

1. Jabbari, M., Daneshfard, B., Emtiazy, M., Khiveh, A., Hashempur, M.H. (2017). Biological effects and clinical applications of Dwarf Elder (*Sambucus ebulus* L.): A review. *Journal of evidence-based complementary and alternative medicine*. Volume 22(4), p. 996-1001.
2. Paşa, C. (2023). The use of *Sambucus ebulus* L. in folk medicine and chemical composition. *GSC Advenced Research and Reviews*. Volume 17(03), p. 81-85.

Elm və Təhsil Tədqiqatları **VIII Respublika Elmi Konfransı / 19 iyun 2025 / 149-151**
Research in Science and Education **VIII Republican Scientific Conference / 19 iyun 2025 / 149-151**
https://doi.org/10.36719/2789-6919/2025/VIII

İsrafil Süleymanzadə
Azərbaycan Dövlət Aqrar Universiteti
magistrant
https://orcid.org/0009-0004-8092-5915
israfil.suleymanzade@bk.ru

Meşə çiyələyinin dərman xammalının farmakoloji və müalicəvi xassələri haqqında

Açar sözlər: *meşə çiyələyi, dərman bitkisi, dərman xammalı, müalicəvi təsir, xalq təbabəti*
Keywords: *fragaria vesca, medicinal plants, medicinal raw materials, therapeutic effect, folk medicine*

Bitki xammalından alınan dərman vasitələrinin və qidaya bioloji əlavələrinin çeşidinin genişləndirilməsi müasir əczaçılıq sahəsinin prioritet istiqamətlərindən biridir. Bu baxımdan bir çox ölkələrdə son illər əczaçılıq bazarında yer alan bitki dərman xammallarından biri də meşə çiyələyinin dərman xammalıdır. Məsələn, meşə çiyələyinin yarpaqları dərman xammalı kimi Belarus Respublikasında və Rusiya Federasiyasında "Meşə çiyələyinin yarpaqları" adı altında rəsmi dövlət qeydiyyatından keçmişdir. Bitkinin dərman xammalından "İnulavit", "Sorbavit", "Fitoçay №4" və s. adlar altında qidaya bioloji əlavələr istehsal olunur.

Bir çox ölkələrin xalq təbabətində meşə çiyələyinin yarpaqları iltihabəleyhi, büzüşdürücü və diuretik vasitə kimi geniş tətbiq edilir. Bununla belə, meşə çiyələyinin bioloji fəal komponentləri və onların farmakoloji xassələri barədə tutarlı, elmi cəhətdən əsaslandırılmış məlumatlar çox az və pərakəndədir. Zəngin floraya malik Azərbaycan Respublikasında isə bu sahədə məlumatlar yox dərəcəsindədir.

Ona görə də meşə çiyələyinin bəzi farmakoqnostik və farmakoloji tədqiqini aparmağı məqsədəuyğun hesab etdik.

Meşə çiyələyinin yarpaqlarının kimyəvi tərkibi zəngindir. Yarpaqlarında polisaxaridlər, hidrolizatında qalaktoza, fruktoza, qlükoza, arabinoza, ramnoza, ksiloza, qalakturon və qlükuron turşuları aşkar edilmişdir. Aminturşulardan asparagin turşusu, qlisin, arginin, valin, serin, treonin, fenilalanin, lizin, histidin və s. kimi dəyərli maddələrlə zəngindir.

Qeyd edilir ki, meşə çiyələyinin yarpaqlarında əsas təsiredici komponentlər fenol birləşmələridir: ellaq turşusunun törəmələri, flavonoidlər, aşı maddələri, kumarinlər. Flavonidlər bu sırada əsas yeri tutmaqla, flavonlarla, katexinlərlə və nisbətən az dərəcədə leykoantosianlarla təmsil olunmuşlar (Kərimov, Süleymanov və b., 2010; Jenish, 2016).

Meşə çiyələyinin yayılması üzrə aparılan farmakoqnostik tədqiqatlar göstərdi ki, yabanı halda bitən meşə çiyələyi Kiçik Qafqaz bölgəsində (Göygöl rayonu) ağaclar seyrək şəkildə bitən meşəətəyi ərazilərdə daha çox yayılmışdır. Bitkiyə əsasən meşənin ağaclar və kollar seyrək bitən sahələrində və xüsusilə tamamilə ağaclardan azad olan tala adlandırılan yerlərdə rast gəlinirdi. Bitki torpağa çəpinə yerləşmiş qısa qonur rəngli kökümsova malikdir. Kökümsovdan çoxsaylı nazik köklər ayrılır. Kökyanı yarpaqların ciblərindən sapvari uzun sürünən zoğlar (bığcıqlar) inkişaf edir. Bu bığcıqlar vasitəsilə çiyələyin vegetativ çoxalması baş verir. Bitkinin dərman xammalında aşı maddələrinin miqdarı 11%-ə çatır ki, bu da onun tərkibindəki digər ekstraktiv maddələrlə birlikdə bir sıra xəstəliklərin müalicəsində müsbət terapevtik səmərəsini müəyyənləşdirir.

Tədarük etdiyimiz meşə çiyələyinin dərman xammalının müalicəvi səmərəsini mədə-bağırsaq pozuntuları qeydə alınan körpə buzovlar üzərində öyrəndik. Təcrübənin sxeminə görə bir təcrübə qrupunda buzovları 10 saat aclıq diyetasında saxladıqdan sonra ağız suyu verilən saatlarda gündə 3 dəfə meşə çiyələyinin

xammalından hazırlanmış bişirmədən (1:20 nisbətində) 200 ml həcmində və dispepsiya hallarında ənənəvi preparat sayılan tetrasiklin (hər kq canlı kütləyə 10000 T.V. hesabı ilə) tətbiq edildi. Bişirməni verdikdən sonra buzovlara qaynadılmış su (1 litr həcmində) içizdirilirdi. 2-ci qrupda isə buzovlara yalnız tetrasiklin tətbiq edildi. Təcrübənin nəticələri göstərdi ki, birinci qrupda (bişirmə ilə tetrasiklinin kombinasiyası tətbiq edilmişdir) buzovların sağalmasına orta hesabla 2,5 gün sərf olunduğu halda, 2-ci qrupda, yəni yalnız tetrasiklin istifadə edilmiş qrupda bunun üçün orta hesabla 4,2 gün lazım gəlmişdir, yəni müalicənin effekti nisbətən aşağı olmuşdur.

Beləliklə, meşə çiyələyinin kompeks müalicədə istifadə edilməsi müalicənin daha səmərəli olmasını təmin etmişdir.

Ədəbiyyat

1. Jenish, R.H. (2016). Pharmacological activities of Fragaria vesca: a review. *Pharma Science Monitor*. Volume 7(2), p.132-138.
2. Kərimov, Y., Süleymanov, T., İsayev, C., Xəlilov, C. (2010). *Farmakoqnoziya*. Dərslik.

Elm və Təhsil Tədqiqatları **VIII Respublika Elmi Konfransı / 19 iyun 2025 / 152-155**
Research in Science and Education **VIII Republican Scientific Conference / 19 iyun 2025 / 152-155**
https://doi.org/10.36719/2789-6919/2025/VIII

Münəvvər Məmmədova
Azərbaycan Dövlət Aqrar Universiteti
magistrant
https://orcid.org/0009-0004-7220-5176
nesiblie16@gmail.com

Şeytanqanqalı bitkisinin kimyəvi tərkibi və tibbi əhəmiyyəti

Açar sözlər: *Carduus, kimyəvi tərkib, bioloji aktiv maddələr, dərman bitkiləri, farmakoloji təsir*
Keywords: *Carduus, chemical composition, biologically active substances, medicinal plants, pharmacological effect*

Azərbaycan Respublikasının ərazisinin zəngin florası mövcuddur və bu zəngin bitki aləmində tükənməz dərman bitkiləri ehtiyatları vardır. Bu bitkilərin bir çoxu artıq kifayət qədər öyrənilib, müalicə vasitəsi kimi özlərini təsdiq ediblər. Lakin kifayət qədər öyrənilməmiş yabanı bitkilər də hələlik qalır ki, onların da aşkar edilməsi, ətraflı öyrənilməsi və müalicə praktikasına tətbiqi aktual məsələlərdən biri kimi gündəmdədir.

Belə bitkilərdən biri də şeytanqanqalı (*Carduus*) bitkisidir. Bu bitkinin farmakoqnostik tədqiqi bu gün üçün həm elmi, həm də praktiki baxımdan yüksək aktuallığa malikdir. Belə ki, son illərdə təbii mənşəli dərman vasitələrinə və alternativ müalicə metodlarına marağın artması, bitki mənşəli bioaktiv maddələrin öyrənilməsini və onların müalicəvi xassələrinin araşdırılmasını daha da vacib etmişdir. Şeytanqanqalı (*Carduus*) cinsinə daxil olan növlər, xüsusilə *Carduus edelbergii, C.marianus, C.acanthoides, C.pycnocephalus* və s. tərkibindəki flavonoidlər, fenol birləşmələri, acı maddələr, taninlər və efir yağları ilə tanınır. Bu birləşmələrin antioksidant, hepatoprotektiv, iltihab-

əleyhi, antimikrob və antidiabetik təsirləri bir sıra tədqiqatlarla sübuta yetirilmişdir.

Carduus cinsinə aid bəzi növlərin farmakoqnostik tədqiqi, onların təbiətdəki əhəmiyyətinin elmi əsaslarla qiymətləndirilməsi və dərman preparatları üçün xammal kimi istifadə perspektivlərinin müəyyən olunması baxımından mühüm və aktual tədqiqat istiqamətidir. Şeytanqanqalı cinsinə aid növlər təkcə morfoloji deyil, həm də kimyəvi tərkibinə görə zəngin və bioloji aktiv maddələrlə zəngin bitkilər qrupuna daxildir və ona görə də qədim zamanlardan xalq təbabətində istifadə edilmişdir.

Şeytanqanqalı cinsinə aid bitkilərin farmakoloji təsirinin əsasında onların zəngin və müxtəlif kimyəvi tərkibi dayanır. Bu növlər bioloji aktiv maddələrlə xüsusilə zəngin olub, həm xalq təbabətində, həm də müasir fitoterapiyada geniş istifadə edilir. Tədqiqatlar göstərir ki, şeytanqanqalı növlərinin müxtəlif orqanlarında - əsasən yarpaq, çiçək, gövdə və toxumlarında aşağıdakı əsas bioloji aktiv maddələrə rast gəlinir. Bitkinin tərkibində əsas yeri flavonoidlər tutur və onlar bitkinin müalicəvi təsirinin əsasını təşkil edir və uzun müddətdir ki, həm xalq təbabətində, həm də elmi fitoterapiyada diqqət mərkəzindədir.

Fitokimyəvi tədqiqatlarla bitkinin tərkibində kversetin, rutin, apigenin, luteolin, silibinin və silikristin kimi flavonoidlərin mövcudluğu təsdiqlənmişdir. Bu birləşmələr güclü antioksidant, iltihab əleyhinə, qaraciyər qoruyucu (hepatoprotektiv) və kapillyar sabitləşdirici xüsusiyyətlərə malikdir. Flavonoidlər hüceyrələri sərbəst radikalların zərərli təsirindən qoruyur, qaraciyər toxumalarının regenerasiyasını stimullaşdırır, immun sisteminin funksiyalarını dəstəkləyir və ümumi orqanizm müdafiəsini gücləndirir. Fenol turşuları bitkilərdə geniş yayılmış bioaktiv birləşmələri, xüsusən də antioksidant və antimikrobial təsirləri ilə məşhurdur. Bu maddələr bitkinin müdafiə sistemində mühüm rol oynayır, onu

patogen mikroorqanizmlərin zərərli təsirlərindən və ətraf mühitin gərginliyindən qoruyur.

Kimyəvi analizlər göstərmişdir ki, şeytanqanqalı qəhvə turşusu, ferul turşusu və xlorogen turşusu kimi fenol birləşmələri ilə zəngindir. Yuxarıda qeyd olunan maddələr hüceyrə membranlarını sərbəst radikalların təsirindən qoruyan güclü antioksidant təsirə malikdir, həmçinin iltihab əleyhinə və antibakterial xüsusiyyətlərinə görə seçilir. Bu birləşmələr dərinin iltihabi xəstəliklərinə, infeksiyalara və hüceyrə degenerasiyasına qarşı terapevtik vasitə kimi istifadə edilə bilər (Ahmad və b., 2020).

Acı maddələr (bitter compounds) bitkilərdə geniş yayılmış və əsasən həzm sisteminə təsir edən bioloji aktiv birləşmələr qrupudur. Şeytanqanqalı cinsinə aid bitkilərdə bu maddələr xüsusilə yarpaq və kök hissələrində mövcud olub, onların xalq təbabətində mədə-bağırsaq xəstəliklərinin müalicəsində istifadə edilməsini əsaslandıran amillərdəndir. Acı maddələr mədə şirəsinin və ödün ifrazını stimullaşdırmaq, həzmi yaxşılaşdırmaq və iştahanı artırmaq kimi təsirlərə malikdir. Bu təsirlər sayəsində onlar dispepsiya (həzm pozğunluğu), iştahasızlıq və qaraciyərlə bağlı həzm problemlərinin aradan qaldırılmasında istifadə olunur.

Şeytanqanqalının tərkibindəki aşı maddələri təbii mənşəli polifenol tərkibli birləşmələr olub, büzücü və antibakterial xüsusiyyətləri ilə seçilərək, müxtəlif iltihabi və infeksion halların müalicəsində mühüm rol oynayır. Aşı maddələri bitkinin yarpaq və kök hissələrində toplanaraq, müdafiə sisteminin formalaşmasında və patogen mikroorqanizmlərə qarşı müqavimətdə iştirak edir, tibbi praktikada diareya, bağırsaq iltihabları, ağız və boğaz selikli qişalarının zədələnmələri, eləcə də dəri iltihabları zamanı tətbiqi geniş yayılmışdır (Hassan, Sirat və b., 2011).

Fitokimyəvi tədqiqatlar nəticəsində Şeytanqanqalı cinsinə aid bəzi növlərin tərkibində efir yağlarının mövcudluğu müəyyən edilmişdir. Bunlar əsasən bitkinin çiçək və yarpaq hissələrində toplanır və bitkinin xoş qoxusunu, qoruyucu və müalicəvi xüsusiyyətlərini təmin edən maddələrdir. Bu birləşmələr antiseptik, sakitləşdirici və spazmolitik təsir göstərərək, ənənəvi tibbdə tənəffüs yolları iltihabları, əzələ gərginliyi, yuxusuzluq və sinir sistemi pozuntularının yüngülləşdirilməsində istifadə olunur.

Beləliklə, şeytanqanqalı bitkisinin kimyəvi tərkibi və tibbi əhəmiyyətinə aid məlumatlar bu bitkinin flavonoidlər, aşı maddələri, efir yağları kimi mühüm bioloji fəal maddələrlə zəngin olmasını və bu səbəbdən də onun geniş farmakoterapevtik imkanlarını göstərir.

Ədəbiyyat

1. Ahmad, N. et al. (2020). Antioxidant and antidiabetic activities of phenolic-rich extracts from medicinal plants. *Frontiers in Pharmacology*. Volume 11, p.21-33.
2. Hassan, L.E.A., Sirat, H.M., Yagi, S.M., Koko, W.S. (2011). In vitro antimicrobial activity of extracts from Sudanese medicinal plants. *BMC Complementary and Alternative Medicine*. Volume 11, p.50.

Elm və Təhsil Tədqiqatları **VIII Respublika Elmi Konfransı / 19 iyun 2025 / 156-158**
Research in Science and Education **VIII Republican Scientific Conference / 19 iyun 2025 / 156-158**
https://doi.org/10.36719/2789-6919/2025/VIII

Nigar Əhmədova
Azərbaycan Dövlət Aqrar Universiteti
magistrant
https://orcid.org/0009-0004-1370-2885
ahmdvanigar@gmail.com

Propolisin farmakoloji və farmakoterapevtik xarakteristikası

Açar sözlər: *bal arısı, propolis, farmakoloji təsir, məlhəm, kimyəvi tərkib*
Keywords: *honey bee, propolis, pharmacological effect, ointment, chemical composition*

Bal arısının əsas məhsulu olan bal ilə yanaşı, bu həşəratın həyat fəaliyyətinin arı zəhəri, arı südü, arı mumu, vərəmum kimi digər məhsulları da vardır ki, onlardan tibbin bir çox sahələrində dəyərli müalicə vasitəsi kimi istifadə olunur. Bunlar arasında vərəmum (propolis) maddəsi özünə məxsus müalicəvi xassələri ilə seçilir. Bu maddənin öyrənilməsinə çoxsaylı tədqiqatların həsr olunmasına baxmayaraq, onun bir çox müalicəvi təsir xüsusiyyətləri tam aydınlaşdırılmamış qalır (Kərimov, Süleymanov və b., 2010). Qeyd olunanları nəzərə alaraq, biz propolisin farmakoloji və terapevtik xassələrinin təhlili istiqamətində tədqiqat işinin aparılmasını qarşıya məqsəd qoyduq. Propolis bal arısı ailəsində işçi arıların xüsusi bir qrupu tərəfindən hazırlanan təbii maddələrin bioloji fəal kompleksidir. Bu maddə arıların müxtəlif bitkilərin tumurcuq, yarpaq, gövdə kimi vegetativ orqanları, cavan zoğları, ağac qabıqlarından topladığı və sonradan ağızlarında tüpürcək vəzilərinin sekretləri ilə qarışdıraraq və müəyyən qədər də həzm edərək pətək daxilində müxtəlif məqsədlər üçün istifadə etdikləri qiymətli bir arı məhsuludur.

https://doi.org/10.36719/2789-6919/2025/VIII

"Propolis" sözü yunan mənşəli olub "pro" -əvvəl, ön; önündə, və "polis"- şəhər kimi tərcümə edilir, hərfi mənada "irəlidə, pətəyin müdafiəsində" mənasını verir. Propolisin toplanması aprel ayından başlayır, mayın sonuna qədər isə yığım sürəti getdikcə zəifləyir. Maksimal intensivlik iyuldan başlayara oktyabra qədər davam edir. Gecə və səhər hava nə qədər soyuq olarsa, arı ailələri vərəmum toplamağa daha çox meyilli olurlar. Propolisi pətəklərin divarlarından, çərçivələrin tirindən, tavanın kətan örtüyündən, uçuş bacasından qaşıyıb toplayırlar. Sənayedə propolis bir çox lakların istehsalında əvəzedilməz xammaldır. Son vaxtlar propolis təbabətdə də geniş tətbiq tapmışdır.

Propolisin tərkibi təxminən 50-55% qətran və balzamlardan (flavonoidlər, aromatik turşular və onların esterləri), 30% mumdan (yağ turşuları, spirtlər və onların esterləri), 10% əsas və aromatik yağlardan, 5% çiçək tozcuğu (aminturşular və zülallar) və 5%-i digər maddələrdən (minerallar, ketonlar, laktonlar, xinonlar, steroidlər, vitaminlər, şəkərlər və s.) təşkil olunmuşdur. Onun tərkibində 200-dən çox birləşmə müəyyən edilsə də, əsas rol oynayanlar polifenollar, spirtlər və aldehidlərdir (Ağayev, 2015).

Propolisdən hazırlanacaq məlhəmin əsas komponentlərindən biri kimi təbii sorbent olan Aydağ seoliti seçilmişdir. Propolisin quru ekstraktı Aydağ seoliti və vazelin yağı ilə kombinasiya edilərək kombinasion məlhəm hazırlanmışdır. Texnoloji prosesin ardıcıllığı baxımından müvafiq metodikadan istifadə edilməklə, əvvəlcə propolisin qatı ekstraktı alınmış, daha sonra isə qatı ekstraktdan quru propolis ekstraktı əldə edilmişdir. Həmin quru ekstraktı təbii sorbent olan Aydağ seoliti və vazelin yağı ilə kombinasiya edərək məlhəm hazırlanmışdır.

Propolis antimikrob, antivirus, antimikotik, iltihabəleyhi və anesteziyaedici təsirlərə malikdir. Propolis stomatologiyada və dermatologiyada tətbiq edilir. Ağız boşluğu xəstəliklərində, diş ətinin iltihabında, mədənin selikli qişasının zədələnmələrində,

orta qulağın iltihabında, yara və müxtəlif mənşəli yanıqların müalicəsində istifadə olunur.

Bizim təcrübələrdə hazırladığımız propolis məlhəminin müalicəvi səmərəsi inəklərin infeksion follikulyar vestibulit xəstəliyində öyrənilmişdir. Xəstəlik inəklərin balalıq yolu dəhlizinin selikli qişasının diffuz-hiperemik iltihabı ilə səciyyələnir. Müalicəsi, adətən, cinsiyyət dəhlizinin selikli qişasına yod-qliserin, ixtiol-qliserin və yaxud ixtiol-yod-qliserin kombinasiyası yolu ilə alınan məlhəmlərin sürtülməsi üsulu ilə aparılır. Biz müalicə məqsədilə bu məlhəmlərin əvəzinə Aydağ seolitində hazırladığımız propolis məlhəmindən istifadə etdik. Məlhəm gündə bir dəfə istifadə edilirdi. Məlhəmin istifadəsi ilə yanaşı heyvanın quyruğunun kökünün ətrafları və vulvası 3%-li natrium-hidrokarbonat məhlulu ilə yuyulub təmizlənirdi. Müalicənin 5-ci günü xəstəliyin kliniki əlamətləri xeyli səngimişdi, əvvəllər müşahidə olunan narahatlıq aradan qaldırılmışdır. Müalicənin 8-ci günü heyvanda xəstəliyin heç bir kliniki əlamətləri müşahidə edilmirdi.

Ədəbiyyat

1. Ağayev, K.Y. (2015). *Arı möcüzələri – on bir sehrli məhsul*.
2. Kərimov, Y., Süleymanov, T., İsayev, C., Xəlilov, C. (2010). *Farmakoqnoziya*. Dərslik.

Elm və Təhsil Tədqiqatları **VIII Respublika Elmi Konfransı / 19 iyun 2025 / 159-161**
Research in Science and Education **VIII Republican Scientific Conference / 19 iyun 2025 / 159-161**
https://doi.org/10.36719/2789-6919/2025/VIII

Şahin Muradov
Azərbaycan Dövlət Aqrar Universiteti
magistrant
https://orcid.org/0009-0007-7330-6448
sahin.00@mail.ru

Antihelmint baytarlıq preparatlarının dərman bazarında marketinq tədqiqatı

Açar sözlər: *baytarlıq preparatları, helmintozlar, antihelmintiklər, marketinq, çeşid çantası*
Keywords: *veterinary drugs, helminthiasis, anthelmintics, marketing, product portfolio*

Heyvanlar arasında helmintozlar geniş yayılmaqla heyvandarlıq təsərrüfatlarının iqtisadiyyatına ciddi zərər vururlar. Ona görə də helmintozlarla mübarizə tədbirlərinin aparılması vacib əhəmiyyət daşıyır. Bu mübarizə tədbirləri sırasında isə dehelmintizasiya, yəni dərman vasitələri ilə heyvanın orqanizminin helmintlərdən azad edilməsi ön sırada durur. Dehelmintizasiyanın uğurla nəticələnməsi üçün isə mühüm şərtlərdən biri yüksək anthelmint təsirə malik dərman vasitələrinin olmasıdır (Bayramov, 1996). Hazırda dərman bazarında kifayət qədər çox sayda anthelmintiklər mövcuddur. Belə şəraitdə anthelmintiklərin səmərəli çeşidinin formalaşdırılması və istifadəçilərin hansı preparatlara daha çox üstünlük vermələri və aptek müəssisələrinin çeşidində mövcudluğundan irəli gələn əlçatanlığı mühüm rol oynayır ki, bunun üçün də həmin qrup anthelmintiklərin marketinq tədqiqatlarının aparılması böyük əhəmiyyət kəsb edir.

Bu baxımdan mövcud tədqiqat işinin məqsədi Gəncə şəhərində fəaliyyət göstərən bir neçə baytarlıq aptekində aparılmış marketinq tədqiqatlarının nəticəsi əsasında antihelmintiklərin çeşid çantasının formalaşdırılması olmuşdur. Bu məqsədlə sosioloji sorğu aparmaq üsulu ilə bu qrup preparatların çeşid çantasının formalaşdırılması məsələsi öyrənilmişdir. Təşkil edil-

miş sosioloji sorğuya kiçik sahibkarlıqla məşğul olan, əsasən də kiçik fermer təsərrüfatlarına malik olan və öz şəxsi kiçik həyətyanı təsərrüfatlarında heyvandarlıqla məşğul olan şəxslər cəlb edilmişdir. Anketləşdirmə üsulu vasitəsilə dərman seçimini edərkən hansı preparatlara daha çox üstünlük verilməsi və buna dair motivasiya təhlil edilmiş, onların apteklərdə mövcudluğu analiz edilmiş və bunun əsasında da seqmentləşdirmə və onların preparatlarının qiymətləndirilməsi aparılmışdır. Hansı preparatlara daha çox üstünlük verilməsinin müəyyənləşdirilməsi məqsədilə aparılan sosioloji sorğu iki mərhələdə 80 nəfər istifadəçi arasında aparıldı və müəyyən edildi ki, respondentlərin 80%-i helmintozların heyvandarlıq təsərrüfatlarında geniş yayılmasını və əhəmiyyətli iqtisadi zərər vurmasını qeyd edir. Sorğuda iştirak edənlərin 65%-i dərman preparatlarının seçimini baytar həkiminin məsləhəti ilə apardıqlarını, 35%-i isə öz təşəbbüsləri ilə apardıqlarını bildirirlər. Preparatların seçimində reklamın vacib amil olduğunu respondentlərdən 60%-i qeyd etdilər. Sorğunun nəticələrinin analizi göstərdi ki, hər iki sorğuda respondentlərin cavabları üst-üstə düşmüşdür. Kontent-analiz nəticəsində alınmış epizootoloji məlumatlardan məlum olur ki, vaxtında müalicə-profilaktika tədbirlərinin aparılmaması helmintozların baş verməsinin əsas səbəblərindəndir (bu fikri respondentlərin 20%-i söyləmişdir). Respondentlərin 20%-i isə bunu dərman bazarında yüksək effektli preparatlarının kifayət etməməsi amili ilə əlaqələndirməyi lazım bildilər. İstifadəçilərin çoxu dehelmintizasiya aparmaq üçün antihelmintiklərin seçimində reklamın və preparatın qiymətinin aparıcı rol oynamasını qeyd etmişlər. Növbəti mərhələdə tədqiq olunan antihelmintiklərin əsas farmakoloji qruplarının marketinq analizi aparıldı. Təhlil olunan seqmentə 4 əsas farmakoloji qrupa mənsub 18 adda olan, qiyməti isə miqdarından (həcmindən) asılı olaraq 5,8-50 manat arasında olan preparatlar daxil edildi. Helmintəleyhi təsir spektri (helmintlərin hansı zooloji siniflərə mənsubluğu baxımından) tədqiq olunan preparatların əsas qrupları aşağıdakı kateqoriyalarla təmsil olunurdu: 1) başlıca olaraq nematodosid təsir göstə-

rən; 2) başlıca olaraq sestodosid təsir göstərən; 3) başlıca olaraq trematodosid təsir göstərən; 4) polispektrli təsir (trematodosid, nematodosid və sestodosid) göstərən preparatlar. Dərman formasından və ticari adından asılı olaraq antihelmintiklər müxtəlif dərman formaları ilə təmsil olunmuşlar, lakin bunların əsas payını suspenziyalar, daha sonra isə tabletlər təşkil edirdi: suspenziya formasında – 4, tablet formasında – 3, bolyus formasında isə 1 preparat. Bu siyahıda Azərbaycan Respublikasının istehsalı olan preparatların yer almaması diqqəti cəlb edir, yəni bütün hallarda bu preparatlar idxal olunur. Tədqiq olunan dərman preparatları qrupunun seqmentləşdirilməsi zamanı dərmanların qiyməti əsas meyar kimi götürülməklə, hər bir qrup preparatların istifadə dərəcəsi hesablanmışdır. Müəyyən olundu ki, preparatların istifadə dərəcəsi səviyyəsinə və göstəricisinə görə müxtəlif xarici ölkələrdən idxal olunan helmintəleyhi preparatlar baxımından hər hansı bir ölkənin elə də ciddi üstünlüyü yoxdur və bu sahədə əsasən Hollandiya, Rusiya və İspaniya istehsalı olan geniş antihelmint təsir spektrinə malik dərman preparatları liderlik edir: "Albenol-100 Oral", "Helmisid", "Alben", "İnterzan Qold", "Albendazol 2,5% suspenziya", "Spektra-zanid forte". Beləliklə, marketinq tədqiqatları nəticəsində müəyyən olundu ki, antihelmint preparatlarının səmərəli çeşid çantasının formalaşması bir sıra amillərdən asılıdır ki, bunlar arasında auditoriyanın hansı preparatlara daha çox üstünlük verməsi, preparatların terapevtik səmərəsi, münasib qiymətlər və həmin preparatların aptek müəssisələrinin çeşid matrisasında mövcudluğu əsas amillərdən hesab edilməlidir.

Ədəbiyyat

1. Bayramov, S.Y. (1996). Dərman bitkilərinin və antihelmint preparatlar qarışığının quşların askaridiozuna qarşı işlədilməsi. *Azərbaycan Aqrar Elmi jurnalı*. №1-2, s.90-91.

Elm və Təhsil Tədqiqatları **VIII Respublika Elmi Konfransı / 19 iyun 2025 / 162-164**
Research in Science and Education **VIII Republican Scientific Conference / 19 iyun 2025 / 162-164**
https://doi.org/10.36719/2789-6919/2025/VIII

Tahə İbrahimov
Ağsu, Azərbaycan
https://orcid.org/0009-0001-1812-282X
tahibrahimov287@gmail.com

Şüur haqqında nə bilirik?

Açar sözlər: *şüur, nəzəriyyə, canlı, orqanizm, reaksiya*
Keywords: *consciousness, theory, living being, organism, reaction*

Əvvəlcədən qeyd etməliyəm ki, şüur və onun yaranması haqqında kifayət qədər elmi məlumatlar vardır. Bununla əlaqədar olaraq biologiya dərsliklərində Jan Batist Lamark, Çarlz Darvin, Fridrix Engelsin nəzəriyyələrinə daha çox yer verilir. Əslində isə həmin nəzəriyyələr və ya fikirlər həqiqəti əks etdirmir. Məsələn, Lamark insanın meymunanbənzər canlılardan başlanğıc götürdüyü fikrini irəli sürmüşdür. Fikrimcə, meymunabənzər canlının təkamül prosesində insana çevrilməsi mümkün deyildir. Bizim əcdadımız Allah tərəfindən insan olaraq yaradılmışdır. Əcdadımız ilk dəfə birhüceyrəli olmuşdur. Həmin canlı tədricən bölünmə yolu ilə çoxalmağa başlayıb. Eyni zamanda qidalanma və tənəffüs prosesi nəticəsində çoxhüceyrəli insan meydana gəlib. Təkamül nəticəsində cinsiyyətin ayrılması prosesi də baş vermişdir. Tədqiqatçıların əksəriyyəti ilk canlıların Dünya Okeanında yarandığı fikrini yayırlar. Bu da həqiqətə uyğun deyildir. İlk canlı su mühitində yarana bilməzdi. Bunların izahı ayrı mövzudur.

İlk əcdadlarımız olan birhüceyrəli canlı orqanizmlər Yer səthi üzərində çox rütubətli şəraitdə yaranmışdır. Bütün hadisələr Günəşdə baş verən fiziki-kimyəvi proseslərin təsiri ilə baş vermişdir. Qidalanma və tənəffüs Mərkəzi sinir sisteminin

yaranmasına səbəb olmuşdur. Bu isə gələcəkdə şüurun yaranması üçün bünövrə rolunu oynamışdır.

Fridrix Engels öz əsərlərində insan təkamülündə ictimai amillərin əsas rol oynadığını yazmışdır. Həqiqətdə isə insan təkamülündə əsas rol Günəşdə baş verən fiziki-kimyəvi hadisələrə məxsusdur. Deməli, insanın şüuru Günəşdə baş verən kimyəvi reaksiyaların məhsuludur. Əmək alətləri hazırlamaq, insan orqanizmində baş verən dəyişikliklər əslində şüurun məhsuludur. İnsanların bir-biri ilə münasibətlərinin yaranması, ətraf mühiti öyrənməsi və başqa məsələlər şüurun yaranması nəticəsində mümkün olmuşdur. İnsanın bütün elmi məlumatlara sahib olması şüurun inkişafi ilə əlaqədardır. Bu zaman bir neçə sual maraq doğurur: 1. Bütün insanlarda şüurun səviyyəsi eynidirmi? 2. Şüurun səviyyəsini və ya gücünü təyin etmək mümkündürmü? İnsanlarda şüurun səviyyəsi fərdi xarakter daşıyır. Yəni, bütün insanlarda şüurun səviyyəsi müxtəlifdir. Buna səbəb, müşahidələrimə əsasən qeyd edə bilərəm ki, insan orqanizmində baş verən fiziki-kimyəvi və bioloji proseslərdir. Bu zaman baş beyin yarımkürələri əsas rol oynayır. Lakin insan orqanizmində baş verən maddələr mübadiləsinin də təsiri çox böyükdür. Şüurun müxtəlif səviyyəli olması həzm orqanlarının vəziyyəti və qanın kimyəvi tərkibi ilə də əlaqədardır. Başqa səbəblər də vardır və izahı ayrı mövzudur.

İnsanın şüuru çox güclü təsir xüsusiyyətlərinə malikdir. Bu təsir o qədər güclüdür ki, onu heç nə ilə müqayisə etmək olmaz. Elm aləminə bununla əlaqədar olaraq hələlik heç nə məlum deyildir. Lakin bu məsələdə qanunauyğunluqlar vardır və onları öyrənmək mümkündür. Yaxın vaxtlarda şüurun gücü ilə əlaqədar olan yeni elm sahəsi yaranacaqdır.

Dərsliklərdə və elmi kitablarda "İnsanı əmək yaratmışdır" adlı yazılara rast gəlmək mümkündür. Həmin yazılarda insan orqanizminin əmək fəaliyyəti nəticəsində yaranması haqqında izahatlara rast gəlmək mümkündür. Əslində isə insan

orqanizminin həm daxili mühiti, həm də xarici forması Günəş şüalarının təsiri ilə yaranmışdır. Əmək fəaliyyəti ilə məşğul olmaq orqanizmi daha da təkmilləşdirmiş və möhkəmləndirmişdir. İnsanın nitqinin irsi dəyişkənlik nəticəsində yaranması haqqında nəzəriyyələr irəli sürülmüşdür. Nitqin yaranması təfəkkürün inkişafına səbəb olması haqqında fikirlər də mövcuddur. Əslində isə nitq və təfəkkür insan orqanizmində eyni vaxtda, tədricən yaranmışdır. Özü də Günəş şüalarının təsiri ilə. Məsələ burasındadır ki, həmin vaxtlarda Günəş şüalarının spektral tərkibi indikindən çox fərqli olmuşdur. Bu da insanda şüurun yaranması və inkişafına səbəb olmuşdur. İnsan Kainatın hansı nöqtəsində mövcud olarsa, orada onun şüuru həmişə olacaqdır. Bizim Günəşdə baş verən reaksiyalar dayanarsa, bütün planetlər, Yer üzərində mövcud olan nə varsa, hamısı qaz halına keçər. Hazırda şüur haqqında elm aləminə məlum olmayan, qaranlıq qalan məsələlər çoxdur. Onların hamısını hər hansı bir yazıda aydınlaşdırmaq mümkün deyildir. Qeyd etdiklərimə öz münasibətini bildirmək istəyənlərə əvvəlcədən öz minnətdarlığımı bildirirəm.

Elm və Təhsil Tədqiqatları **VIII Respublika Elmi Konfransı / 19 iyun 2025 / 165-168**
Research in Science and Education **VIII Republican Scientific Conference / 19 iyun 2025 / 165-168**
https://doi.org/10.36719/2789-6919/2025/VIII

TEXNİKA ELMLƏRİ
TECHNICAL SCIENCES

Cavad Əliyev
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
doktorant
https://orcid.org/0009-0006-8505-9256
aliyev.javad@outlook.com

Neft-mədən avadanlıqlarında asfalten-qatran-parafin çöküntülərinə qarşı mübarizə üsulları

Açar sözlər: *asfalten, qatran, parafin çöküntüləri, parafinçökmə inhibitorları, depressator, quyudibi zona, həlqəvi fəza*

Keywords: *Asphaltene, paraffin deposits, depressant, annular space, inhibitors, bottomhole zone*

Neft hasilatı zamanı qarşıya çıxan texniki çətinliklərdən biri də quyudibi və nəqletmə avadanlıqlarında yaranan asfalten-qatran-parafin çöküntüləridir (AQPÇ). Bu çöküntülər neftin tərkibindəki ağır komponentlərin – parafin, qatran və asfaltenlərin lay təzyiqi və temperatur dəyişkənliyi nəticəsində boru və avadanlıq səthlərinə çökməsi ilə əmələ gəlir. Çökmə prosesi həm yeraltı avadanlıqlarda, həm də nəqletmə borularında müşahidə olunur (Adeyanju, et al., 2013; Demirbas, 2016). Kimyəvi reagentlər – inhibitorlar, depressorlar və səthi-fəal maddələr AQPÇ-nin əmələ gəlməsinin qarşısının alınması və mövcud çöküntülərin aradan qaldırılması baxımından daha funksional və dayanıqlı vasitələr hesab olunur.

AQPÇ-nin formalaşması parafinin kristallaşması, asfalten və qatranların çökməsi, həmçinin qum, duz və su damcıları kimi

mexaniki qarışıqların iştirakı ilə baş verir. Bu çöküntülər yüksək özlülüyə, sabitliyə və güclü adgeziyaya malikdir. AQPÇ-nin polidispers strukturu və kompleks kimyəvi tərkibi onların boruların daxili səthindən ayrılmasını çətinləşdirir. Çöküntülər əsasən 0,1 mm-dən qalın olmayan, lakin çox möhkəm və sabit təbəqələr şəklində yaranır. Parafinin kristallaşması yüksək molekul kütləsinə malik izo- və tsikloparafin karbohidrogenləri ilə başlayır, bu isə polikristallik və amorf quruluşa malik layların əmələ gəlməsinə gətirib çıxarır. Kimyəvi analizlər AQPÇ-də səthi-fəal maddələrin, xüsusilə də təbii emulsiyalaşdırıcıların yüksək miqdarda olduğunu göstərir. Bu maddələr neftdəki analoji komponentlərlə müqayisədə daha fəal olub, çöküntülərin səthlərə möhkəm birləşməsinə şərait yaradır (Qurbanov, 2005; Rogel, Ovalles, Vien, et al., 2016).

Ənənəvi istilik üsulları (isti neft, buxar, kondensat) yalnız 500 m dərinliyə qədər effektivdir. Daha dərin hissələrdə çöküntülər Coulomb-Thomson effekti və istilik daşıyıcının enerjisinin itkisi səbəbilə əhəmiyyətli dərəcədə təmizlənmir. Bu səbəbdən kimyəvi üsullar alternativ kimi seçilir. Müxtəlif reagentlər – inhibitorlar, depressorlar və onların kompozisiyaları AQPÇ-nin formalaşmasının qarşısını almaqda, onun dispersləşdirilməsində və səthdən ayrılmasında istifadə edilir (Ağayev, Grebnev, 2009; Soto-Castruita, Ramrez, Martilnez, 2015). Kompozisiya tərkibli reagentlər neftin reoloji xassələrini yaxşılaşdırır, su-neft emulsiyalarının dayanıqlığını azaldır və hasilatın 25-30% artmasına şərait yaradır. Nəticələr gostərmişdir ki, kompleks təsirli reagentlərdən istifadə olunduqda məhsulun özlülüyünə təsir edən dayanıqlı su-neft emulsiyalarının əmələ gəlməsinin qarşısı alınır və AQPÇ-nin əmələ gəlməsinin intensivliyi 30%-ə qədər azalır.

Bir sıra reagent nümunələri (A-98, PKİ, CHPX-2005) analiz nəticəsində, onların təsir mexanizmləri və səmərəliliyi müqayisəli şəkildə qiymətləndirmək mümkündür. A-98

reagentindəki piroliz solventləri AQPÇ komponentlərinin demək olar ki, hamısını həll etməyə qadirdir. PKİ kimi reagentlər neftin donma temperaturunu 26°C-dən 12°C-dək azaldır və təmizləmə müddətini 2,5-3 dəfə uzadır. СНПХ-2005 reagentinin təsiri də neftin tərkibindəki parafin kristallarının quruluşunun dəyişməsinə əsaslanır. Parafinlərin kristallik qəfəslərinin böyüməsi nəticəsində parafinçökmənin yaranması azalır, başqa sözlə, reagent AQPÇ inhibitoru kimi təsir göstərir.

Tədqiqatlar göstərir ki, AQPÇ-nin əmələ gəlməsi və onun neft-mədən avadanlıqlarına mənfi təsiri neft hasilatının effektivliyini əhəmiyyətli dərəcədə azaldır. Ənənəvi üsulların məhdud effektivliyi və xüsusilə dərin quyularda səmərəsizliyi səbəbindən müasir kimyəvi reagentlərə əsaslanan yanaşmalar daha çox ön plana çıxır. Sinergetik prinsiplərə əsaslanaraq hazırlanmış inhibitor, depressor və səthi-fəal maddələr kompleks şəkildə təsir göstərərək AQPÇ-nin yaranmasının qarşısını almaqda və mövcud çöküntüləri aradan qaldırmaqda yüksək nəticələr vermişdir (El-Dalatony, 2019). Bu reagentlər, həmçinin neftin reoloji və axıcılıq xüsusiyyətlərini yaxşılaş-dıraraq hasilatın bərpası və səmərəliliyinin artırılması üçün əlverişli şərait yaradır. Nəticə olaraq qeyd edilə bilər ki, AQPÇ-yə qarşı mübarizədə gələcəkdə daha da effektiv nəticələr əldə etmək üçün sinergetik təsirli yeni reagent tərkiblərinin hazırlanması və tətbiqi mühüm əhəmiyyət kəsb edir. Bu yanaşma həm iqtisadi səmərəliliyi artırır, həm də avadanlıqların istismar müddətini uzadır.

Ədəbiyyat

1. Adeyanju, A.O. et al. (2013). *Experimental Study of Wax Deposition in Single Phase Sub-cooled Oil Pipelines.* SPE Nigeria.
2. Ağayev, S.G., Grebnev, A.N. (2009). Ingibirovanie khimicheskimi reagentami. *ASPO. Izv. Vuzov*, №1.

3. Demirbas, A. (2016). *Deposition and flocculation of asphaltenes from crude oils. Petroleum Science and Technology*.
4. El-Dalatony, M. et al. (2019). *Occurrence and Characterization of Paraffin Wax. Energies*.
5. Qurbanov, M.A. et al. (2005). *Azərbaycan neft təsərrüfatı*.
6. Rogel, E., Ovalles, C., Vien, J. et al. (2016). Asphaltene Characterization of Paraffinic Crude Oils. *Fuel*, Vol. 178, 15 August, p.71-76.
7. Soto-Castruita, E., Ramrez, G., Martilnez, C. (2015). Effect of the Non-Newtonian Behavior of Heavy Oils. Energy and Fuels, Vol. 29(5), p.2883-2889.

Elm və Təhsil Tədqiqatları **VIII Respublika Elmi Konfransı / 19 iyun 2025 / 169-171**
Research in Science and Education **VIII Republican Scientific Conference / 19 iyun 2025 / 169-171**
https://doi.org/10.36719/2789-6919/2025/VIII

Rusif Seyfullayev
Azərbaycan Memarlıq və İnşaat Universiteti
magistrant
https://orcid.org/0009-0007-6396-5933
rusif.seyfullayev9@gmail.com

Tikinti sektorunda risklərin idarə olunması və iqtisadi dayanıqlılığın təmin edilməsi strategiyaları

Açar sözlər: *tikinti sektoru, risk idarəetməsi, dayanıqlı inkişaf, infrastruktur layihələri, qeyri-müəyyənliklər, texnoloji yeniliklər, qanunvericilik dəyişiklikləri*
Keywords: *construction sector, risk management, sustainable development, infrastructure projects, uncertainties, technological innovations, legislative changes*

Bu çətinliklərə effektiv yanaşmaq və layihələrin müvəffəqiyyətlə həyata keçirilməsini təmin etmək üçün risklərin idarə olunmasında müasir və strateji yanaşmaların tətbiqi vacibdir. İqtisadi dayanıqlılıq yalnız maliyyə və resursların optimal idarə edilməsindən ibarət deyil, həm də ətraf mühitin qorunması, sosial məsuliyyətlərin yerinə yetirilməsi və davamlı inkişafın təmin olunması kimi aspektləri əhatə edir. Dayanıqlı inkişafın əsas prinsipinə əsasən, tikinti sahəsində risklərin düzgün qiymətləndirilməsi və idarə edilməsi, layihələrin uğurla həyata keçirilməsini və sosial rifahın artırılmasını təmin edir (Jaselskis, El Wardani, 2019; Kwak, Stoddard, 2018). Risklərin erkən müəyyən edilməsi və müvafiq tədbirlərin görülməsi, tikinti şirkətlərinin maliyyə sağlamlığını qorumağa və həmçinin ətraf mühitin və sosial cəhətlərin mühafizəsini təmin etməyə imkan verir (Babalola et al., 2021; Liu, Zhang, Wang, 2019).

Bu tədqiqatın əsas məqsədi, tikinti sektorunda risklərin effektiv şəkildə idarə edilməsi və dayanıqlı inkişafın təmin

edilməsi üçün tətbiq olunan müasir yanaşmaların təsirini dəyərləndirməkdir. Risklərin vaxtında müəyyənləşdirilməsi və düzgün idarə olunması yalnız layihələrin maliyyə nəticələrini yaxşılaşdırmaqla yanaşı, həm də ekoloji və sosial təsirləri müsbət yöndə dəyişdirməyə kömək edir. Bu tədqiqatın nəticələri, tikinti sektorunda dayanıqlı inkişafın təmin edilməsində müasir metodların rolunu və onların effektivliyini qiymətləndirmək məqsədi güdür. Risklərin idarə olunması yalnız layihələrin icra prosesini müsbət yöndə dəyişdirməklə qalmır, həm də sosial rifah və ətraf mühitin qorunmasına dəstək olur. Risklərin səmərəli idarə edilməsi layihələrin yalnız vaxtında tamamlanmasını deyil, həm də sosial, iqtisadi və ekoloji tərəflərini nəzərə alaraq dayanıqlı inkişafı təmin etməyə kömək edir. Bu tədqiqatda həm keyfiyyətli, həm də kvantitativ yanaşmalardan istifadə olunmuşdur. Bu yanaşmaların hər biri, tikinti sektorunda qarşılaşılan riskləri idarə etmək və layihələrin dayanıqlı inkişafını təmin etmək məqsədi daşıyır. Tədqiqatın həyata keçirilməsi üçün sənədlərin araşdırılması, mövcud ədəbiyyatın incələnməsi və sektor üzrə real layihələrdən toplanan məlumatların statistik analizləri əsas metodlar arasında yer alır. Bu yanaşmaların hər biri, tikinti sahəsində risklərin necə müəyyənləşdirildiyini və necə idarə edildiyini başa düşməkdə kömək edir. Tədqiqatın daha da dərinləşməsi üçün, risklərin qiymətləndirilməsi metodlarının və dayanıqlı inkişaf yanaşmalarının təhlilinə də yer verilmişdir. Risklərin qiymətləndirilməsi prosesi, tikinti layihələrinin icra edilməsi öncəsi risklərin təhlil edilməsini, həmçinin layihə gedişatında mümkün olan dəyişiklikləri öyrənmək məqsədi güdür. Bu mərhələdə tətbiq olunan əsas metodlardan biri simulyasiya modelləri və həssaslıq analizidir.

Tədqiqatın nəticələri, tikinti sektorunda risklərin idarə edilməsi və dayanıqlı inkişafın təmin edilməsi üçün müasir yanaşmaların müsbət təsirini göstərir. Simulyasiya modelləri və

həssaslıq analizi kimi kvantitativ metodlar, risklərin daha dəqiq və vaxtında müəyyənləşdirilməsini təmin edərək, layihələrin uğurlu həyata keçirilməsinə kömək edir. Bu yanaşmalar həmçinin, layihələrin maliyyə və sosial dayanıqlılığını artırır.

Ədəbiyyat

1. Babalola, A. A., Gambo, M., & Oladele, A. F. (2021). Risk assessment and management in construction: Insights from case studies. *Construction Innovation*, 21(2), 155-171. https://doi.org/10.1108/CI-06-2020-0157
2. Jaselskis, E.J., El Wardani, M. (2018). Sustainable construction practices and risk management strategies. *Journal of Civil Engineering and Management*, 24(6), 429-438. https://doi.org/10.3846/jcem.2018.7032
3. Kwak, Y.H., Stoddard, M. (2018). Managing risks in construction projects: A framework for project managers. *International Journal of Project Management*, 36(7), 932-941. https://doi.org/10.1016/j.ijproman.2018.04.008
4. Liu, J., Zhang, L., Wang, H. (2019). Risk management in construction projects: A comprehensive review. *Journal of Construction Engineering and Management*, 145(5), 04019032. https://doi.org/10.1061/(ASCE)CO.1943-7862.0001687

Elm və Təhsil Tədqiqatları **VIII Respublika Elmi Konfransı / 19 iyun 2025 / 172-173**
Research in Science and Education **VIII Republican Scientific Conference / 19 iyun 2025 / 172-173**
https://doi.org/10.36719/2789-6919/2025/VIII

Əli Rəhmanov
Azərbaycan Memarlıq və İnşaat Univeristeti
magistrant
https://orcid.org/0009-0002-5009-1484
rehmanov584@gmail.com

Şəhər sahillərinin memarlıq-planlaşdırma xüsusiyyətləri və sahil mühafizə qurğularının tətbiqinin texnoloji əsaslarının analizi

Açar sözlər: *memarlıq, planlaşdırma, şəhər, mühafizə, qurğu, texnologiya, sahil*
Keywords: *architecture, planning, city, protection, facility, technology, coast*

Şəhər sahillərinin memarlıq planlaşdırma xüsusiyyətləri, sahil xətti ilə bağlı olan binaların və infrastrukturların formalaşdırılması və yerləşdirilməsi ilə əlaqədardır. Bu xüsusiyyətlər şəhər inkişafının və memarlığının vacib hissəsini təşkil edir və həmçinin ekologiya, estetik dəyərlər, iqtisadiyyat və sosial məqsədlər baxımından mühüm əhəmiyyət kəsb edir. Şəhər sahillərinin memarlıq planlaşdırılmasında əsas amillərdən biri, bu sahələrin təbii mühitlə uyğunlaşmasını təmin etməkdir. Sahil bölgələrindəki tikinti və infrastruktur layihələrinin təbiətə minimal təsir etməsi, ətraf mühitin qorunması və davamlı inkişaf prinsiplərinə uyğun olması vacibdir. Bununla yanaşı, şəhər sahillərinin memarlıq planlaşdırılmasında nəzərə alınmalı olan bəzi mühüm xüsusiyyətlər aşağıdakılardır: 1. Estetik və vizual cəhətlər – şəhər sahilləri həm şəhər sakinləri, həm də ziyarətçilər üçün görməli yerlərdir. Bu səbəbdən sahilin memarlıq dizaynı, təbiət mənzərələrini qorumağa və mövcud estetik dəyərlərlə uyğunlaşmağa diqqət etməlidir. Məsələn, sahil boyunca yerləşən binaların formasının və rənglərinin təbiətlə uzlaşması, açıq və ya bağlanmış mənzərə sahələrinin yaradılması böyük əhəmiyyət daşıyır. 2.İnfrastrukturun inkişafı – şəhər sahillərinin inkişafın-

da, əhalinin rahatlıqla istifadə edə biləcəyi nəqliyyat, piyada yolları, parklar, istirahət zonaları və kommersiya sahələrinin uyğun şəkildə yerləşdirilməsi əsasdır. Sahil xətti boyunca infrastrukturun planlaşdırılması, həmçinin binaların yüksəkliyinin və yerləşməsinin müəyyən edilməsi, sahil təsiri və təbiətə olan zərərli təsirlərin azaldılmasına yönəldilməlidir. 3.Ekologiya və davamlılıq – şəhər sahillərinin planlaşdırılması zamanı ekoloji amillər ön planda tutulmalıdır. Sahil bölgələrində ekosistemin qorunması və dayanıqlı memarlıq yanaşmaları tətbiq edilməlidir. Məsələn, suyun qorunması, çirkabların təmizlənməsi və ətraf mühitin mühafizəsi üçün xüsusi infrastruktur sistemlərinin yaradılması vacibdir. Sahil boyunca suyun təmizlənməsi və zibilin idarə edilməsi kimi ekoloji məsələlər də nəzərə alınmalıdır. 4. İctimai və sosial məqsədlər – şəhər sahilləri, əhalinin bir araya gəlməsi və sosial fəaliyyətlər göstərməsi üçün vacib məkanlardır. 5. Risklərin idarə edilməsi – şəhər sahillərinin planlaşdırılmasında dəniz səviyyəsinin yüksəlməsi, daşqınlar, qasırğalar və digər təbii fəlakətlərə qarşı hazırlıq vacibdir. Sahil zonasında yerləşən binaların və infrastrukturların bu cür risklərə qarşı dayanıqlı olması təmin edilməlidir. Buna görə də, sahil xətti boyunca təhlükəsizlik tədbirlərinin və mühafizə qurğularının tətbiqi nəzərə alınmalıdır. Şəhər sahil mühafizə qurğularının tətbiqi, sahil zonalarında mövcud olan ətraf mühit problemlərini azaltmaq və bu əraziləri təhlükələrdən qorumaq məqsədilə həyata keçirilən mühüm bir prosesdir. Modern sensorlar, dəniz səviyyəsinin izlənməsi, hava şəraitinə görə dəyişikliklər və digər müvafiq göstəricilər üzərində işləyən texnologiyalar sahil mühafizəsini daha etibarlı və funksional edir. Nəticə etibarilə, şəhər sahil mühafizə qurğularının tətbiqi şəhərlərin dayanıqlı inkişafı üçün mühüm rol oynayır və texnoloji yanaşmalar bu prosesin əsasını təşkil edir. Bu qurğular həm də yerli icmaların həyat keyfiyyətinin artırılmasına, ətraf mühitin qorunmasına və şəhər infrastrukturlarının davamlı olmasına kömək edir.

Elm və Təhsil Tədqiqatları **VIII Respublika Elmi Konfransı / 19 iyun 2025 / 172-173**
Research in Science and Education **VIII Republican Scientific Conference / 19 iyun 2025 / 172-173**
https://doi.org/10.36719/2789-6919/2025/VIII

Rusif Seyfullayev
Azərbaycan Memarlıq və İnşaat Universiteti
magistrant
https://orcid.org/0009-0007-6396-5933
rusif.seyfullayev9@gmail.com

Müasir şəraitdə Sumqayıt şəhərinin sosial-iqtisadi inkişaf istiqamətlərinin yaranması

Açar sözlər: *şəhər, Sumqayıt, texnologiya, sənaye, müasirlik*
Keywords*: city, Sumgayit, technology, industry, modernity*

Sumqayıt şəhərində yalnız sənayenin deyil, bütövlükdə iqtisadiyyatın ümumi inkişaf səviyyəsi nisbətən aşağıdır və onu yüksəltmək zərurəti yaranmışdır. Apardığımız tədqiqatın ümumiləşdirilməsi əsasında belə qənaətə gəlirik ki, Sumqayıt şəhərində sənayenin gələcək inkişafına iqtisadiyyatın digər sahələri ilə sıx əlaqədə kompleks yanaşmaq daha məqsədyönlü olardı. Sumqayıt şəhərinə mədəni-iqtisadi cəhətdən meyl edən ərazilərin düzgün müəyyənləşdirilməsi, bu ərazilərdə xidmət və kənd təsərrüfatı sahələrinin inkişaf etdirilməsi şəhərin daxilində emal sənaye sahələrinin yaradılması hesabına əhalinin tələbatlarının tam ödənilməsi və bununla da şəhər iqtisadiyyatının inkişafında kompleksliliyin təmin edilməsinə müsbət təsir edərdi (Abdalova, 2014).

Müasir dünyada şəhərin inkişaf səviyyəsini xarakterizə edən başlıca cəhətlərdən biri onun təmizliyi ilə əlaqədardır. Respublikamızda ilk dəfə Sumqayıtda 2003-cü ildən başlayaraq təşkil olunan yay düşərgələri indi şəhərin bütün məktəblərini əhatə edir. Fərəhləndirici haldır ki, ötən il Sumqayıtda keçirilmiş Azərbaycan Respublikası Təhsil Nazirliyinin səyyar kollegiya iclasında şəhər təhsil şöbəsinin fəaliyyəti geniş təhlil edilərək

onun qabaqcıl iş təcrübəsinin respublikada yayılması barədə qərar çıxarılıb (Nağıyev, 2013).

Sumqayıtın sosial-iqtisadi inkişafının mövcud mexanizmlərinin və yanaşmalarının yenilənməsi, istifadə olunan metodların və üsulların dünya səviyyəsinə qaldırılması, mütərəqqi şəhərsalma və inkişaf etdirilməsi təcrübəsinin Sumqayıta gətirilməsi və tətbiq olunması, şəhər sosial infrastrukturun səviyyəsinin yüksəldilməsi, müasir dövrün standartlarına cavab verən səviyyəyə çatıdırılması tədbirlərinin kompleks və sistemli şəkildə reallaşdırılması təşəbbüsləri və qətiyyəti ilə belə bir fikir irəli sürmək mümkündür ki, məhz həmin dövrdə Sumqayıtın sosial-iqtisadi inkişafının dünya səviyyəsinə qaldırılmasında İlham Əliyev modeli formalaşmışdır. Dövlət başçısı dəfələrlə bu şəhərə səfər edərək onun inkişafı, sosial-iqtisadi tərəqqisi, müəssisələrin modernizasiya edilməsi, müasir texnologiyalar əsaslı və rəqabətqabiliyyətli müəssisələr şəbəkəsinin yaradılması, şəhər təsərrüfatının maddi-texniki bazasının gücləndirilməsi, əhalinin yaşayış səviyyəsinin daha yüksək standartlara uyğunlaşdırılması, şəhər əhalisinin sosial-iqtisadi fəallığının artırılması üçün təşəbbüslər göstərmiş, tövsiyələr və sərəncamlar vermiş, zəruri tədbirlərin görülməsi üçün dövlət strukturlarına, nazirlik va komitələrə, aidiyyəti təşkilatlara zəruri tapşırıqlar vermişdir (Əliyev, 2019).

Ədəbiyyat

1. Abdalova, M.Ə. (2014). Sənayenin inkişafının Sumqayıt modeli. *AMEA İİ. Elmi əsərlər IV Buraxılış*. S.290-296.
2. Əliyev, Ş. (2019). Azərbaycanın sosial-iqtisadi inkişafında Sumqayıt şəhərinin strateji əhəmiyyəti. "Azəri" nəşriyyatı.
3. Nağıyev, H. (2013). *1920-1990-cı illərdə Azərbaycan şəhərsalmada yeniliklər və ənənə*. Avtoreferat.

İÇİNDƏKİLƏR
CONTENTS

HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR
HUMANITIES AND SOCIAL SCIENCES

Həcər Hüseynova
Ceyhun Hacıbəylinin dialektoloji fəaliyyəti 6
Könül Abdurəhmanova
Emosiyaların linqvistik təhlili və süni intellekt tədqiqi 10
Sərdar Zeynalov
Bəkir Çobanzadə və Fərhad Ağazadənin "Türk qrameri" dərsliyində şəkilçilər 15
Cavadxan Qasımov
Sənayeləşmə siyasətinin milli iqtisadiyyata verdiyi perspektivlər 18
İradə Kərimova
XVII-XVIII əsrlərdə feilin inkişaf tarixi 21
Sahil Hüseynov
Yerli dövlət hakimiyyətinin yenidən qurulması 24
Sevinc Sadıqova
Mahmud Kaşğarinin "Divan"ında zaman və məkan məfhumu bildirən oğuz sözləri 29
Ситара Мустафаева
Российско-грузинский конфликт августа 2008 года и США 32
Nurlana Kazımova
Ustad müəllimin fənn üzrə elmi-metodik hazırlığı 37
Təranə Nağıyeva
Qohum olmayan dillərin sintaktik quruluşa təsiri 39
Könül Cəmilova
Ətraf mühitin mühafizəsinin inzibati hüquqi rejimi 43

Qönçə Rəhimova
Məktəbəqədər təhsildə qlobal çağırışlar və perspektivlər: müasir yanaşmalar və inkişaf istiqamətləri 46
Nərgiz Axundova
Son tunc dövründə qədim yaşayış yerləri 49
Türkan Məhərrəmova
Azərbaycanlılara qarşı etnik təmizləmə: mart soyqırımının ideoloji səbəbləri 51
Sevda Ağayeva
Tələbələrdə oxu bacarıqlarının inkişaf etdirilməsinin nəzəri əsasları 54
Kəmalə Xudaverdiyeva
Avrasiya İqtisadi İttifaqı çərçivəsində Qazaxıstan-Ermənistan münasibətləri: əməkdaşlıq və rəqabət 58
Əvəz Səfərli
Rəqəmsal transformasiya ilə əmək bazarı arasında qarşılıqlı əlaqə 61
Aysel İbrahimova
İnteraktiv tədris zamanı müəllimin rolu 65
Mədinə Allahverdiyeva
Naxçıvan Muxtar Respublikası və iqtisadi inkişaf 70
Fatma Əliyeva
İnformasiya-kommunikasiya texnologiyalarından düzgün istifadə 74
Nuray Məmmədli
Orta tunc dövründə Naxçıvanda şəhər tipli yaşayış yerlərinin formalaşması və arxeoloji xüsusiyyətləri . 78
Türkan Qurbanova
İnklüziv təhsil və qiymətləndirmə: ənənəvi yanaşmalardan alternativ modellərə doğru 83
Gülnar Rasulova
Hərbi məktəblərdə şəxsiyyətin formalaşmasında tərbiyə işinin rolu 86

Gunel Azizova Yusubova
Inclusive Classrooms 89
Aytən Bayramova
Bank xidmətlərinin iqtisadiyyatda mövqeyi və rolu 90
Namiq Vəlixanov
Ali təhsil müəssisələrində strateji dəyişikliklərin kadrların motivasiyasına təsirinin təhlili 94
Əfsanə Qasımzadə
Dövlət sektorunun ümumi tədqiqat nəzəriyyəsi və onun metodologiyası haqqında ümumi məlumat 99
Nuranə Babazadə
Azərbaycanın sosial-iqtisadi inkişafında kiçik və orta sahibkarlığın yeri və rolu 103
Gulay Bayramova
Evaluating the Effects of Artificial Intelligence on Language Learning 107
Нильгюн Набиева
Пути совершенствования речевой культуры учащихся начальных классов 112
Gülay Hüseynova
Kameral vergi yoxlamalarının təşkilinin təkmilləşdirilməsi və qabaqcıl beynəlxalq təcrübədən istifadə istiqamətləri 115
Qönçə Hacıyeva
İngilis dilinin öyrənilməsində internetdən istifadənin rolu .. 118
Yeganə Məhərrəmova
Pandemiyanın sahibkarlıq sektoruna təsiri: cari vəziyyət və inkişaf perspektivləri 122
Murad Kərimov
Gənclərin sosial identiklik mühitinə təsir edən amillər 124
Narınc Cəbrayılova
Müstəqillik dövrü istiqlal mövzusunun ədəbiyyatımıza təsiri və istiqlal poeziyasının nümayəndələri 127
Nurşən Məmmədxanova
Azərbaycan türkcəsi inkişaf tarixi 130

TƏBİƏT ELMLƏRİ
NATURAL SCIENCES

Qorxmaz Hüseynov, Pakizə Məmmədova, Fidan Seyidova
Mis tiostibiat birləşməsinin Ph-dan asılılığının təyini 134
Elnurə Səfərova, Sabiyə Cəbrayılzadə
Biologiyanın tədrisində (VIII sinif) "Qan-damar sistemi" mövzusunda sistemləşdirmənin aparılması 138
Nərminə İsayeva
Acılıqotu bitkisinin yayılması və tibbi əhəmiyyəti (Ephedraceae) 142
Fəridə Həsənova
Otvari gəndalaş (*Sambucus ebulus* L.) bitkisinin müalicəvi xüsusiyyətləri 146
İsrafil Süleymanzadə
Meşə çiyələyinin dərman xammalının farmakoloji və müalicəvi xassələri haqqında 149
Münəvvər Məmmədova
Şeytanqanqalı bitkisinin kimyəvi tərkibi və tibbi əhəmiyyəti 152
Nigar Əhmədova
Propolisin farmakoloji və farmakoterapevtik xarakteristikası 156
Şahin Muradov
Antihelmint baytarlıq preparatlarının dərman bazarında marketinq tədqiqatı 159
Tahə İbrahimov
Şüur haqqında nə bilirik? 162

TEXNİKA ELMLƏRİ
TECHNICAL SCIENCES

Cavad Əliyev
Neft-mədən avadanlıqlarında asfalten-qatran-parafin çöküntülərinə qarşı mübarizə üsulları 165
Rusif Seyfullayev
Tikinti sektorunda risklərin idarə olunması və iqtisadi dayanıqlılığın təmin edilməsi strategiyaları 169
Əli Rəhmanov
Şəhər sahillərinin memarlıq-planlaşdırma xüsusiyyətləri və sahil mühafizə qurğularının tətbiqinin texnoloji əsaslarının analizi 172
Rusif Seyfullayev
Müasir şəraitdə Sumqayıt şəhərinin sosial-iqtisadi inkişaf istiqamətlərinin yaranması 174

Redaksiyanın ünvanı
AZ1073, Bakı şəh.,
Mətbuat prospekti, 529,
“Azərbaycan” nəşriyyatı, 6-cı mərtəbə
Tel.: +994 99 807 67 68
+994 99 808 67 68
e-mail: tedqiqat.rek@aem.az

Editorial address
AZ1073, Baku,
Matbuat Avenue, 529,
“Azerbaijan” Publishing House, 6th floor
Phone: +994 99 807 67 68
+994 99 808 67 68
e-mail: tedqiqat.rek@aem.az

İmzalandı: 12.06.2025
Onlayn çap: 19.06.2025
Kağız formatı: 60x84, 1/16
H/n həcmi: 11 ç.v.
Sifariş: 57

Signed: 12.06.2025
Online publication: 19.06.2025
Format: 60x84, 1/16
Stock issuance: 11 p.s.
Order: 57

aem.az saytında çap edilmişdir
Ünvan: Bakı şəh., Mətbuat prospekti, 529,
“Azərbaycan” nəşriyyatı, 6-cı mərtəbə
Tel.: +994 12 510 63 99
e-mail:zengezurda1868@mail.ru

It has been published on aem.az
Address: Baku city, Matbuat Avenue, 529,
“Azerbaijan” Publishing House, 6th floor
Phone: +994 12 510 63 99
e-mail: zengezurda1868@mail.ru